13 aprel 2018-ci il
№13 (8779)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

## Bu sayımızda

**Vətəndaş müraciətlərinə operativ reaksiya verilir**
➩səh.3

**Fərəh Əliyeva: "Biz daha yaxşı nəticə olsun deyə çalışırıq"**
➩səh.5

**Hədəfimiz ən müasir və uğurlu məktəb modelini yaratmaqdır**
➩səh.7

**Süni intellekt sahəsində müəllim hazırlığı**
➩səh.8

# "Biz daha güclü Azərbaycan quracağıq"



## Prezident İlham Əliyev xalqa müraciət edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirib:**

- Əziz həmvətənlər.

Prezident seçkilərində Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir. Bu etimada, bu böyük dəstəyə görə doğma xalqıma minnətdarlığımı bildirmək istəyirəm.

Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımız üçün əsas şərtdir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Bu seçkilərdə Azərbaycan xalqı sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə səs vermiş, son 15 il ərzində görülən işlərə yüksək qiymət vermişdir. Bütün bu uğurları biz sizinlə birlikdə qazandıq.

Xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimizdən bir addım da geriyə atmamışıq.

Bizim prinsipial mövqeyimiz daha da güclənir. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır, bunun başqa yolu yoxdur.

➩Ardı səh.2

# Birlikdə təhsil almaq əlçatandır

## İnklüziv təhsil uşaqların cəmiyyətə daha uğurla inteqrasiyasına gətirib çıxaracaq

"...Mənim övladımın sağlamlıq imkanları məhduddur. Normal uşaqlar kimi hərəkət etməkdə, danışmaqda çətinlik çəkir, bir sözlə, özünü müstəqil idarə edə bilmir. Ancaq mən də istəyirəm ki, övladım adi həmyaşıdları kimi məktəbə getsin, təhsil alsın. Özü də sağlam uşaqların oxuduğu məktəbdə və onlarla eyni sinifdə...". Bu, sağlamlıq imkanları məhdud olan neçə-neçə uşağın valideynlərinin öz övladı üçün dilə gətirdikləri istək və arzularıdır.

Çox sevindiricidir ki, inklüziv təhsil məhz belə valideynlərin arzularını reallaşdırmağa imkan yaradıb. Əslində inklüziv təhsil nədir? Onun hansı üstünlükləri var? Ölkəmizdə necə həyata keçirilir? İlk olaraq bu haqda bir qədər məlumat vermək istərdik.

İnklüziv təhsil - ümumi təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan, əqli və ya fiziki cəhətdən zəif uşaqlara məktəbəqədər və ümumtəhsil müəssisələrində təhsil almaq imkanı verən, uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf və inteqrativ prosesdir. İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsil sistemində, yerli icmalarda xüsusi dəstək xidmətləri göstərilməklə yaşıdları ilə birlikdə oynamalarına, təhsil almalarına, inkişaf etmələrinə şərait yaradır. Belə bir təhsil uşaqların müstəqil bir fərd və təhsil zamanı onların hər birinin öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönəlib.

İnklüziv təhsilin üstünlüklərindən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqlarla sağlam uşaqların bir yerdə təhsil almasıdır ki, bu da sağlamlıq imkanları məhdud uşaqların hərtərəfli inkişafına səbəb olur. Məhz belə uşaqlar öz sağlam həmyaşıdlarının nailiyyətlərini təkrarlamağa çalışır, onlar kimi hərəkət etməyə, danışmağa, fəaliyyət göstərməyə özlərində güc, qüvvət toplamağa səy göstərirlər. Onlar özlərini yararsız, köməksiz saymır, kollektivə adaptasiya olunaraq bir fərd, cəmiyyətə lazımlı insan olduqlarını hiss edirlər.

### İnklüziv təhsillə bağlı aparılan işlər

Təhsil Nazirliyinin son illər həyata keçirdiyi ən uğurlu layihələrdən biri də məhz inklüziv təhsillə bağlı olub. Belə ki, ölkəmizdə "İnklüziv təhsil layihəsi"nin icrasına artıq 2005-ci ildən start verilib. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər)" təsdiq edilib.

➩Ardı səh.9

# Pulunu ver, sonra oxu

2018-2019-cu tədris ili üçün ali məktəblərə sənəd qəbuluna start verilib. Bu da o deməkdir ki, ayrı-ayrı ixtisas qrupları üzrə hazırlaşan, gələcəyini müxtəlif sahələrdə ixtisaslı kadr kimi görmək istəyən gənclər üçün həlledici an yaxınlaşır. İndi onları və ailələrini hansı ixtisasa yiyələnəcəklərindən daha çox, başqa suallar maraqlandırır. Seçdiyi ixtisasa hansı ali məktəbdə yiyələnəcək? Bunun üçün hansı təhsil formasını seçməlidir? Topladığı bal sevdiyi ixtisasa seçdiyi universitetdə yiyələnməsinə imkan verəcəkmi? Bəs, ailəsi maddi cəhətdən onun arzularını gerçəkləşdirmək iqtidarındadırmı?

### Təhsil haqqı qorxusu

Bütün bu suallar ətrafında düşünərkən istər-istəməz ötən ilin acı təcrübəsi yada düşür. Hansı ki, kifayət qədər yüksək bal toplayan bir neçə gəncin təhsildən kənarda qalması bu məsələ ətrafında xeyli müzakirəyə səbəb oldu. "Balı çatmırsa, növbəti il özünü bir daha sınayar", "Pulu yoxdursa, gələn il daha çox bal toplayıb ödənişsiz oxuyar" deyənlərlə yanaşı, təhsil haqqının ödənilməsində heç bir güzəştə getməyən ali məktəbləri qınayanlar, pula görə gənclərin təhsildən kənarda qalmasını təhsil sistemində həyata keçirilən islahatlara zidd olduğunu iddia edənlər də oldu. Qızğın müzakirələrin sonunda görünən odur ki, bu son bir ildə heç nə dəyişməyib.

Təhsil üzrə ekspert Nadir İsrafilovun fikrincə, təhsil haqları ölkə əhalisinin böyük hissəsinin gəliri ilə müqayisədə çox yüksəkdir. Nəinki ölkə əhalisinin gəliri, qonşu dövlətlərin ali təhsil müəssisələrində qüvvədə olan təhsil haqqı ilə müqayisədə də Azərbaycan universitetləri daha bahalıdır: "Ona görə də ali məktəblərdə oxumaq şansı əldə edən, ancaq ödənişsiz təhsil üçün cəmi bir neçə balı çatmayan xeyli gənc maddi çətinlik ucbatından bu imkandan yararlana bilmir. Bildiyim qədər, Təhsil Nazirliyi ali təhsil müəssisələrinə təhsil haqlarını ödəyə bilməyən tələbələrə ödənişlərini hissə-hissə ödəmələri üçün şərait yaratmaları barədə tapşırıq verib. Hətta ödənişlərin bütöv formada ödənilməsi ilə bağlı hər hansı problemlə rastlaşanlar Təhsil Nazirliyinə müraciət edə bilərlər. Ancaq bu güzəşt ikinci və daha yuxarı kurslarda təhsil alanlara şamil olunur".

Maraqlıdır ki, Azərbaycan universitetləri arasında bu məsələyə münasibət demək olar ki, eynidir. İstər beynəlxalq miqyasda tanınan, dünya universitetləri siyahısına düşməyi bacaran təhsil müəssisəsi olsun, istərsə də Azərbaycan Turizm və Menecment Universiteti kimi yeni yaranan, cəmi bir neçə ildir ki, yerlərin tamamilə dolmasına nail olan universitet olsun, fərq etməz. Ölkə təhsil müəssisələri birinci kursa qəbul olunanlara güzəşt etmir.

➩Ardı səh.4



# "Bu peşəni mənə elə təsviri incəsənət müəllimim sevdirib"

## *Nazlı Əhmədli:* "Müəllim həm də psixoloq olmalıdır"

Səh.10

# Elektron kitabların sayı 209-a çatdırılıb

Təhsil Nazirliyi tərəfindən hazırlanmış elektron dərslik portalında *(www.e-derslik.edu.az)* yerləşdirilən elektron kitabların sayı 209-a çatdırılıb. 2018-ci ilin ilk 4 ayında portala X sinif üzrə 10 yeni elektron dərslik əlavə edilib. Bundan əlavə 15 elektron dərslik multimedia vəsaitləri ilə zənginləşdirilib. Həmin dərsliklərdə mövzulara uyğun video, qrafika, səs və digər multimedia vasitələri ilə şagirdlər öyrəndikləri bilikləri daha da artıra bilərlər. Hazırda 187 elektron dərslik, 22 müəllim üçün metodik vəsait olmaqla portalda 209 elektron kitab yerləşdirilib. X sinif üzrə dərsliklərin yerləşdirilməsi prosesi davam edir. Dərsliklər Azərbaycan və rus bölmələri üzrə I-X siniflərə əsasən sıralanıb.

Elektron dərslik portalından indiyədək 2915000 dəfədən çox istifadə olunub. Ötən bir ildə isə bu rəqəm 1021000 dəfədən çox olub. Portaldan qeydiyyatdan keçən istifadəçilərin sayı hazırda 178019 nəfərdir. Cari ildə portalın ümumi dizaynı tamamilə yenilənib və yeni funksiyalar əlavə olunub. Son dəyişikliklərdən sonra qeydiyyatdan keçmədən də portala daxil olub elektron kitablardan istifadə etmək olur. Bundan əlavə, bütün dərsliklər üzrə sürətli axtarış sistemi aktivləşdirilib.

2014-cü ildən fəaliyyət göstərən *www.e-derslik.edu.az* portalının hazırlanmasında məqsəd təhsilalanları təhsil prosesində fəallaşdırmaq və onların İKT-dən səmərəli istifadə etməsinə, dərslikləri elektron formatda oxumasına imkan yaratmaqdır. İstifadəçilər portalda olan müəllim üçün metodiki vəsaitləri seçmək üçün əlavə olunmuş filtrdən istifadə edə bilərlər.

Qeyd edək ki, elektron dərslik portalı Milli İnternet Forumunun "Milli Net 2017" müsabiqəsinin münsiflər heyətinin qərarına əsasən "Təhsil və Elm" nominasiyası üzrə ilin ən yaxşı portalı seçilib.

# "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri"

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" mövzusunda XVII beynəlxalq elmi-praktik konfrans keçirilib. Konfransda iştirak etmək üçün humanitar sahədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarının elmi işçiləri, ali və orta təhsil müəssisələrinin professor-müəllim heyəti, doktorant, dissertant və magistrantlarla bərabər bir çox xarici ölkələrin tanınmış universitetlərinin tədqiqatçıları - Türkiyənin İstanbul Texniki Universiteti, Türk Musiqisi Dövlət Konservatoriyası, Türkiyə Kars Qafqaz Universiteti, Rusiyanın Krım Mühəndislik-Pedaqoji Universiteti, Qazaxıstanın Kurmanqazı adına Milli Konservatoriyası, Qırğızıstanın Qırğız-Türk Manas Universiteti, İranın Tehran Universiteti, ABŞ-ın Coastal Karolina Universiteti, Macarıstan və İngiltərədən olan mütəxəssislər də iştirak ediblər.

➩Ardı səh.3

## RƏSMİ XRONİKA



- Aprelin 12-də Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə keçirilən prezident seçkilərində müşahidəçi kimi iştirak edən bir sıra dövlətlərin və beynəlxalq təşkilatların nümayəndə heyətlərinin rəhbərlərini qəbul edib.
- Prezident İlham Əliyev aprelin 12-də Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışında iştirak edib.
- Azərbaycan Prezidenti İlham Əliyev aprelin 11-də prezident seçkiləri günü Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində səs verib.
- Aprelin 10-da dövlət başçısı İlham Əliyev Kosta-Rika Respublikasının Prezidenti Karlos Alvarado Kesadaya bu vəzifəyə seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.
- Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib-.Ölkə başçısı İlham Əliyev iclasda giriş və yekun nitqi söyləyib.
- Prezident İlham Əliyev aprelin 9-da Macarıstanın Baş naziri Viktor Orbana başçılıq etdiyi koalisiyanın ölkəsində keçirilmiş parlament seçkilərində qələbəsi münasibətilə təbrik məktubu ünvanlayıb.
- Aprelin 9-da dövlət başçısı İlham Əliyev əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyev aprelin 8-də Gürcüstanın Prezidenti Giorgi Marqvelaşviliyə Tkibuli bölgəsində yerləşən kömür mədənində baş vermiş uçqun nəticəsində insan tələfatı ilə əlaqədar başsağlığı verib.
- Aprelin 7-də ölkə başçısı İlham Əliyev Şəmkir Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 6-da Bakı Ekspo Mərkəzində “AITF-2018” XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və “HOREX Caucasus-2018” XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar.
- Aprelin 6-da Prezident İlham Əliyev Lənkəran şəhərində Olimpiya İdman Kompleksinin tikintisi, Lerik şəhərinin isə su təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncamlar imzalayıb.
- Dövlət başçısı İlham Əliyev aprelin 6-da Salman Musa oğlu Musayevin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Aprelin 6-da ölkə başçısı İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını Müqəddəs Pasxa bayramı münasibətilə təbrik edib.

# “Biz daha güclü Azərbaycan quracağıq”

## Prezident İlham Əliyev xalqa müraciət edib

⇦ **Əvvəli səh.1**

Son illər ərzində bir çox mötəbər beynəlxalq təşkilatlar bizim mövqeyimizi, ədaləti dəstəkləyən bir sıra qərar və qətnamələr qəbul etmişlər. Biz böyük diplomatik qələbələrə nail olmuşuq. Eyni zamanda, döyüş meydanında biz böyük qələbəyə nail olmuşuq. Azərbaycan əsgəri, Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal altında olan torpaqlarımızın bir hissəsini işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan təmizləndi və o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlara həyat qayıdır, insanlar qayıdır. O torpaqlarda prezident seçkiləri keçirilir. Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir.

Biz daha güclü olmalıyıq. Güclü olmaq üçün daha güclü iqtisadiyyat qurmalıyıq. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artmışdır və bu gün Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasındadır. Rəqabət qabiliyyətliliyinə görə biz 35-ci yerdəyik.

Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Son 15 il ərzində maaşlar və pensiyalar 8 dəfə artmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilibdir. Biz ən qabaqcıl texnologiyaları ölkəmizə gətiririk, tətbiq edirik və texnoloji, elmi inkişaf gələcək fəaliyyətimiz üçün də əsas prioritetlərdən biri olacaqdır.

Bir sözlə, bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Azərbaycan nəhəng enerji və nəqliyyat layihələrini icra edir. Bizim təşəbbüsümüz və fəal iştirakımızla o layihələr əsasında Avrasiyanın enerji və nəqliyyat xəritələri yenidən tərtib olunur. Azərbaycan dövləti heç vaxt bugünkü qədər güclü olmamışdır. Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq.

Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik. Yeni qələbələrə doğru irəli!

**AZƏRTAC**

## Cəlilabad, Masallı və Yardımlı rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

**1.** Cəlilabad, Masallı və Yardımlı rayonlarında cəmi 992 şagird yerlik modul tipli 15 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 5177000 (beş milyon bir yüz yetmiş yeddi min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 aprel 2018-ci il*

## Cəlilabad, Masallı və Yardımlı rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 aprel tarixli Sərəncamına Əlavə*

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Cəlilabad rayonu Türkelli kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 310 000 |
| 2 | Cəlilabad rayonu Qarağac kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 3 | Cəlilabad rayonu Ağusəm kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 4 | Cəlilabad rayonu Oğrubulaq kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 5 | Cəlilabad rayonu Hacıməmmədli kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| 6 | Cəlilabad rayonu Lallar kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 7 | Cəlilabad rayonu Hacıcavad kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 8 | Cəlilabad rayonu Ətcələr kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 9 | Cəlilabad rayonu Ləzran kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 10 | Cəlilabad rayonu Suluçeşmə kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 11 | Masallı rayonu Şıxlar kənd 2 nömrəli 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 12 | Masallı rayonu Bala Təklə kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 13 | Yardımlı rayonu Şıxlar kənd 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 390 000 |
| 14 | Yardımlı rayonu Bilnə kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 15 | Yardımlı rayonu Avun kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| | **Cəmi** | **5 177 000** |

## Ağdaş və Bərdə rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

**1.** Ağdaş və Bərdə rayonlarında cəmi 412 şagird yerlik modul tipli 9 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 2595000 (iki milyon beş yüz doxsan beş min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 aprel 2018-ci il*

## Ağdaş və Bərdə rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

*Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 aprel tarixli Sərəncamına Əlavə*

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Ağdaş rayonu Xınaxlı kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 2 | Ağdaş rayonu Malay kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 3 | Ağdaş rayonu Əmirmahmud kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 260 000 |
| 4 | Bərdə rayonu İmamqulubəyli kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 5 | Ağdaş rayonu Binələr kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 6 | Ağdaş rayonu Bulaqotağı kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 260 000 |
| 7 | Bərdə rayonu Böyük Qəcər kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 8 | Bərdə rayonu Nəcəfqulubəyli kənd 56 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 285 000 |
| 9 | Bərdə rayonu Təhlə kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| | **Cəmi** | **2 595 000** |

## Azərbaycan Respublikasında “Elm günü”nün təsis edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və cəmiyyətin inkişafında elmin əhəmiyyətini nəzərə alaraq **qərara alıram:**

Hər il martın 27-si Azərbaycan Respublikasında “Elm günü” kimi qeyd edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 aprel 2018-ci il*

## Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

“Azərbaycan Respublikasında gənclər siyasəti sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 mart tarixli 1871 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Gənclər Fondu publik hüquqi şəxs yaradılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclər siyasətinin prioritet istiqamətlərindən irəli gələn layihə və proqramların icrası, o cümlədən gənclərin sosial rifahının yaxşılaşdırılması məqsədi ilə **qərara alıram:**

**1.** Gənclərin təhsil, məşğulluq, innovasiya fəaliyyəti, beynəlxalq əməkdaşlıq, asudə vaxtın səmərəli təşkili, ictimai fəal gənclərin stimullaşdırılması istiqamətində həyata keçirilən layihələrin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər Fonduna 3,0 (üç) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 aprel 2018-ci il*

# İdman məktəblərinin əməkdaşları üçün seminar

## İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizədə aidiyyəti təşkilatlarla əməkdaşlıq əlaqələrindən bəhs edilib




**Rəşad ZİYADOV**

Aprelin 9-da Təhsil Nazirliyi və Azərbaycan Milli Antidopinq Agentliyinin təşkilatçılığı ilə Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən idman məktəblərinin rəhbərləri, məşqçi-müəllimləri, həkimləri və idmançıları üçün seminar keçirilib.

Seminarda iştirak edən təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında hazırda Təhsil Nazirliyi sistemində 76 idman məktəbinin fəaliyyət göstərdiyini deyib. Bildirib ki, həmin məktəblərdən 3-ü Uşaq-Gənclər İdman Məktəbi, 13-ü İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi və 60-ı isə Uşaq-Gənclər İdmanŞahmat Məktəbidir. Qeyd olunub ki, bu məktəblərdə 29 idman növü inkişaf etdirilir. İdman məktəblərinin idmançıları ölkə və beynəlxalq miqyaslı yarışlarda təkcə 2017-ci ildə 2346 medal qazanıb.

Ölkəmizin idman sahəsində əldə etdiyi uğurlardan, idmançılara göstərilən diqqət və qayğıdan danışan nazir müavini Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən həmin məktəblərin məşqçi-müəllimlər, həkimlər və idmançıları tərəfindən idmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə aparılmasında, eləcə də qadağa qoyulmuş yeni dərman preparatları və digər qaydalar haqqında məlumatlandırılmasında seminarın əhəmiyyətini xüsusi vurğulayıb.

Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru Şəfəq Hüseynli agentlik haqqında məlumat verib, idmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizədə aidiyyəti təşkilatlarla əməkdaşlıq əlaqələrindən bəhs edib.

Sonra Azərbaycan Milli Antidopinq Agentliyinin əməkdaşları tərəfindən mövzu ilə bağlı təqdimatlar edilib, suallar cavablandırılıb.

# "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri"

## ADMİU-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş elmi konfrans

⇦ Əvvəli səh.1

**Sifai SƏFƏROVA**

Konfransı ADMİU-nun rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Fərəh Əliyeva açaraq tədbirin əhəmiyyətindən danışıb. Bildirib ki, 2002-ci ildən ADMİU tərəfindən hər il ənənəvi olaraq təşkil olunan konfransın əsas məqsədi türkologiya sahəsində aparılan araşdırmaların nəticələrinin ümumiləşdirilməsi və elmi informasiya mübadiləsidir. Builki beynəlxalq elmi konfrans da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunub.

Daha sonra konfransda AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin "Azərbaycan Xalq Cümhuriyyətinin idealları və müasir dövr", AMEA-nın müxbir üzvü, sənətşünaslıq üzrə elmlər doktoru, professor Rəna Məmmədovanın "İncəsənətin etnomorfoloji təhlili və vəhdət ideyaları", Türkiyə Qars Qafqaz Universitetinin dosenti Yavuz Selim Kafkasyalının " Cənubi Azərbaycanda 1941-1946-cı illər arasında musiqi dərslərinə Bakının təsiri", ABS-ın Coastal Karolina Universitetinin professoru Anna Oldfieldin "ABŞ-da "Kitabi-Dədə Qorqud" ədəbiyyat və epik musiqi vasitəsilə türk mədəniyyətlərinin tədrisinin transformativ təsiri", Macarıstandan müstəqil musiqi tədqiqatçısı Şandor Sabonun "Ritual və musiqi: ibadətdə və mədəniyyətdə" mövzularında məruzələri dinlənilib. Çıxışçılar tədbirin bütün türk dünyasını düşündürən aktual məsələlərə həsr olunduğunu vurğulayıblar.

Qeyd edək ki, plenar iclasdan sonra konfrans öz işini bölmələrdə davam etdirib.

# Vətəndaş müraciətlərinə operativ reaksiya verilir

## BŞTİ-yə 1345 ərizə və 40 məktub ünvanlanıb

Birinci sinfə *mektebeqebul.edu.az* sistemi vasitəsilə elektron qeydiyyat prosesi müddətində Bakı Şəhəri üzrə Təhsil İdarəsinə (Alternativ Qeydiyyat Mərkəzləri ilə birgə) 3000-dən çox vətəndaşın müraciəti daxil olub.

Belə ki, ötən müddətdə birinci sinfə şagird qəbulu ilə bağlı BŞTİ-yə 1345 ərizə və 40 məktub ünvanlanıb. 151 vətəndaş müvafiq məsələlərlə bağlı qəbul edilib. Daxil olan telefon zəngləri də operativ şəkildə cavablandırılıb.

Hər hansı səbəbdən elektron qeydiyyatdan keçə bilməyən valideynlərə kömək üçün yaradılmış Alternativ Qeydiyyat Mərkəzlərinə isə 1 312 müraciət daxil olub.

Qeydiyyat və sənəd qəbulu prosesində araşdırmaya ehtiyac olan məsələlərin həlli məqsədilə Bakı şəhəri üzrə müvafiq ümumi təhsil müəssisəsində fəaliyyət göstərən Apelyasiya Komissiyaları da vətəndaşlara zəruri dəstək verir.

Bundan əlavə, birinci sinfə *mektebeqebul.edu.az* elektron sistemi vasitəsilə ərizələrin qeydiyyatı prosesində valideynlərə daha çevik cavab vermək məqsədilə yaradılmış "Əlaqə" bölməsinə 200-dən çox onlayn müraciət daxil olub və bütün müraciətlər müvafiq müddət ərzində cavablandırılıb.

Qeyd edək ki, birinci sinfə qəbulla bağlı həmçinin, "Əlaqə" bölməsi vasitəsilə valideynlərə rəsmi müraciət etmək imkanı yaradılıb. İndiyədək mektebeqebul.edu.az saytının "Əlaqə" bölməsində valideynlər yalnız qısa suallara cavab ala bilirdilərsə, artıq bu bölməyə yazılan müraciətlər rəsmi müraciət kimi qəbul edilir. Bu yenilik valideynlərin vaxt itkisinin qarşısının alınması, ənənəvi yazılı (məktub) müraciətlərin cavablandırılması zamanı meydana çıxa bilən obyektiv ləngimələrin aradan qaldırılması və müraciətlərin daha operativ cavablandırılması məqsədlərinə xidmət edir. Odur ki, valideynlərin birinci sinfə onlayn qeydiyyat prosesində onları maraqlandıran məsələlərə daha operativ cavab almaları üçün əsasən, elektron sistemin "Əlaqə" bölməsinə müraciət etmələri tövsiyə olunur.

Onu da qeyd edək ki, aprelin 12-nə (saat 11:00) olan məlumata əsasən, elektron sistem *mektebeqebul.edu.az* vasitəsilə paytaxt məktəblərinin I sinfinə qəbul üçün 40000-ə yaxın sorğu yerləşdirilib.

# "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası"

## ADU-da I Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib

Aprelin 9-da Azərbaycan Dillər Universitetinin (ADU) Yeni Azərbaycan Partiyası (YAP) və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) dəstəyi ilə təşkil etdiyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.

Açılış mərasimindən öncə konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin universitetin foyesində yerləşən büstü önünə əklil və tər güllər qoyublar.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Açılış mərasimində ADU-nun rektoru, akademik K.Abdulla ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş I Beynzlxalq elmi konfransda qonaqları görməkdən məmnun olduğunu bildirib. Azərbaycanda multkulturalizm və tolerantlıq ideologiyasının dövlət siyasəti səviyyəsinə qalxdığını deyən rektor K.Abdulla bu sahədə aparılan siyasətin ölkə rəhbərinin digər ölkələrin də xalqlarına olan xoş məramını ortaya qoyduğunu söyləyib. ADU-nun tarixində bu kimi mötəbər tədbirin ilk dəfə keçirildiyini deyən K.Abdulla bu konfransın məqsədinin ümummilli lider Heydər Əliyevin Azərbaycan multikulturalizmi sahəsində gördüyü işlərin təbliğ edilməsi olduğunu bildirib. Rektor K.Abdulla 9 aprel-5 may 2018-ci il tarixlərini əhatə edəcək konfransa dəstək verən Yeni Azərbaycan Partiyası və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə minnətdarlıq edib. K.Abdulla konfransın plenar və yekun iclaslarının Azərbaycan Dillər Universitetində, bölmə iclaslarının isə bu universitetlə yanaşı, müxtəlif ölkələrin müvafiq qabaqcıl ali məktəblərinin bazalarında keçiriləcəyini diqqətə çatdırıb. O, bildirib ki, bölmələr Rusiya Federasiyasının I Prezidenti Boris Yeltsin adına Ural Federal Universitetində "ADR-Şərqdə ilk demokratik respublikadır", Ukrayna Respublikasının Kiyev Milli Linqvistika Universitetində "Azərbaycan-Ukrayna münasibətlərinin inkişafında Heydər Əliyevin rolu", Türkiyənin Ərzurum Universitetində "Heydər Əliyev və türk dünyası" və Ərciyəs Universitetində "Müasir Azərbaycan: sosial, siyasi və iqtisadi inkişafı", A.S.Puşkin adına Dövlət Rus Dili İnstitutunda "Sərhədlərin fövqündə: Rusiya və Azərbaycan: mədəniyyətlərarası dialoq təcrübəsi", İtaliya Respublikasının Kassino Cənubi Latsio Universitetində (Sülh və Təhlükəsizlik Fondu, Üçüncü Roma Universiteti, Genuya Universiteti, Link Kampus Universiteti, Nim Universiteti (Fransa), Beynəlxalq Menecment Universitetinin (Moldova) iştirakı ilə) "Multikulturalizm, sosial təhlükəsizlik, immiqrasiya, azadlıq", Moskva Dövlət Linqvistika Universitetində "Dillərin və mədəniyyətlərin dialoqu çoxqütblü dünyada birgəyaşayışın amili kimi", Moskva Şəhər Pedaqoji Universitetinin Samara filialında "Şərq-Qərb: XXI əsrdə mədəniyyətlərarası dialoq", Gürcüstanın Tbilisi Dövlət Universitetində (Batumi, Kutaisi, Qori, Telavi universitetləri, Gürcüstan EA müvafiq institutları və "Bilik" cəmiyyətinin iştirakı ilə) "Azərbaycan-Gürcüstan münasibətlərinin təşəkkülündə Heydər Əliyevin rolu", Çin Xalq Respublikasının Xucjou Universitetində "Bir qurşaq - bir yol: multikulturalizmin öyrənilməsi", Belarus Respublikasının Minsk Dövlət Linqvistik Universitetində "Heydər Əliyev və Azərbaycan-Belarus münasibətləri", Serbiya Respublikası Belqrad Universitetində "Multikulturalizmin Azərbaycan təcrübəsi", Almaniya Federativ Respublikasının Ausburq Universitetində "Azərbaycan və Almaniya multikulturalizmi" mövzularında keçiriləcək. K.Abdullanın dediyinə görə adıkeçən xarici universitetlərlə danışıqlar aparılıb və birgə fəaliyyət proqramı hazırlanıb, hər bölmədə Azərbaycan alimlərinin və Bakıda yekun plenar iclasda xarici universitet rektorlarının və nümayəndələrinin iştirakı nəzərdə tutulub. K.Abdulla konfransın bölmə iclaslarının baş tutacağı müvafiq universitetlərin ümummilli lider Heydər Əliyevə olan dərin ehtiramlarının göstərilməsi ilə yanaşı, öz ölkələrinin multikultural dəyərlərindən bəhs etməkdə və "Azərbaycan multikulturalizmi" fənninin ölkələrində tədris olunmasında maraqlı olduqlarını qeyd edib. K.Abdulla söyləyib ki, bu layihə öz unikallığı ilə həm universitetlərarası münasibətlərin formalaşmasına, həm ulu öndərin ideyalarının Avropa və Asiyada bir daha yayılmasına, həm də azərbaycançılıq ideologiyasının yeni formatda inkişafına təkan verəcəkdir. Bundan əlavə, konfransın universitetlər, mütəxəssislər və tələbələr arasındakı əlaqələrin möhkəmlənməsinə, həmçinin ölkələrarası əlaqələrin dərinləşməsinə və ölkəmizə olan diqqət və marağın artmasına xidmət etdiyini qeyd edən rektor K.Abdulla tədbirə ADU-nun professor-müəllim heyəti ilə yanaşı, həmin universitetlərin elmi qüvvəsinin də cəlb olunduğunu söyləyib. Rektor K.Abdulla konfransın təşkilində yaxından iştirak edən hər kəsə təşəkkürünü bildirib və konfransın işində uğurlar arzulayıb.

ADU tələbələri "Qaudeamus" tələbə himnini səsləndirdikdən sonra konfransın qonaqlarına söz verilib.

Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov, Azərbaycan Respublikası təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sancay Rana Azərbaycanın multikulturalizm və tolerantlıq dəyərləri, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının digər millətlərlə birgə yaşayışının təmin edilməsi, millətlərarası münasibətlərin tənzimlənməsi yönündə oynadığı vacib rolundan söz açıb, konfransın bu dəyərlərin genişmiqyaslı vüsət alması istiqamətində mühüm əhəmiyyətə malik olduğunu qeyd ediblər.

Konfransın tələbələrin həyatında oynayacağı əhəmiyyətli roldan danışan ADU-nun tələbəsi, xəlifə rektor Nicat Aşurov və magistrant Leyla Cəfərova təşkilatçılara və konfrans iştirakçılarına uğurlar arzulayıblar.

Sonda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

# BMU-da SAP-la əməkdaşlıq müzakirə olunub

Bakı Mühəndislik Universiteti Texnoparkının təşkilatçılığı ilə Proqram təminatı bazarında dünya liderlərindən biri olan SAP şirkətinin nümayəndəsi Yuriy Kupriyanov və şirkətin Azərbaycan üzrə rəhbəri Rüfət Hacıyev universitetdə olublar. Rektor, professor Havar Məmmədov qonaqları qəbul edib və universitet haqqında ətraflı məlumat verib. Bildirib ki, Bakı Mühəndislik Universiteti öz kadrlarını cari bazar ehtiyaclarına uyğun olaraq hazırlamağa böyük diqqət yetirir. "Universitetdə tədris olunan ixtisasların əsasən ingilis dilində olması və Texnoparkın fəaliyyəti bizə imkan verir ki, beynəlxalq layihələrdə iştirak edək", - deyə o vurğulayıb.

Şirkətin fəaliyyəti haqqında məlumat verən Yuriy Kupriyanov qeyd edib ki, SAP proqram təminatı 293500-dən çox müştəri tərəfindən istifadə olunur. Universitet İttifaqı olan SAP-ın məqsədi universitetləri, tələbələr və işgüzar nümayəndələri birləşdirməkdir. Bütün iştirakçılar üçün əlverişli olan qlobal proqram, kadr çatışmazlığını doldurmağa və müxtəlif sənaye sahələrində gələcək mütəxəssisləri tapmaq problemini həll etməyə kömək edir. Tələbələr biznes proseslərinin alqoritmini başa düşərək böyük data və ən yaxşı IT sistemləri ilə işləmək üçün öz bacarığını artıra və Azərbaycan iqtisadiyyatına əhəmiyyətli töhfə verə bilər.

Rektorla görüşdən sonra Texnoparkda dekan və kafedra müdirlərinin iştirakı ilə gələcəkdə universitetlə SAP arasında qurulacaq əməkdaşlığın müzakirəsi keçirilib. Müzakirə zamanı Texnoparkın müdiri Samir Məmmədov vurğulayıb ki, Bakı Mühəndislik Universiteti SAP-la əməkdaşlıq etməklə dünyanın 109 ölkəsində 3100 təhsil müəssisəsi, innovasiya və akademik mərkəzləri, start-up və tədqiqat layihələri şəbəkəsinin bir hissəsi olacaq. Real biznes halları və qabaqcıl şirkətlərin təcrübəsi əsasında yaradılan kurslara giriş universitetə keyfiyyətli, bacarıqlı və ixtisaslı mütəxəssislər yetişdirməyə imkan verəcəkdir. Həmçinin Universitet İttifaqına qoşulma universitet müəllimlərinin SAP ustad dərslərində pulsuz iştirakına imkanı verir. Universitetin müəllim və tələbələri SAP Learning Hub Online Portal vasitəsilə təlim kursları və materiallarına daxil olaraq müasir texnoloji mövzularda assosiativ model proqramının iştirakçısı olacaq.



# Pulunu ver, sonra oxu

## Və yaxud ali təhsil müəssisələri təhsil haqqını necə formalaşdırır?

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Sənədlərinin arasında birillik təhsil haqqını ödədiyinə dair qəbzi görmədən gənci universitetə qəbul etmirlər. Məsələn, “Round University Ranking” Beynəlxalq reytinqinin (RUR-2018) nəticələrinə əsasən, dünya universitetləri siyahısında 686-cı yerdə qərarlaşan Bakı Dövlət Universitetində ödəmədə çox ciddi nəzarət var. BDU-da rektorun maliyyə müşaviri Məzahir Sultanovun sözlərinə görə, ödənişli ixtisaslar üzrə birinci kursa qəbul olunanların sənədləri təhsil haqqını ödəmədən götürülmür. Növbəti kurslarda isə təhsil haqqının iki dəfəyə, birinci yarımili yanvar semestrinədək, qalanını da təhsil ilinin sonunadək ödəməyə şərait yaradılır.

Ölkədə 100 yaşını qeyd edəcək daha bir universitet - Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov “Azərbaycan müəllimi”nə müsahibəsində deyir: “Tələbə ödənişi iki hissədə verir. Dekanlıqların təqdimatı ilə hətta iki hissəyə bölünmüş məbləğin də hissə-hissə ödənilməsinə şərait yaradırıq”.

Ancaq birinci kursda oxuyacaq gənc mütləq təhsil haqqını bəri başdan ödəməlidir: “Dünyada da qayda belədir ki, əvvəlcə ödəniş olur, sonra tələbə dərsə başlayır. Elektron qaydada həyata keçirilən bu prosesdə heç bir səbəb qəbul edilmir. Ödəniş yoxdursa, tələbənin adı qeydiyyata düşmür”.

C.Cəfərovun fikrincə, maddi çətinliklər ali təhsil müəssisələrinə də başqa çıxış yolu buraxmır: “İmkansız tələbələrə Tələbə Həmkarlar Təşkilatının köməyi olur, yeməkxanadan pulsuz istifadəyə də imkan yaradılır. Bu yolla tələbələrə kömək etməyə çalışırıq. Ancaq kaş elə bir fondumuz olardı ki, ehtiyac sahibi olan tələbələrin təhsil haqqını həmin fonddan ödəyərdik”.

Ancaq fərqlənənlər də var. 1973-cü ildə yaransa da, əvvəlki təhsil sistemindən tamamilə imtina edərək Avropaya inteqrasiya yoluna üstünlük verən, dünyanın qabaqcıl ali məktəblərinin ən yeni metodlarının tətbiqinə nail olan Azərbaycan Dillər Universiteti bir çox məsələdə olduğu kimi, bu məsələdə də fərqli mövqe nümayiş etdirir. ADU-nun tədris işləri üzrə prorektoru Əfqan Abdullayev hesab edir ki, ali məktəbə daxil olan şəxslərə “Birinci kursun pulunu ver, sonra sənədlərini qəbul edim” prinsipi ilə yanaşma doğru deyil: “Təhsil haqqını sonradan ödəyəcəyinə dair çox müraciət olur. Universitet rektorlarına edilən belə müraciətlər müsbət cavablandırılmalıdır. Təhsilalan onsuz da bu vəsaiti ödəyəcək. Bir də ki, insan götürdüyü fənnin pulunu verməlidir. Axı tələbə universitetə bir il əvvəldən niyə pul ödəməlidir? Bəlkə heç ilin sonunadək təhsil almayacaq, birinci semestrdən sonra çıxıb getmək istəyəcək. Belə faktlar da var. Birinci kursun ikinci semestrindən xaricə çıxıb gedən tələbə ödədiyi təhsil haqqının yarısının geri qaytarılmasını tələb edib. Tələb etməkdə də tamamilə haqlıdır. Çünki oxumadığı fənlərin pulunu ondan əvvəlcədən alıblar. Ümumiyyətlə, qeydiyyat hər semestrdə aparılmalıdır. Tələbə qeydiyyatdan keçərkən həmin semestrdə hansı və neçə fənni oxumaq istədiyini bildirməlidir. Biz bütün birinci kurslara 6 fənn təklif edirik. Ancaq onların hamısı 6 fənni oxumaya da bilər. Tutaq ki, 4 fənn götürüb ancaq onun pulunu ödəmək istəyini bildirər və bu istəyində tam haqlıdır”.

**Axı tələbə universitetə bir il əvvəldən niyə pul ödəməlidir? Bəlkə heç ilin sonunadək təhsil almayacaq, birinci semestrdən sonra çıxıb getmək istəyəcək. Belə faktlar da var. Birinci kursun ikinci semestrindən xaricə çıxıb gedən tələbə ödədiyi təhsil haqqının yarısının geri qaytarılmasını tələb edib. Tələb etməkdə də tamamilə haqlıdır.**

### Universitetlərdə qiymətlər

Dünyada bahalı universitetlər çoxdur. Məsələn, Harvard Universiteti. “Round University Ranking” Beynəlxalq reytinqinin (RUR-2018) 2018-ci il üzrə nəticələrinə əsasən, dünyanın birinci ən reytinqli bu universiteti dünyanın ən bahalı universitetlərindəndir. Azərbaycanda da bahalı universitetlər var. Amma bahalı ixtisaslar daha çoxdur. Üstəlik, qiymətlər heç də ali məktəbin dövlət, ya da özəl universitet olması ilə də əlaqəli deyil. Məsələn, ölkəmizdə ən nüfuzlu ixtisas - hüquq üzrə kadr hazırlığı Bakı Dövlət Universitetində 4300 manat, Naxçıvan Dövlət Universitetində 3000 manat, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 3500 manat, Milli Aviasiya Akademiyasında 2500 manatdır. Eyni ixtisaslar üzrə müxtəlif qiymətlər, demək olar ki, bütün universitetlərdə qarşımıza çıxır. Belə ki, tarixçi kimi Bakı Dövlət Universitetində yetişmək ildə 2800 manatdırsa, Gəncə Dövlət Universitetində 1900 manatdır. Bakı Dövlət Universitetində Azərbaycan dili və ədəbiyyatı müəllimliyi 2500 manatdırsa, Azərbaycan Dövlət Pedaqoji Universitetində bu ixtisas üzrə təhsil haqqı 1600 manatdır. Fərqli təhsil haqları regionşünaslıq ixtisasları üzrə kəskin nəzərə çarpır. Belə ki, Bakı Dövlət Universitetində 1900-2500 manat arasında dəyişən təhsil haqqı, Azərbaycan Dillər Universitetində 1000 manat, Bakı Slavyan Universitetində 1600 manat, Avrasiya Universitetində isə 1700 manatdır. Əgər Dövlət İdarəçilik Akademiyasında Menecment ixtisası üzrə təhsil haqqı 3000 manatdırsa, bu ixtisas Azərbaycan Texniki Universitetində 2000 manat, Gəncə Texnologiya Universitetində isə 1400 manatdır. Əgər Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Dünya iqtisadiyyatı ixtisasının təhsil haqqı 2300 manatdırsa, bu ixtisas Bakı Slavyan Universitetində 1900 manat, Xəzər Universitetində 4500 manatdır. Ölkəmizdə ixtisaslar üzrə ən yüksək təhsil haqqı Azərbaycan Turizm və Menecment Universitetində müşahidə olunur. Burda kadr hazırlığı aparılan bütün ixtisaslar üzrə formalaşmış təhsil haqları eyni ixtisaslar üzrə tədris aparılan bütün dövlət universitetlərindən yüksək hesab edilir.

### Onları kim, nəyə əsasən müəyyənləşdirir?

Kiçik sorğudan sonra öyrənirik ki, ali məktəblərdə təhsil haqqını dekanlıqlar müəyyənləşdirir. Azərbaycan Dillər Universitetinin prorektoru Əfqan Abdullayevin sözlərinə görə, hər ixtisas üzrə hazırlığın qiymətini həmin sahənin mütəxəssisləri müəyyənləşdirir. Onların qərarı universitetin Elmi Şurasında müzakirəyə çıxarılır. Elmi Şuranın verdiyi qərar Təhsil Nazirliyinə göndərilir. Təhsil Nazirliyi tərəfindən Nazirlər Kabinetinə və Dövlət İmtahan Mərkəzinə təqdim olunur: “İxtisasın dəyərinin müəyyən olunması həmin ixtisasların əmək bazarında lazımlılıq dərəcəsinə görə müəyyənləşir. Elə ixtisaslar var ki, onun qiyməti Azərbaycan Dillər Universitetində başqa ali təhsil müəssisələri ilə müqayisədə daha yüksəkdir. Tutaq ki, ingilis dili müəllimliyinə görə Azərbaycan Dillər Universitetində təhsil haqqı yüksəkdir. Çünki ADU ənənəvi olaraq ingilis dili müəllimi hazırlayan universitetdir. Ona görə də hesab edirik ki, bizim müəllimlərimiz bu sahə üzrə daha kamil mütəxəssislərdir. Proqramımız daha mükəmməldir. Xarici əlaqələrimiz başqa təhsil müəssisələrindən daha yaxşıdır. Bunları nəzərə alanda, bizim hazırladığımız kadrlar daha keyfiyyətli hesab oluna bilər”.

Ə.Abdullayevin fikrincə, universitetin özünün də cəmiyyətdə reytinqi qiymətlər müəyyənləşdirilərkən mühüm rol oynayır: “Reytinqə görə, ADU dil hazırlığı üzrə ölkədə aparıcı yerə sahibdir. Ancaq Regionşünaslıq kimi ixtisaslar da var ki, bizdə onun qiyməti 1000 manat dəyərində hesablanıb”.

Buna baxmayaraq, prorektor ADU-da ödənişli yerlərə görə təhsil haqqının o qədər də yüksək olmadığını iddia edir və bunu belə əsaslandırır: “Ümumiyyətlə, universitetimizdə ödənişli ixtisaslar üzrə qiymətlər 1000-2500 manat arasında dəyişir. Bilirsiniz ki, dövlət sifarişi əsasında olan yerlərin qiymətləri dövlət tərəfindən 1700-2300 AZN müəyyənləşdirilib. Həmin məbləğ eyni ixtisas üzrə ödənişli təhsil alan tələbənin təhsil haqqından cüzi aşağıdır”.

BDU-da da təhsil haqqı müəyyənləşdirilərkən tələb və təklif nəzərə alınır. Ancaq inflyasiya, Tarif Şurasının qərarları da qiymətlərdən yan keçmir. Beləliklə, 19 ildə bəzi ixtisaslarda az-az, bəzi ixtisaslarda hiss ediləcək qədər böyük qiymət artımı müşahidə olunub. Nəticədə BDU-da ən aşağı təhsil haqqı 1700 AZN fizika ixtisası üzrə, ən yüksək təhsil haqqı isə 3800-4000 civarında hüquqşünaslıq ixtisası üzrə müəyyən edilib. Rektorun maliyyə müşaviri, dosent Məzahir Sultanov “Azərbaycan müəllimi” qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə BDU-ya maliyyə müstəqilliyi verilməsindən sonra hər tələbəyə çəkilən xərc müəyyənləşdirilib: “Dövlət sifarişli yerlər üçün təhsil müəssisəsinin büdcəsinə hər tələbəyə görə ixtisasından asılı olaraq 1320-1620 AZN vəsait daxil olur. Ödənişli təhsil üçün 1700-2400 AZN civarında qiymətlər dəyişir. Yalnız hüquqşünaslıq ixtisası üzrə təhsil haqqı 3800-4000 AZN civarındadır”.

M.Sultanovun sözlərinə görə, hər tələbəyə çəkilən real xərc 3200-3500 manatdır: “Kimya fakültəsində təhsil alan bir tələbənin xərci 4000 manatdır. Amma biz bu qədər təhsil haqqı tələb etmirik. Bu mövqeyimizdə tələb və təklif də öz rolunu oynayır. Tutaq ki, hüquqşünaslıq ixtisası üzrə təhsil almaq istəyənlərin çoxluğunu, tələb və təklif arasında proporsiyanı, ixtisaslar üzrə qəbul balını nəzərə alırıq”.

M.Sultanov onu da deyib ki, hüquq fakültəsindən savayı, digər ixtisaslar üzrə hazırda qüvvədə olan qiymətlər artıq çoxdandır ki, dəyişmir.

Azərbaycan Texniki Universiteti həm təhsil verərək, həm də əldə etdiyi patent, yaxud da istehsalatla əməkdaşlıq əsasında maliyyə resursu yarada bilir. Təhsil müəssisəsi həmin vəsaitlə müəllimlərə, köməkçi işçilərə əməkhaqqı verir, eləcə də inzibati təsərrüfat xərclərini ödəyir. Ona görə də burada ödənişli təhsilin qiyməti dövlət sifarişli yerlərin qiymətindən kəskin fərqlənmir. Universitetin mətbuat xidmətinin rəhbəri Nicat Abdullayevin sözlərinə görə, təhsil haqları arasındakı fərqləri universitetlər yaradır: “Dövlət ali təhsil müəssisələrində dövlət sifarişli təhsilə görə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğ 1620 manatdır. Azərbaycan Texniki Universitetində ödənişli əsaslarla təhsil də təxminən bu qiymətədir. Ümumiyyətlə, ödənişli əsaslarla təhsilin qiyməti universitet özü müəyyən edir. Bu, dövlət sifarişli yerlər üçün müəyyən edilən rəqəmlə eyni olmaya bilər. Yəni az da ola bilər, çox da... Məsələn, bizim universitetdə əhalinin sosial-iqtisadi vəziyyəti nəzərə alındığı üçün ödənişli təhsilin qiyməti dövlətin müəyyən etdiyi rəqəmlə, demək olar ki, eynidir. Yeri gəlmişkən qeyd edim ki, ödənişlərdə çətinliyin yaranmaması üçün Azərbaycan Texniki Universitetində rektorun əmri ilə təhsil haqqının hissə-hissə, aylar üzrə ödənilməsinə icazə verilir. Hesab edirik ki, bütün bunlar gənclərin təhsilə cəlb olunması, tələbələrin tədrisdən uzaqlaşmaması üçün vacib addımdır”.

Ölkəmizin yeni olsa da, artıq ən bahalı universitetlərindən biri kimi tanınan Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) qiymətlər 2500-3000 manat arasında dəyişir. Universitetin tədris metodiki şöbəsinin müdiri Nərminə Abdullayevanın sözlərinə görə, təhsil müəssisəsində 10 ixtisas - Turizm və otelçilik, Menecment, Marketinq, Regionşünaslıq (regionlar üzrə), Nəqliyyat servisi (nəqliyyat növləri üzrə), Muzeyşünaslıq-Arxiv işi və diyarşünaslıq, Tərcümə (ingilis- Azərbaycan) (ingilis-rus), Sosial iş, Beynəlxalq münasibətlər, Qida mühəndisliyi, Maliyyə, Biznesin idarə edilməsi üzrə kadr hazırlığı həyata keçirilir. Bakalavr pilləsində 4 ixtisas üzrə 2500 manat, 4 ixtisas üzrə 3000 manat, 2 ixtisas üzrə 2800 manat təhsil haqqı tələb edilir. Magistratura pilləsi üzrə hazırlığın qiyməti ixtisasdan asılı olmayaraq, 2000 manatdır. Qiymətlərin yüksək olmasına baxmayaraq, son 2 ildə bütün ixtisaslar üzrə yerlər dolur. N.Abdullayeva bunu universitetdə son bir neçə ildə təhsilin keyfiyyətinin artması ilə izah edib: “Qiymətdən asılı olmayaraq, bütün ixtisaslar üzrə yerlərimiz dolur. Bu, təhsilin keyfiyyətinin yaxşılaşması ilə bağlıdır. Məzunlarımız universiteti bitirdikdən sonra yaxşı yerlərdə işləyirlər. Onlar da universiteti reklam edirlər. Məzunlarımızın hazırlıqlı olması, yaxşı yerlərdə iş tapması universitetin nüfuzuna müsbət təsir göstərir”.

Təhsil haqqının yüksək olmasına gəlincə, N.Abdullayevanın sözlərinə görə, hər tələbənin hazırlığı üçün tələb olunan vəsait hesablanır. Həmin məbləğə müəllimlərin əməkhaqqı, tədris olunan fənlər, hər fənnin hazırlığında istifadə olunan avadanlıq, laboratoriya və tətbiq edilən proqramların qiyməti daxildir: “Turizm və otelçilik ixtisası üzrə tələbələrə AMADEUS proqramı öyrədilir. Həmin proqram Nəqliyyat servisi ixtisası üzrə təhsil alan tələbələrə də keçilir. Bu və digər amillər təhsil haqqında öz əksini tapır”.

### Əlçatan təhsil hədəf, güzəştsiz ödəmə tələbdir, bəs, təhsil krediti çıxış yoludurmu?

Beləliklə, adı dünya universitetləri siyahısına yenicə düşən Azərbaycan ali təhsil müəssisələrində əhalinin imkanları ilə tərs mütənasib - yüksək dəyərləndirilən təhsil haqqı özlüyündə bir çox problemə yol açır. Məsələn, yüksək təhsil haqqı ixtisas seçiminə təsirsiz ötüşmür. Gənclərin qonşu ölkələrdə fəaliyyət göstərən daha ucuz ali məktəblərə üz tutmasına səbəb olur.

Çıxış yolunu təhsil kreditlərində görən ekspert Nadir İsrafilovun qənaəti belədir ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda tələbə kreditləri məsələsinə önəmli yer verilməsi problemin ciddiliyini bir daha qaçılmaz edir: “Düzdür, problemin həlli istiqamətində müəyyən addımlar atılıb. Ali təhsilə çıxış imkanlarının genişləndirilməsi, təhsil haqqını ödəməkdə çətinlik çəkən aztəminatlı ailələrdən olan tələbələrə uzunmüddətli güzəştli kreditlərin verilməsi məqsədilə 2016-cı ildə Təhsil Nazirliyinin təşəbbüsü ilə 10 dövlət ali təhsil müəssisəsi tərəfindən “Maarifçi” Tələbə Kredit Fondu təsis edilib və fəaliyyətə başlayıb. Lakin təəssüf ki, bu Fond o qədər də geniş dairəni əhatə etmir. Ən başlıcası isə kreditə daha çox ehtiyacı olan birinci kurs tələbələrinin bundan istifadə imkanı yoxdur. Halbuki onların buna daha çox ehtiyacı var. Çünki bütün ali təhsil müəssisələri tələbə adı qazananların birinci kursun təhsil haqqını birdəfəyə ödəməsi barədə şərt qoyub. Bu da o deməkdir ki, onlara ikiqat zərbə olur. Ali məktəblər təhsil haqqını ödəmədən onları birinci kursa qəbul etmir, kredit fondu ancaq ikinci kursda oxuyan və təhsildə yaxşı göstəriciləri olan aztəminatlı ailələrin uşaqlarına kredit verir”.

N.İsrafilovun fikrincə, tələbə krediti haqqında qanun layihəsini hazırlamaq artıq zərurətə çevrilib. Bu istiqamətdə işlərə başlanılıb. Milli Məclisin Elm və təhsil komitəsində “Tələbə kreditləri haqqında” qanun layihəsinin hazırlanacağı barədə açıqlama verilib. Komitə sədri bəyan edib ki, yaxın perspektivdə bu layihəni hazırlamağı düşünürlər. Artıq bununla bağlı dünya təcrübəsi öyrənilir”.

N.İsrafilovun fikrincə, Boloniya sisteminə qoşulan ölkələrin əksəriyyəti ali məktəb tələbələrinə çox geniş spektrdə tələbə kreditləri ayırırlar: “Kreditlər 3-4 faiz, ən yüksək halda isə 5-7 faizlə 15-20 illik müddətə verilir. Azərbaycanda ödənişli təhsil alan kifayət qədər tələbə var. Ayrı-ayrı ixtisas üzrə təhsil haqlarının təxminən, 1500-6500 arasında dəyişdiyini nəzərə alsaq, vəziyyətin nə qədər ciddi olduğu göz önünə gəlir. Beynəlxalq təhsil sisteminə inteqrasiyadan söhbət gedirsə, dünyada bu sahədə geniş təcrübə və müxtəlif mexanizmlər var. Tələbə götürdüyü kreditlə oxuduğu universitetdə təhsil haqqını ödəyir. Təhsili bitirib işlədikdən sonra həmin pulu qaytarır. Qaytarma şərti qarşılıqlı müqaviləyə əsasən, 5, 10, 15, hətta 20 ilə qədər müddətə əhatə etməklə, aşağı faizlərlə ola bilər. Azərbaycanda da belə bir qanunun qəbul edilməsi ona imkan yarada bilər ki, tələbələr heç olmasa, təhsil haqqı ilə bağlı sosial qayğılardan müəyyən qədər uzaqlaşsınlar. Təhsili bitirib işlədikcə isə borclarını qaytarmaq imkanı əldə edərlər. Buna görə də hesab etmək olar ki, tələbə krediti bazarının formalaşması mərhələsində dövlət himayəsi və dəstəyi mütləqdir”.

Rektor danışır

# "Biz daha yaxşı nəticə olsun deyə çalışırıq"

## *Fərəh Əliyeva:* "Ən dəqiq rəyi peşəkarlardan alıb işimizə davam edirik"

**Jalə MÜTƏLLİMOVA**

"Rektor danışır" layihəsinin qonağı Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin rektoru, sənətşünaslıq üzrə elmlər doktoru, Əməkdar incəsənət xadimi, professor Fərəh Əliyevadır.





*- Universitetiniz haqda mənfili-müsbətli çox söhbət var idi. Müsbətlərdən başlayaq. Gözəl təmir olunub binanız...*

- Mədəniyyət və İncəsənət Universiteti deyəndə mütləq hamı gözəl bir bina təsəvvür edir. Bizim təmirdən sonrakı ortamımız o təsəvvürə uyğundur artıq. Bir il müddətində bina əsaslı təmir olundu. İndi mədəniyyət və incəsənət sahəsi üçün kadr hazırlamağa tam infrastrukturumuz var. Auditoriyaları gəzib özünüz də görə bilərsiniz, standart auditoriyalar demək olar yığışdırılıb. Praktik, rahat sinif, auditoriya nədirsə, onu etmişik.

*- Yəni necə?*

- Kiçik səhnələrdən ibarət xeyli sayda sinif otağımız var. Tamaşa nümayiş etdirmək üçün iki böyük zalımız, kino pavilyonumuz, xüsusi məşq otaqlarımız var. Səhnə hərəkəti, səhnə danışığını öyrənmək üçün tələbələrimizə məhz bu praktik audioriyalar lazımdır. Universitetimiz çoxprofillidir. Beş fakültəmiz var. Demək olar ki, mədəniyyət və incəsənətin bütün sahələri üzrə mütəxəssis hazırlanır. Musiqi sənəti, rəssamlıq, teatr sənəti fakültəsi var. Aktyorlar, rejissorlar, teatrşünaslar məhz burda yetişir. Bir də kino və televiziya fakültəsi var. Burda isə kino, televiziya sənəti üzrə aktyorlar, rejissorlar, operatorlar, kinoşünaslar, ədəbi yaradıcılıq ixtisasları üzrə mütəxəssislər yetişir. Kulturologiya fakültəmizdə isə mədəniyyətin müxtəlif sahələrində - klub, mədəniyyət evi, mədəniyyət sarayları, muzey, konsert salonları, filarmoniya, kitabxana və teatr-kino müəssisələrinin rəhbərlərindən tutmuş mədəni-kütləvi tədbirlərin təşkilatçıları kimi vəzifələrdə çalışa biləcək yüksək ixtisaslı kadrlar hazırlanır. Yəni, işimiz də maraqlıdır, binamız da yeni və gözəldir. Bizə qalır yaxşı nəticə əldə eləmək.

*- Bunu necə, bacarmısınızmı? Bir qədər də dəqiqləşdirim sualı. Haqqında xeyli mənfi söhbət dolaşan bir universitetdə bu gün abhava necədir? Pedaqoji və tələbə heyətinin indiki səviyyəsi sizi qane edirmi?*

- Bəlkə belə də soruşmaq olardı, tələbələr və pedaqoji heyət məndən razıdırmı?

*- Onu soruşmaq xeyli zaman apara bilər, konkretləşdirmək olmaz. Heç səmimi cavab da verməzlər. Amma sizin deyəcəklərinizdə həm də onların sizə münasibəti görünəcək.*

- Əslində, vəziyyət belədir: rektor tələbə və müəllimdən asılıdır. Yəni, onların necə olması bizim haqqımızda fikir formalaşdırır.

*- Bəs onda rektorun üzərinə düşən vəzifə nədir? Bir də onlar, tələbələr və müəllimlər necədir?*

- Tələbə də, müəllim də hiss etməlidir ki, rektor onların yaxşı fəaliyyət göstərməsinə sözdə yox, əməldə çalışır. Mən belə olmaq üçün əlimdən gələni edirəm. İndi dəqiq bilmirəm, onlar bunu nə dərəcədə hiss edir. Amma düşünürəm ki, hiss etməmiş olmazlar. Əks halda onların özünün də yüksək əhvali-ruhiyyəsi və rahatlığı olmazdı. Universitetdə mənfi ortam varsa, bu, rektorun nüfuzuna zərbədir. Əgər müəllim işinə, dərsə enerji, həvəslə başlamırsa, tələbə auditoriyaya ürəklə girmirsə, bu, mütləq rektorun məsuliyyətinə bağlıdır. Düşünürəm ki, biz bu kimi məsələlərin xeyli hissəsini həll edə bilmişik. Müəllimlərimiz tələbələrə biliklərini ötürür, tələbələrimiz də buranı ikinci evləri kimi qəbul edir. Bəzən elə olur gündüz saat ondan, ya da doqquzdan bura gəlib, axşam saat on birə kimi işləyirlər. Yəqin çox pis vəziyyət olsaydı, gecə saatlarına qədər nə müəllim, nə də tələbə qalmaq istəyərdi.

*- Fərəh xanım, kənardan özünüzə, fəaliyyətinizə baxa, dəyər verə bilirsinizmi?*

- Heç vaxt özümdən razı olmamışam. Özümə kənardan baxanda ağlıma gələn ilk fikir bu olur. Həmişə düşünürəm ki, etdiyin bu işin daha yaxşısını görmək mümkündür. Növbəti hədəf məhz o daha yaxşı olur.

**Tələbə də, müəllim də hiss etməlidir ki, rektor onların yaxşı fəaliyyət göstərməsinə sözdə yox, əməldə çalışır. Mən belə olmaq üçün əlimdən gələni edirəm. İndi dəqiq bilmirəm, onlar bunu nə dərəcədə hiss edir. Amma düşünürəm ki, hiss etməmiş olmazlar. Əks halda onların özünün də yüksək əhvali-ruhiyyəsi və rahatlığı olmazdı.**

*- Özündən razı olmaq nədir sizə görə?*

- Qeyri-səmimilikdir bu. İnsan heç vaxt özündən razı qala bilməz. Daha artığı və daha yaxşısı mütləq var. Əsas olanı budur ki, insan vicdanı ilə üz-üzə duranda utanmasın.

*- Siz vicdanınızla üz-üzə duranda necəsiniz?*

- Ən təhlükəli üzləşmədir vicdanla üz-üzə qalmaq. Mən bu üzləşmədə çox rahatam. Heç kimi və heç nəyi yola verməyə çalışmamışam. Çalışdığım əlimdən gələni etmək olub, bunu da etmişəm. Amma bu nə qədər alınıb və ya ümumiyyətlə, alınıbmı, bunu qəti şəkildə deyə bilmərəm.

*- Bayaq qeyd etdiniz ki, tamaşa nümayişi üçün iki böyük zalınız var. İndiyə qədər hansı tamaşalar qoyulub tələbələriniz tərəfindən? Və universitet olaraq daha böyük səhnələrdə tələbələrinizin iştirakı ilə tamaşa nümayişini təşkil edə bilmisinizmi? Yəni bunu o mənada deyirəm ki, belə təşkilatçılıq həm də onların gələcəyini müəyyən edə bilər. Bir növ hansı keyfiyyətdə tələbə yetişdirildiyini geniş ictimaiyyət görər...*

- Bizdə tamaşa xatirinə tamaşa oynanılmır. Tələbələrimiz birinci kursdan başlayaraq tamaşalar hazırlayır. Bizim aktyor sənəti, səhnə mədəniyyəti kimi imtahanlarımız məhz səhnədə verilir. Bunun nəzəriyyəsi olmur. Belə imtahanlar həm də iştirak etmək, baxıb öyənmək istəyən hər kəs üçün açıq olur. Bəzən kənardan gəlib tamaşalara baxırlar. Elə bilirlər onları hansısa tamaşaya dəvət ediblər, əslində, doğrudur, onlar elə tamaşaya baxırlar. Ancaq bir məqam var, o rolu oynayanlar təkcə tamaşa təqdim etmir, həm də imtahan verir. Bunun özü çox maraqlı məqamdır. Yəni fərqli formada imtahandır. Başqa fakültə, kurslardan tələbələr, müəllimlər gəlir, baxıb qiymət verir, müzakirə aparırlar. Tələbələrimiz Axundovun, Şekspirin, Haqverdiyevin, Elçinin əsərlərini oynayır. Əslində, kənarda olanda adama elə gəlir ki, bu universitetdə hər şey çox sadədir. Belə deyil, buranın təlimi, tədrisi çox ağır prosesdir. Mən nazirlikdə işlədiyim müddətdə düzü, bu qədər çətin olduğunu düşünmürdüm. Bəzən belə də olur, o tamaşalara baxmağa gələn və ancaq nəzəriyyə öyrənən tələbələrimiz deyir ki, heyif deyil bizim fakültə. Kitabdan oxuyub, sonra gedib danışırıq, qiymətimizi alırıq, vəssalam. Bir saat yarım da imtahanmı olar?! Bir məsələ də var. Bizim sahədə hamı mütəxəssis yetişdirə bilmir. Amma bizə baxan hər kəs, heç mütəxəssis olmayan da "xoşum gəldi" və ya "bəyənmədim" səviyyəsində rəy bildirə bilir. Çünki bu onun haqqıdır. Amma yenə də ən dəqiq rəyi peşəkarlardan alıb işimizə davam edirik.

*- Bir az kapitalizmin məsuliyyəti deyirlər, bir az da insanların səbəb olduğunu söyləyirlər. Əslində, buna mədəniyyət və incəsənət sahəsində SOS siqnalı da demək olar. Tamaşalara o qədər də axın yoxdur, insanlar mədəniyyət və incəsənətdən uzaqlaşıb. Daha yüngül şoulara maraqlıdırlar. Bir də daha vacib bir məqam, istedadlı adamlar işsiz qalır. Ən yüksək səviyyədə olan ali məktəb bitirsələr belə, yerləşə bilmirlər. Eyni zamanda belə bir təəssürat da var ki, gedən sənət adamlarının yerinə yeniləri gəlmir, ya da gələnlər o nəhənglikdə yetişmir. Bu qədər qarışıq durumda işlərin içində olan biri kimi siz nə düşünürsünüz?*

- Mən bu məsələdə pessimist ola bilmirəm. Sizə bir sualım var. Siz mədəniyyəti və incəsənəti olmayan bir dövlət və ya millət, toplum görmüsünüzmü?

*- Təbii ki, xeyr...*

- Deməli, kimsədə pessimizm olmamalıdır. Mən prosesin içində olan adam kimi deyirəm. Zaman-zaman istedadlar da, sənət fədailəri, nəhəngləri də olub, olacaq. Bunsuz mümkün deyil. O fikirlə razıyam ki, mədəniyyət və incəsənət sahəsi biznes sahəsi ilə müqayisədə bizdə elə gəlirli sahə sayılmır. Amma yoxdur, bitir, tükənir kimi qorxulardan da söhbət gedə bilməz. Qəribə olanı budur ki, mədəniyyət və incəsənət sahəsini seçən adamların da böyük pul iddiası olmur. Onlar daha çox mənəviyyat adamlarıdır. Başqa xarakterdə, üslubda insanlardır. Məsələn, bir biznes adamını alqışlarla razı salmaq olmaz. Amma bir aktyor tamaşaçı alqışı qarşısında milyon kəs baş əyməyə hazırdır.

*- Yəni indiki iqtisadi münasibətlərin hələ gəlib tapmadığı adamlar varmı deyirsiniz?*

- Əminliklə deyirəm, var. Elə adamlar var ki, onları sosial quruluşlar qətiyyən maraqlandırmır, çünki onlar hamıya lazımdır. Məsələn, bütün quruluşlara mədəniyyət və incəsənət adamları mütləq lazımdır. İndi bizdə tələbələrin necə ürəklə, gecə yarısına qədər işlədiklərini görsəniz, bəlkə ondan sonra əmin ola bilərsiniz. Məhz həmin uşaqlar Azərbaycan mədəniyyəti və incəsənətinin yükünü çiyinlərinə götürəcəklər.

*- Beş il əvvəl və indi, haradan hara gəlmisiniz?*

- Əslində, haradan hara gəlməyimiz zəruri bir tarixi prosesdir. Bizim universitetin həmişə gözəl ənənələri olub. 95 yaşı var bu ail təhsil ocağının. Görün neçə ildir yoldadır. Hər halda bugünkü göstəricilərimiz daha ürəkaçandır deyə bilərik.

*- Bizim cəmiyyət olaraq da bir problemimiz var. Diplomum olsun! Haranı bitirir bitirsin, sənədi olsun ki, bu gənc diplomludur. Necədir belə yanaşmalara münasibətiniz?*

- Məncə, boş-bekar qalıb yayınmaqdan, cahil olmaqdansa, gəlib oxusunlar. Qoy elə diplomları olsun əllərində.

*- Bilirsinizmi niyə soruşuram? Son zamanlar iş tapa bilməyənlərin əksəriyyəti diplomlulardır. Əslində, bunu irad kimi tutmaq deyil məqsədim. Demək istəyirəm ki, belə hallarda insanlar ali təhsil müəssisələrini və dövləti günahlandırır. Amma qəbul etmək istəmirlər ki, diplom xatirinə oxuyublar, ali təhsil müəssisəsindən orta səviyyədən də aşağı mütəxəssis kimi çıxıblar. Burada ali təhsil müəssisələrinin günahı da az deyil.*

- Əvvəla oradan başlayaq ki, biz uzun illər, elə indinin özündə də daha çox ona tərəfdarıq ki, övladlarımız ali təhsil alsın. İndi kiminsə iddiaları olur, həm də karyera barədə düşünür, bu ayrı məsələdir. Amma elə adamlar da var ki, sadəcə diplomu olsun deyə oxuyur. İnanın, onların bayırda, auditoriyadan kənarda qalıb pis vərdişlərə yiyələnməyindənsə, elə ali məktəblərdə məşğul olması, heç olmasa orta səviyyəli bir vətəndaş olması daha faydalıdır. Bir məsələ də var. Oxuyan qızlar, hətta işləməsələr belə, gələcəkdə savadlı anadırlar. Savadlı ananın yetişdirdiyi övlad mütləq yaxşı yol seçər, düzgün istiqamətləndirilmiş olar. Yəni heç nə etməməkdənsə, diplom xatirinə olsa belə, qoyun oxusunlar.

Qaldı ali təsil müəssisələrində təhsilin səviyyəsi haqda təəssürata, onu deyim ki, bizim universitetin çox yaxşı pedaqoji heyəti var. Onlar bildiklərini dərinliklərinə qədər tələbələrə öyrətməyə çalışırlar. İndi hansı tələbə nə qədər qavrayır, bu artıq onun bacarığına qalır. Ancaq biz daha yaxşı nəticə olsun deyə çalışırıq. Belə nəicələr də təbii ki, var. Bir də ola bilər kimsə diplomludur, işləmir, amma yenə də hansısa sahə üzrə müəyyən qədər də olsa bilik əldə etmiş adamdır. Müəyyən dünyagörüşü formalaşıb. Bir də insanların təhsil almaq hüququ var. Onların bu hüquqları ilə bağlı biz qərar verə bilmərik. Qoy bizim gənclər hətta diplomlarını işlətməsələr də, ali təhsil müəssisələrində formalaşsınlar, küçədə yox.

**(ardı var)**

# AzMİU rektorunun yubileyi qeyd olunub

Aprelin 12-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Sərgi salonunda memarlıq fakültəsinin iki istedadlı tələbəsi İsmayıl Hacıyev və İsmayıl Əvəzovun "İsmayıl və İsmayıl" adlı fərdi yaradıcılıq sərgisi açılıb.



AzMİU-nun rektoru, Əməkdar memar, professor Gülçöhrə Məmmədovanın yubileyinə həsr olunmuş sərgini giriş sözü ilə memarlıq fakültəsinin dekanı Zahidə Məmmədova açıb, yubilyarı təbrik edib, ona cansağlığı, iş fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə, Bakı Dövlət Layihə İnstitutunun direktoru İlqar İsbatov, "Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutunun direktoru Telman Kərimli, inşaat fakültəsinin dekanı Hikmət Məmmədov da yubiley münasibəti ilə rektoru səmimi-qəlbdən təbrik edib, ona xoş arzularını çatdırıblar.

Səmimi sözlərə, təbriklərə görə bütün çıxış edənlərə, sərginin təşkilatçılarına minnətdarlığını bildirən G.Məmmədova sərgidə iştirak edən gənclərə tövsiyələrini verib, həyatda uğur qazanmağın sirlərini bölüşüb.

Rektorun çıxışından sonra sərginin rəmzi qırmızı lenti kəsilib, tədbir iştirakçıları gənc memarların əsərləri ilə yaxından tanış olublar. Sərgidə İ.Hacıyev və İ.Əvəzovun pastel, yağlı boya ilə çəkdikləri naturalizm, klassik realizm, abstrakt janrlarında müxtəlif mövzulu rəsmlər nümayiş olunub. Hər kəsin diqqətini cəlb edən rəsmlər barədə rektoru və qonaqları məlumatlandıran tələbələr rəsmlərin işlənmə texnikası və texnologiyası barədə onlara geniş informasiya veriblər. Sonda hər iki istedadlı memar G.Məmmədovaya rəsm əsəri hədiyyə edib.

Xatırladaq ki, sərgi aprelin 27-dək davam edəcək.

# BDU rektoru gənc alim və mütəxəssislərlə görüşüb

## Bu ali məktəbə fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə 200-ə yaxın doktorant qəbul olunub

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov 2017-ci il üçün təsdiq olunmuş qəbul planına uyğun olaraq fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya qəbul olunmuş 200-ə yaxın gənc alim və mütəxəssislə görüşüb. Universitetin dünyanın bir sıra qabaqcıl elm, təhsil müəssisələri ilə əməkdaşlıq etdiyini, hər il ümumi məbləği 5-7 milyon ABŞ dolları həcmində olan 80-dən çox yerli və beynəlxalq proqram, qrantlarda iştirak etdiyini deyən rektor, doktorantları bu layihələrə qatılmağa çağırıb. Rektor artıq iki ildir ki, Azərbaycan alimlərinə Tomson Reyter Agentliyinin elmi bazasından istifadə imkanlarının yaradıldığını deyərək doktorantlara bu bazadan istifadə etməyi məsləhət görüb. Dünya elminə inteqrasiya, innovativ istiqamətlərin inkişaf etdirilməsi və keyfiyyətin yüksəldilməsi üçün artıq bir neçə ildir ki, hər bir doktoranta biri xarici ölkədən olmaqla iki elmi rəhbərin və ya məsləhətçinin təyin olunması, doktorantların xarici ölkələrə ezam edilməsi, o cümlədən xarici ölkələrdən olan elmi rəhbərlərin ölkəmizə dəvəti, onların elmi müzakirələrdə və müdafiə proseslərində iştirakları barədə danışıb.

Tədbirdə daha sonra doktorantlara lazımi məsləhətlər verilib, onları maraqlandıran sualları cavablandırılıb.



# Layihə metodlu ekskursiyaların təşkili

## Bu metod şagirdlərdə intellektual bacarıqların formalaşdırılmasına imkan verir

**Elnur HACIYEV,**
*Göygöl şəhəri 1 nömrəli tam orta məktəbin tarix müəllimi*

Bu gün danılmaz faktdır ki, Azərbaycan Respublikasının orta ümumtəhsil məktəblərində şagirdlər bir çox mühüm bilik və bacarıqları oxuduqları məktəbdə dərs zamanı alır. Sinif otağında aldıqları bilik və bacarıqlar şagirdlər üçün bəzən cansıxıcı, bəzən anlaşılmaz, bəzən də maraqsız ola bilir.

Sinif otağında keçilən standart dərslər zamanı şagirdlərdə idrak fəallığına nail olmaq mümkündür. Qeyri-standart dərslərdə isə şagirdlər həm idraki fəaliyyətdə, həm müxtəlif insanlarla ünsiyyətdə olur, həm də motorik fəaliyyətdə olaraq bildiklərini bacarıq və vərdişlərə çevirmək imkanı əldə edir.

Hələ XX əsrin 70-ci illərində məktəblilərin tədris məşğələlərinə marağının azalması kimi qorxulu meyil yarananda müəllimlər şagirdlərin əqli əməkdən üz döndərməsinin qarşısını müxtəlif üsullarla almağa cəhd göstərirdilər. Kütləvi praktikada bu problemə diqqət yetirilərək qeyri-standart dərslər təşkil edilirdi. Məqsəd şagirdlərdə tədris əməyinə maraq oyatmaq və o marağı saxlamaq idi. Qeyri-standart dərslər standart strukturu olmayan dərslərdir ki, bu da, öz növbəsində, müəllimdən yüksək improvizə bacarığı tələb edir.

Bu gün qloballaşan dünyada elmi-texniki tərəqqinin inkişafı və innovativ yenilikləri şagirdlərə vaxtında və əyani çatdırmaq üçün sinifdənxaric və məktəbdənkənar tədbirlərin, xüsusən də qeyri-standart dərslərin təşkili zərurəti meydana çıxır.

Müasir təhsilin tərkibi dərsə olan bir sıra tələbləri dəyişdirir: Söhbət məşğələlərin rasional təşkil edilməsindən, əmək və istirahətin düzgün növbələşməsindən və dərsdə müxtəlif pedaqoji metodların tətbiqindən gedir.

Müasir dərs ənənəvidən məqsədləri, məzmunu, təşkilati-metodiki tərəfi, şagirdlərin fəallıq səviyyəsi, strukturu və tempi ilə fərqlənir. Belə məsələlərin reallaşdırılması üçün müasir müəllim praktikaya qeyri-ənənəvi dərs növlərini daxil etməlidir. Bunlar: *dərs-layihə, tədqiqat tipli dərs, dərs-ekskursiya, dərs-seminar, biliklərin təkmilləşdirilməsi dərsi, birləşdirilmiş və binar dərslər, dərs-oyun, dərs-səyahət, nitq inkişaf dərsi* və s. ola bilər.

Qeyri-standart dərslər öz məqsədinə, təşkilinə, keçirilmə metodikasına görə qeyri-adi dərslərdir, onlar ciddi strukturu, müəyyən iş rejimi olan gündəlik tədris məşğələlərinə nisbətən şagirdlərin daha çox xoşuna gəlir. Məhz buna görə müəllimlər belə qeyri-standart dərslərdən də istifadə etməlidirlər.

Bununla bərabər xüsusi vurğulamaq istərdik ki, qeyri-standart dərsləri başlıca iş formasına çevirmək də olmaz. Dərslər-işgüzar oyunlar, dərslər-mətbuat konfransı, yarış dərsləri, məsləhət dərsləri, kompüter dərsləri, qarşılıqlı təlim dərsləri, yaradıcılıq dərsləri, dərslər-oyunlar, fantaziya dərsləri, dərslər-konsertlər, məqbul dərsləri, dialoq dərslər, dərslər-rollu oyunlar, dərs-seminarlar, inteqral dərslər, “məhkəmə” dərsləri və s. kimi qeyri-standart formalara aludəçilik etmək olmaz. Çox vaxt apardığına, ciddi əqli əmək sərf edilmədiyinə və yüksək nəticə qazanılmadığına görə onları sistem halında tətbiq etmək məqsədəuyğun hesab edilmir.

Təlim prosesinin təşkilinin köməkçi forması olaraq ekskursiya-dərslərin dərs ili ərzində 1 və ya 2 dəfə keçirilməsi şagirdlərdə tədris əməyinə marağı artırar. Ümumilikdə isə şagirdlərin mənafeyinə, maraq və tələbatlarının ödənilməsinə, istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafı istiqamətində effektiv təsir gücünə malikdir.

Bu baxımdan şagirdlərin bilik və bacarıqlarını təkmilləşdirmək və məlumatlılıq səviyyəsini artırmaq, əşya və hadisələri onlara əyani surətdə öyrətmək məqsədilə ekskursiyaların təşkili vacibdir.

Bir çox valideynlər ya maddi çətinliklər, ya vaxt çatışmazlığı, ya da məhdud dünyagörüşünə sahib olması və ya hər hansı bir digər səbəbdən övladlarını muzeyə, kinoya, teatra, idman yarışlarına, tarixi məkanlara apara bilmir. Məktəblərimizdə də bu cür imkanlar məhduddur.

Bəs necə etmək olar ki, şagirdlər üçün ekskursiyalar təşkil olunsun? Daha maraqlı, daha cəlbedici, daha səmərəli, daha yaddaqalan ola biləcək qeyri-standart dərslər keçirilsin?

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının 5.1.2. bəndinə əsasən dövlət təhsil müəssisələri üçün nəticəyönlü büdcə planlaşdırılması, büdcədənkənar mənbələrdən vəsaitlərin cəlbi və onlardan istifadə mexanizmlərinin yaradılmasını əsas tutaraq təhsil menecerləri, məktəb direktorları, o cümlədən pedaqoji işçilər müasir dövrün tələbi olan ekskursiyaların təşkili və qeyri-standart dərslərin keçirilməsi üçün müxtəlif şirkətlərlə əməkdaşlıq edərək, bu işi təşkil edə bilər. Xeyriyyəçiliklə məşğul olan şirkətlərlə tərəfdaşlıq edərək məktəblər ekskursiyaların təşkili və qeyri - standart dərslərin keçirilməsi üçün vacib olan maliyyə resursunu əldə edə bilər.

Şagirdlərə sinifdən və məktəbdən kənarda ekskursiyaların təşkili yolu ilə elmi araşdırmalar üzrə ilkin vərdişlər, öyrəndikləri məlumatları layihə formasında hazırlama bacarıqları istiqamətində tədbirlər təşkil etmək mümkündür. Qeyd edim ki, sinifdən və məktəbdən kənarda öyrənmə probleminin həlli yolunda işlərin görülməsi artıq təhsildə dövrün və zamanın vacib bir tələbinə çevrilmişdir.

Ekskursiya-dərslərin keçirilməsi ilə şagirdlərdə hansı bilik və bacarıqlar formalaşdırmaq mümkündür?

Şagirdlər bu işin təşkilindən araşdırma aparacaqları mövzular üzrə daha dərin biliklər əldə edə bilər. Həmçinin layihə planının tərtibi, mövzuya inteqrativ (multidissiplinar) yanaşma, səmərəli məlumat toplama, layihə tərtibetmə, təqdimat hazırlama, layihəni peşəkar təqdimetmə, ünsiyyət qurma, komandada işləmə, müstəqil qərarvermə kimi mühüm bacarıqlar əldə etmək imkanına sahib ola bilərlər. Şagirdlərdə ekskursiyalar zamanı müvafiq mövzular istiqamətində elmi araşdırmalar üzrə ilkin vərdişlər formalaşdırmaq mümkündür. Ən vacib məsələlərdən biri də həmin ekskursiyalar zamanı şagirdlərin hazırladığı layihələrdir ki, bu layihələr onların yaradıcı təfəkkürünün inkişafına böyük təkan verə bilər.

Layihələr metodu elə bir texnologiyadır ki, burada şagird sərbəst olaraq yeni ideyanı fikirləşir, işləyib hazırlayır, redaktə edir, tətbiqetmə ilə bağlı işləri həyata keçirir.

Layihələr metodu yaradıcı, aktiv fəaliyyət göstərən şəxsiyyətin inkişafına kömək etməklə şagirdlərdə intellektual bacarıqların formalaşmasına imkan verir. Bu metod müəyyən nəticələrə əsaslanan layihənin təqdim olunması və müdafiəsi yolu ilə şagirdlərin yaradıcı, məntiqi təfəkkürünün inkişafına, müstəqil düşüncə, təhliletmə və əqli nəticə çıxarma qabiliyyətlərinin təşəkkülünə zəmin yaradır.

Layihəli tədris fəaliyyəti şagirdlərin yaradıcılıq fəallığının inkişafı üçün daha böyük imkanlar açır. Şagirdlərin layihəli fəaliyyəti tədris prosesinin ən əhəmiyyətli tərkib hissələrindən biri olmaqla məsələnin strukturu haqqında bilik və bacarıqlar formalaşdırır. Layihəli fəaliyyət metodu müasir tədris prosesinin elementi kimi çox səmərəlidir. Belə ki, müxtəlif məsələlərin reallaşdırılmasında şagirdlərə maksimum azadlıq verir, bu da onlarda şəxsiyyətin yaradıcı inkişafını təmin edir.

Müasir pedaqoji praktikada daha geniş tətbiq olunan şəxsiyyətyönümlü-inkişafetdirici pedaqoji texnologiyalar aşağıdakılardır:

1) Əməkdaşlıqla təlim texnologiyası;

2) Layihələr metodu ilə təlim texnologiyası;

3) Modulla təlim texnologiyası.

Layihələr metodu pedaqogikada əslində yeni metod deyil. Lakin bu metoddan sürətlə dəyişən tələb və ehtiyaclara uyğunlaşmağa kömək edən vasitə kimi istifadə etmək olar. Məhz bu uyğunlaşma layihələr metodunu XXI əsrin pedaqoji texnologiyalarına aid edilməsinə ciddi əsas verir.

Qeyd etdiyimiz fikirlər sadəcə fərziyyə, ehtimal deyil. Bu fikirləri imkan düşdükcə gənc müəllim olaraq reallıqda tətbiq etməyə çalışıram.

Pedaqoji işçilərin yeni və kreativ ideyalarının dəstəklənməsi istiqamətində həyata keçirilən Təhsildə inkişaf və innovasiyalar üzrə I qrant müsabiqə fikrimdə canlandırdığım ideyanı real olaraq həyata keçirməyimə imkan verdi.

I qrant müsabiqə çərçivəsində Göygöl rayonunun 7 məktəbinin şagirdlərinin, həmçinin pedaqoji fəaliyyətimi davam etdirdiyim Göygöl şəhəri 1 nömrəli tam orta məktəbin şagirdlərinin də qoşulduğu “Gəzək, görək, öyrənək” adlı layihəni icra etdik. Layihə çərçivəsində şagirdlərə araşdırma, məlumat toplama, təqdimat hazırlama və təqdimetmə barədə qısamüddətli təlimlər keçirilmişdir. Həmçinin şagirdlərə səfər olunacaq məkanların araşdırılması barədə tapşırıq verilmiş və onların təqdimatları toplanmışdır. Səfər ediləcək məkanlar haqqında məlumat guşəsi və məlumat kitabçası hazırlanmışdır.

Təqdirəlayiq haldır ki, layihəyə məktəb icması, xüsusən valideynlər çox böyük maraq göstərirdilər. Onlar layihə çərçivəsində işimizi daim izləyir, kömək və dəstəyə hazır olduqlarını bildirirdilər. Biz də öz növbəmizdə layihə barədə ictimaiyyəti daim məlumatlandırır, o cümlədən layihə barədə press relizləri, video və fotoşəkilləri Göygöl Rayon Təhsil Şöbəsinin rəsmi internet saytında və digər saytlarda, youtube kanalında və bu iş üçün yaradılmış “Gəzək, görək, öyrənək” adlı facebook səhifəsində mütəmadi olaraq yerləşdirirdik.

Sinifdənxaric və məktəbdənkənar tədbirlər istiqamətində layihə metodlu ekskursiyaların təşkili ümumi təhsildə keyfiyyətin yaxşılaşdırılması üçün mühüm vasitədir.

# İngilis dilində felin zaman formalarının tədrisində zaman xətlərinin rolu

**Rahib SƏDULLAYEV,**
*ADPU-nun “Ədəbiyyat və dillər” kafedrasının ingilis dili müəllimi, qabaqcıl təhsil işçisi*

Hər dilin özünəməxsus leksik, qramatik, fonetik xüsusiyyətləri olduğu kimi, eyni bir dilin də xüsusi dildaxili problemləri mövcuddur. Həmin problemlər nəinki bu dili öyrənənlər, onun əsl sahibləri üçün (native speakers) də çətinlik yarada bilir. İngilis dilində belə məsələlər kifayət qədərdir. Onlardan biri də şagird və müəllimlərin ingilis dili zamanlarını öyrəndikləri və tədris etdikləri zaman qarşılaşdıqları çətinlikdir.

İngilis dili zamanlarından dördü “indiki (present)” adı altında - Present Simple, Present Continuous, Present Perfect, Present Perfect Continuous - qruplaşır. Bu zamanların hər biri öz adında “indiki (present)” sözünü daşısalar da, onların özünəməxsus məna və işlənmə xüsusiyyətləri vardır. Onu da qeyd etmək lazımdır ki, bu zamanların hərəsi bir neçə işlənmə xüsusiyyətinə malikdir.

Məsələn, Present Simple aşağıdakı hallarda işlənə bilir:

a) təkrarlanan, adətə çevrilmiş hərəkətləri (I usually go to bed at 11pm.)

b) dünyəvi həqiqətlər və faktları (The Sun rises in the East. We live in Azerbaijan.)

c) gələcəyə aid hərəkətləri (We shall go for a walk if the weather is fine.)

d) hal-hazırda, danışıq zamanı baş verib davam edən hərəkətləri (I understand you well.)

Məsələnin digər çətin bir tərəfi də bu zaman formalarından bəzilərinin ortaq məna daşımalarıdır.

Məsələn, Present Simple ilə Present Continuous hər ikisi “danışıq zamanı baş verib davam edən hərəkətləri” ifadə edir. Birincisi həmin mənanı “davamedici” zamanda işlənə bilməyən fellərlə (non-continuous verbs), ikincisi isə “davamedici” zamanda işlənə bilən fellərlə (normal verbs) ifadə edir:

We see two men in the garden. ⟶ Present Simple

We are sitting in the garden. ⟶ Present Continuous

Adında “continuous / progressive (davamedici)” sözü olan Present Continuous və Present Perfect Continuous zamanları da davamedici hərəkətləri fərqli şəkildə ifdadə edir. Present Continuous sadəcə mübtədanın hal-hazırda hansı bir işi gördüyünü, hansı bir işin içərisində olduğunu, Present Perfect Continuous isə hərəkətin keçmişdə başlanıb indiki zamana qədər davam edib, bundan sonra da davam edəcəyini bildirir. Bu zaman formasının əsas funksiyası icra olunan hərəkətə sərf edilən zamanın müddətini ifadə etməkdir. Müqayisə edək:

We are at the English lesson. The teacher is explaining us a new rule. ⟶ Present Continuous

Our teacher is very experienced. He has been teaching English since 1978. He has been teaching for forty year. ⟶ Present Perfect Continuous

Doğrudur, hər zaman formasının özünəməxsus strukturu vardır, lakin dillərarası fərqlər ingilis dilində felin zaman formalarının başa düşülməsi və onların öyrənənlər tərəfindən dil sahibləri kimi rahat və sərbəst işlədilə bilmələri üçün zaman xətləri xüsusi əhəmiyyəti daşıyır.

Təcrübə göstərir ki, zaman xətləri zamanların mükəmməl tədrisi üçün əyanilik və müqayisə etmək imkanı yaradır. Təlimdə müqayisənin rolu danılmazdır. “Əvvəla, müqayisə bütün təfəkkür proseslərinin canını təşkil edir və obyektiv olaraq, sezilmədən digər psixoloji proseslərin mahiyyətinə hopur. İkincisi, müqayisə düzgün mühakimə yürütməyin, ağlın məşəli hesab edilir. (N.Kazımov, Ali məktəb pedaqogikası, səh. 221, Bakı, 2006).

Nümunə üçün Present Simple və Present Continuous zaman formalarının ilkin işlənmə xüsusiyyətlərini zaman xətti olmadan, sadəcə sözlə ifadə edək:

Present Simple - zaman forması təkrarlanan, adətə çevrilmiş hərəkətləri ifadə edir.

They work in their garden. - Onlar bağda işləyirlər. (Present Simple)

They are working the garden. - Onlar bağda işləyirlər. (Present Continuous)

Siqnal söz (zərflik) və ya situasiyadan istifadə müəyyən mənada kömək etsə də, öyrənci ilk növbədə ana dilində düşündüyü üçün tərcümə dolaşıqlıq yarada bilir.

They usually work in their garden. ⟶ Siqnal söz (Present Simple)

It is a fine day. They are working the garden. ⟶ Situasiya (Present Continuous)

İndi həmin cümlələri zaman xətləri *(Zaman xətti qrafikləri www.englishpage.com saytından götürülüb)* vasitəsi ilə təqdim edək:

They work in their garden.




Zaman xəttinə əsaslanaraq yuxarıda verilmiş cümlədəki hərəkətin (work) ümumiyyətlə, müntəzəm olaraq baş verdiyini, bu işin təkrarlanan bir adət, vərdiş olduğunu daha yaxşı başa düşmək olur.

They are working the garden.




İkinci qrafik də öyrənənlərə “are working” xəbərində ifadə olunan hərəkətin hal-hazırda, danışıq zamanı icra olunduğunu rahatca izah edir.

Zamanların seçilib işlənməsində ən çox çətinlik yaradanlar Present Continuous, Present Perfect Continuous və Past Continuous, Past Perfect Continuous zaman formalarıdır. Zaman xətlərinin köməyi ilə bu zamanların işlənmə xüsusiyyətlərindəki fərqlərə nəzər salaq:

**Present Perfect Continuous - İndiki zamanın davam edib bitmiş forması**

Keçmişdə müəyyən bir vaxtdan başlayıb indiki zamana qədər və bundan sonra da davam edəcək hərəkətləri ifadə edir, adətən cümlədə for, since, recently, lately zərfləri olur:

It is 11 o’clock. I am tired. I have been reading since 9 o’clock. I have been reading for two hours.




Qrafikə əsasən saat 9-dan başlanmış oxumaq hərəkətinin davametmə müddətinin iki saat olduğu açıq-aydın görünür və asanca başa düşülür.

**Present Continuous - İndiki davamedici zaman forması**

It is 11 o’clock. I am reading now.




Bu qrafik mübtədanın hal-hazırda nə işlə məşğul olduğunu və hələ də həmin işin davam etdiyini əyani şəkildə nümayiş etdirir.

**Past Perfect Continuous - Keçmiş zamanın davam edib bitmiş forması**

Keçmişdə müəyyən bir vaxtdan başlayıb keçmiş müəyyən zamana qədər davam edib bitmiş hərəkətləri ifadə edir. Cümlələr adətən keçmiş zamanla əlaqədar olur:

It was 11 o’clock when Fred phoned. I was tired. I had been reading since 9 o’clock. I had been reading for two hours.




Qrafikdə mübtədanın keçmişdə, saat 9-dan başlanmış oxumaq hərəkətinin Fredin zəng etdiyi vaxta qədər (X), iki saat davam etdiyi görünür.

**Past Continuous - Keçmiş davamedici zaman forması**

Keçmişdə müəyyən vaxtda davam etmiş hərəkətləri ifadə edir. Keçmiş müəyyən vaxt ya keçmiş zaman zərfliyi, ya da digər keçmiş zamanlı cümlə ilə bildirilir:

I was reading at 9’olock yesterday / when you phoned me.




Bu qrafik də mübtədanın keçmişdə hansı bir işlə məşğul olduğunu göstərir.

Qrafiklərdən göründüyü kimi, Present Continuous - İndiki davamedici və Past Continuous - Keçmiş davamedici zaman formaları hərəkətin başlanğıc nöqtəsi və ona sərf olunan müddəti vurğulamır. Bu incə məqamları qrafiklər vasitəsu ilə daha rahat öyrənib yadda saxlamaq mümkündür.

İngilis dilində felin zaman formalarının tədrisində zaman xətlərindən istifadə etmək çox faydalıdır. Zaman xətləri əyanilik və müqayisə etmək imkanları yaratdığı üçün oxşar adlar daşıyan zaman formalarının fərqləri və işlənmə xüsusiyyətlərini öyrətməyi və öyrənməyi asanlaşdırır. Zaman xətlərini nəinki ağıllı lövhələr, hətta adi lövhədə də çəkib nümayiş etdirmək mümkündür.

## "Mənim məktəbim"

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Azərbaycan müəllimi" qəzetinin birgə təqdim etdiyi "Mənim məktəbim" layihəsinin məqsədi məktəb direktorlarının rəhbərlik etdikləri təhsil müəssisələri haqqında qələmə aldığı uğur hekayəsini, tədrisin və idarəçiliyin təşkilində həm pedaqoq, həm də rəhbər kimi müvafiq düşüncələrini geniş ictimaiyyətə çatdırmaqdan ibarətdir.

Layihədə idarəedənin pedaqoji və ictimai-fəlsəfi baxımdan məktəbin əsas hədəflərinə və özünəməxsusluğuna dair yanaşmasına da xüsusi yer verilir. Layihə çərçivəsində mövcud reallığı əks etdirən, təhsil müəssisələrinin qarşısında duran məsələlərin həlli yollarını göstərən, məktəb idarəetməsinə və uğurlu məktəb modelinə dair orijinal şəxsi fikirlərin və dünya təcrübəsinə əsaslanan faktların yer aldığı məqalələr təqdim olunur.

# Hədəfimiz ən müasir və uğurlu məktəb modelini yaratmaqdır



**Esmira AĞAYEVA,**
*214 nömrəli tam orta məktəbin direktoru*

## Hər kəs qaydalara eyni dərəcədə əməl etməlidir

Məktəbdə idarəetmənin düzgün təşkili, qayda və qərarlara tam şəkildə riayət olunması, müəllim nüfuzunun qorunub saxlanılması kimi məsələlər şagirdlərin bilik və bacarıqlarının daha da artmasına birbaşa təsir göstərir. Ona görə də hər bir ümumi təhsil müəssisəsində məktəblilərin nailiyyətlərinin yüksək olması üçün tədrislə yanaşı, bu məsələlərə də ciddi diqqət yetirilməlidir.

Təcrübə göstərir ki, inkişafa xidmət edən işlərin kompleks şəkildə həyata keçirildiyi məktəblərdə daha çox uğur qazanılır. Bunu məktəbimizin timsalında da görmək olar.

### Tələbkarlığın müsbət nəticələri

Təcrübəyə əsasən deyə bilərəm ki, məktəbdə işin düzgün qurulması prosesi ilk növbədə rəhbər şəxslərdən başlayır. Məktəb rəhbərliyi bütün qayda və qərarlara ciddi şəkildə riayət etməlidir ki, bu, digərlərinə də nümunə olsun. Bundan başqa, məktəb rəhbəri hər bir müəllimlə həmkar münasibəti saxlamalı, pedaqoji kollektivə tövsiyə və tapşırıqlar verməmişdən əvvəl müəyyən təhlillər aparmalı, yekun nəticəni təxmini müəyyənləşdirdikdən sonra addım atmalıdır. Həmçinin, bütün qərarlar qəbul olunmamışdan əvvəl pedaqoji heyətlə müzakirə edilməli, ümumi fikir əldə olunmalıdır. Çünki məktəb mühitində atılan səhv addım son nəticədə şagirdlərin yüksək bilik və bacarıqlar əldə etməsinə, nailiyyətlər qazanmasına mane ola bilər.

Məktəb rəhbəri həm də daim üzərində çalışmalı, mütaliə etməli, təhsil sahəsində baş verən yenilikləri izləməli, təlim və seminarlara qatılmalıdır. Bu, məktəb rəhbərinə idarəetmə işində çox kömək edə bilər.

Bununla yanaşı, məktəb rəhbəri müəllim həmkarlarından qayda və qərarlara riayət olunmasını tələb etməlidir. Eyni zamanda, müəllimlərin bu tələbləri şagirdlərin qarşısında qoymasını istəməlidir. Çünki işin bu şəkildə qurulması müəllimlərin işə, məktəblilərin dərsə daha məsuliyyətlə yanaşmasına səbəb olur və nəticədə nailiyyətlər artır.

### Müəllim nüfuzunun təsiri

Məktəbimizdə müəllim nüfuzunun qorunub saxlanılması, bu peşənin yüksək qiymətləndirilməsi əsas məsələlərdəndir. Bu iş ilk növbədə məktəblinin müəllimə hörmət və sevgi ilə yanaşmasından başlayır. Əlbəttə ki, şagirdi buna məcbur etmək olmaz. Amma məktəbimizdə elə mühit formalaşıb ki, hər kəs müəllim adına hörmət və sevgi ilə yanaşır. Çünki burada şagird müəllimi qayğıkeş, onun gələcəyini düşünərək bu istiqamətdə çalışan, ona elm öyrədən bir qüvvə kimi qəbul edir. Məktəbli ona dərs deyən şəxsə sanki valideyni kimi baxır. Müəllim də öz növbəsində şagirdə övladı kimi yanaşır, onun bütün çətinlikləri ilə maraqlanır. Müəllim məktəblilərin bilik və bacarıqlar qazanmasına kömək edir, onlara həyatda layiqli yer tutmaq üçün düzgün istiqamət verir. Bu hal müəllimlə şagird arasında qarşılıqlı inam yaradır, şərəfli peşə sahibinin nüfuzunu artırır.

Bir daha öz nümunəmdən çıxış edərək deyim ki, məktəbimizdə müəllimlərin bilik və bacarıqlarını nümayiş etdirməsi üçün də hər cür şərait yaradılıb. Burada hər bir müəllim şagirdlərin dərsi daha yaxşı qavraması üçün müxtəlif səmərəli üsul və metodlardan istifadə edir. Bununla yanaşı, müəllimlərin bilik, bacarıq və təcrübələrini artırması üçün də hər cür şərait var. Bu məqsədlə onların müxtəlif təlim, seminar və digər tədbirlərdə iştirakı təmin olunur.

Məktəbimizdə əməkdaşlıq müstəvisi ilə yanaşı, müəllimlər arasında sağlam rəqabət mühiti də yaradılıb ki, bu da inkişafa səbəb olur. Belə ki, nümunəvi, daha peşəkar müəllimlərin işi təbliğ edilir, gənc pedaqoqların təcrübəli həmkarlarından öyrənməsi təmin olunur. Bunun üçün mütəmadi şəkildə dərs dinləmələri təşkil edilir. Nəticədə gənc müəllimlər həm təcrübələrini artırır, həm də dərslərini daha yaxşı təşkil etməyə həvəslənirlər.

**Məktəbimizin pedaqoji kollektivinin qarşısında duran əsas vəzifə şagirdlərin müasir dövrün tələblərinə uyğun şəkildə təhsil almasını, onların cəmiyyət üçün faydalı olması-nı, həm də vətənpərvər ruhda böyüməsini təmin etməkdən ibarətdir. Bu məqsədlə məktəbdə yüksək təhsil verilməsi təmin edilməklə yanaşı, məktəblilərin bacarıq və dünyagörüşünün artırılması üçün müxtəlif tədbirlər həyata keçirilir.**

### Əlverişli mühit uğurları artırır

Məktəbimizin pedaqoji kollektivinin qarşısında duran əsas vəzifə şagirdlərin müasir dövrün tələblərinə uyğun şəkildə təhsil almasını, onların cəmiyyət üçün faydalı olmasını, həm də vətənpərvər ruhda böyüməsini təmin etməkdən ibarətdir. Bu məqsədlə məktəbdə yüksək təhsil verilməsi təmin edilməklə yanaşı, məktəblilərin bacarıq və dünyagörüşünün artırılması üçün müxtəlif tədbirlər həyata keçirilir.

Ümumilikdə, təhsil mühiti həyatın özünə xidmət etməli, məktəblilərə bu gün və gələcəkdə lazım olan bilik və bacarıqların aşılanması qayəsi ilə formalaşmalıdır. Məktəbimizin pedaqoji heyəti tam gücü ilə çalışır ki, hər bir şagird müstəqil şəkildə düşünsün, fikirlərini sərbəst ifadə etsin. Təhsil mühiti öyrənməni azad şəkildə inkişaf etməyə, yaradıcı bir fərd olmağa həvəsləndirməlidir. Bu mühitdə şagirdlər gələcəyə hazırlanmalı, baş verən hadisələrin içində öyrənməlidirlər. Məktəbdə təhsil üçün elə mühit formalaşdırılmalıdır ki, təlim real həyatda mövcud olanlara, eləcə də ictimai münasibətlərə əsaslansın.

Bu baxımdan məktəbimizdə hər bir məktəbliyə fərdi yanaşma var. Məsələn, bəzən hansısa şagird çətinliklə üzləşir. Bu zaman həmin məktəbli dinlənilir, üzləşdiyi problemi həll etmək üçün ona hər cür yardım edilir, çıxış yolu göstərilir. Eynilə də, məktəblilərə gələcək peşə seçimində istiqamət verilir, kömək göstərilir. Hər bir şagirdə bilik və bacarığına uyğun şəkildə peşə seçməsi üçün müvafiq istiqamət verilir.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, məktəbimizin tədris nailiyyətləri yüksək səviyyədədir. Şagirdlər müsabiqə, olimpiada və yarışlarda birincilər sırasında yer tutur. Hər il məzunlar yüksək balla ali məktəblərə daxil olur. Dünyanın nüfuzlu universitetlərində təhsil alan məzunlar da var. Bütün bu uğurlar məktəbin fəaliyyətinin real göstəricisi hesab edilə bilər.

Məktəbdə şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına da ciddi diqqət yetirilir. Şəhid Vüqar Sadıqovun adını daşıyan məktəbdə şagirdlərə Vətənə, torpağa, xalqa məhəbbət hissləri aşılanır, onlara Azərbaycan xalqının qəhrəmanlıq tarixi haqqında geniş məlumat verilir.

### Gələcək üçün planlar

Yeri gəlmişkən, məktəbimizdə 1800-dən artıq şagirdin təlim-tərbiyəsi ilə 152 müəllim məşğul olur. Burada müəllimlər hər bir məktəblinin gələcəkdə seçəcəyi peşəsindən asılı olmayaraq, bilikli, bacarıqlı, ölkəmizə fayda verə biləcək hərtərəfli şəxsiyyət kimi yetişməsi üçün çalışır.

Məktəbdə həyata keçirilən tədbirlər və əldə edilən nəticələr onu deməyə əsas verir ki, pedaqoji kollektivin bu işlərin öhdəsindən layiqincə gəlməyə təcrübəsi də var, əzmi də. Əldə olunmuş uğurları qarşıdakı illərdə daha da artırmaq üçün konkret planlar üzərində iş aparılır. Ən müasir və uğurlu məktəb modeli yaratmağı isə hədəf seçmişik.



# Müəllimlər üçün növbəti diaqnostik qiymətləndirmə keçiriləcək

Tədris ilinin sonunda dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin diaqnostik qiymətləndirməsinin keçirilməsi nəzərdə tutulub.

Əvvəlki illərdə müxtəlif səbəblərdən qiymətləndirmədə iştirak edə bilməyən müəllimlərlə yanaşı, nəticələrini yüksəltmək niyyətində olan müəllimlər də diaqnostik qiymətləndirmədə iştirak edə biləcəklər.

Qeyd edək ki, 2014-cü ildən etibarən ölkə üzrə ümumilikdə 140000-dək müəllim diaqnostik qiymətləndirmədən keçib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, diaqnostik qiymətləndirmədən keçən bütün müəllimlərin əməkhaqları artırılıb.

# VI Könüllülük Proqramına start verilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən həyata keçirilən VI Könüllülük Proqramı çərçivəsində 25 nəfər könüllü fəaliyyətə başlayıb.

Qeyd edək ki, VI Könüllülük Proqramında iştirak etmək üçün 100-ə yaxın könüllü elektron *(konullu@baku.edu.gov.az)* qaydada sənəd verib. Onlardan müvafiq meyarlar əsasında 54 nəfər müsahibəyə çağırılıb və 25 nəfər müsahibədən müsbət nəticə əldə edib. Seçimlərin nəticələrinə uyğun olaraq, 25 nəfər BŞTİ—nin müvafiq struktur bölmələrində fəaliyyətə başlayıb.

Müsahibədən uğurla keçən şəxslər BŞTİ-də 3 ay təcrübə keçəcəklər. Könüllü kimi fəaliyyətə başlayan gənclərə proqramın sonunda BŞTİ tərəfindən müvafiq arayış veriləcək.

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi artıq 5 ildir ki, könüllü əsaslarla çalışmaq arzusunda olan gənclərlə əməkdaşlıq edir. İndiyədək BŞTİ tərəfindən həyata keçirilmiş ilk Könüllülük Proqramında 15, II Könüllülük Proqramında 26, III Könüllülük Proqramında 35, IV Könüllülük Proqramında 42, V Könüllülük Proqramında isə 29 nəfər müxtəlif sektorlarda, xidmət bölmələrində və Təlimə Dəstək Mərkəzində fəaliyyət göstəriblər. Onlardan 19 nəfəri hazırda BŞTİ-nin əməkdaşıdır.

# Respublika fənn olimpiadalarının yarımfinal turu keçirilib



Aprelin 7 və 8-də Respublika fənn olimpiadalarının yarımfinal turu keçirilib.

Olimpiada Bakı şəhərində 4, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan, Lənkəran, Şəki şəhərləri, İsmayıllı, Şəmkir, Ağdaş və Quba rayonlarının hər biri üzrə 1 mərkəzdə keçirilib.

Olimpiadaların Respublika mərhələsinin aprelin 7-də keçirilən yarımfinal turunda IX, X və XI sinif şagirdləri Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə biliklərini sınayıblar. Bundan əlavə, bilik yarışında xüsusi istedadı və yüksək hazırlığı ilə seçilən VII, VIII sinif şagirdləri də IX siniflərlə bərabər öz bilik və bacarığını nümayiş etdirib.

İnformatika fənni üzrə olimpiada isə aprelin 8-də Bakı Mühəndislik Universitetində təşkil olunub. Olimpiadada Bakı, Gəncə, Sumqayıt, Şirvan, Qusar, Mingəçevir, Lənkəran, Kürdəmir, İsmayıllı ümumtəhsil məktəblərindən 107 şagird iştirak edib. İnformatika fənn olimpiadası 3 qrup (5-8, 9, 10-11-ci siniflər) üzrə keçirilib. Bu müsabiqədə ilk dəfə olaraq PC^2 Proqramlaşdırma Müsabiqəsi Nəzarət Sistemindən istifadə edilib və yeni qayda tətbiq olunub. Yarımfinal turundan əvvəl sistemlə tanışlıq məqsədilə sınaq turu keçirilib. Sonra şagirdlərə yarımfinal turunun məsələləri təqdim edilib və 4 saat ərzində 5 alqoritmik məsələnin proqramlarını tərtib etmək və PC^2 sistemində sınaqdan keçirmək tapşırığı verilib.

Fənn olimpiadalarının yarımfinal turunda yuxarı nəticə göstərən şagirdlər final mərhələsində iştirak etmək hüququ əldə edəcəklər.

Fevralın 4-də ölkənin bütün şəhər və rayonlarında keçirilən Respublika fənn olimpiadalarının birinci-rayon (şəhər) mərhələsinin nəticələrinə əsasən, Azərbaycan dili və ədəbiyyat fənni üzrə 1419, coğrafiya fənni üzrə 1458, riyaziyyat fənni üzrə 1067, tarix fənni üzrə 617, fizika fənni üzrə 405, kimya fənni üzrə 377, biologiya fənni üzrə 430, informatika fənni üzrə isə 121 şagird növbəti mərhələdə iştirak etmək hüququ qazanıb.

Olimpiadaların təşkil edilməsində məqsəd istedadlı uşaqların aşkar edilməsi, şagirdlərdə fənlərə olan marağın artırılması, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələrinə imkan yaradılmasından ibarətdir.

Qeyd edək ki, Respublika fənn olimpiadaları Kapital Bankın baş sponsorluğu ilə keçirilir.

# İntellektual yarışmanın növbəti qalibi

Məktəblilərdən ibarət komandalar arasında növbəti intellektual teleoyunun nəticələri bəlli olub.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki 117, 207, 211 nömrəli tam orta məktəblərin və Bakı Türk Liseyinin (Türkiyə Dəyanət Vəqfi) şagirdlərindən ibarət komandalar "Hazırcavablar" intellektual teleoyununda iştirak edib. Məktəblilər "Dil və ədəbiyyat", "Tarix", "Coğrafiya", "Məntiq" və digər bölmələr üzrə sualları cavablandırıblar.

İntellektual teleoyunun nəticələrinə əsasən, 117 nömrəli tam orta məktəbin komandası qalib gəlib.

Qeyd edək ki, "Hazırcavablar" intellektual oyunu BŞTİ və AzTV-nin birgə layihəsidir. İntellektual oyun həftədə bir dəfə AzTV-də yayımlanır.

Layihənin əsas məqsədi məktəblilərin intellektual səviyyəsini, ayrı-ayrı fənlərə olan marağını və dünyagörüşünü artırmaq, onları ictimaiyyətə tanıtmaq, həmçinin, şagirdlərin asudə vaxtını səmərəli təşkil etməkdən ibarətdir. Şagirdlərə özünüifadə vərdişləri aşılamaq, onları yeni məlumatlar toplamaq üçün axtarışlara sövq etmək, məktəblilərin yaradıcı inkişafına təkan vermək və intellektual fəaliyyətə daha geniş miqyasda cəlb olunmasını təmin etmək də layihənin əsas hədəflərindəndir.

# “Ən böyük hədəfim yüksək bacarığa malik cərrah olmaqdır”

Qloballaşan dünyamızda təhsilin ölkənin inkişafındakı mühüm rolu danılmaz faktdır. Ölkəmizdə cəmiyyət həyatının bütün sahələrinin hərtərəfli inkişafını təmin edən peşəkar, yüksək rəqabətqabiliyyətli, hazırlıqlı mütəxəssislərin hazırlanmasına ciddi diqqət ayrılmaqdadır.

Son illər Təhsil Nazirliyinin xüsusi istedadı ilə seçilən şagirdlərin, gənclərin üzə çıxarılması, onların istedad və qabiliyyətlərinin, tədqiqatçılıq səriştələrinin inkişafına yönəlik məqsədyönlü tədbirləri nəticəsində məktəblilərimizin beynəlxalq bilik yarışlarında yüksək fəallıq göstərməsinin şahidi oluruq. Olimpiada hərəkatı artıq ölkəmizdə ciddi elmi marafona çevrilib. Nəticələr isə göz qabağındadır. Mötəbər beynəlxalq olimpiadaların qalibləri olan şagirdlərimizin sorağı artıq bir neçə illərdir ki, yaxın-uzaq ölkələrdən - ABŞ, Avropa və Asiyanın nüfuzlu universitetlərindən gəlir. Budəfəki yazımız da son illər beynəlxalq olimpiadalarda ölkəmizi dəfələrlə uğurla təmsil etmiş, əldə etdiyi uğurlar sayəsində hazırda Çexiyanın Çarlz Universitetində tibb təhsili alan Emin Qayıbova həsr olunub.



## *Emin Qayıbov:* “Əldə etdiyim uğurlarıma görə müəllimlərimə borcluyam”

### Tanıtım

Emin Elman oğlu Qayıbov 2000-ci il fevral ayının 23-də Bakı şəhərində anadan olub. 2017-ci ildə akademik Zərifə Əliyeva adına liseyin eksperimental pilot siniflərində orta təhsilini müvəffəqiyyətlə başa vurub. Hazırda Çexiyanın Hradec Kralove şəhərində yerləşən Çarlz Universitetinin tibb (General Medicine) fakültəsində 1-ci kursda təhsil alır. Aşağı siniflərdən öz fitri istedadı ilə müəllimlərinin diqqətini cəlb edən Eminlə söhbətə onun olimpiada uğurlarından başladıq.

### “Birincilərin birincisi”

VII sinifdə məktəbin keçirdiyi fənn olimpiadaları silsilə seçim turlarında qalib gələrək biologiya fənni üzrə Olimpiada hazırlıq dərslərinə qatılmaq şansı əldə etdim. Hələ olimpiadalara başlamazdan öncə hədəfim tibb ixtisası üzrə cərrah mütəxəssis olmaq idi. Ona görə də fənn olimpiadaları arasında mənim maraq dairəmdə olan və mənə ən uyğun fənn biologiya idi. Elə buna görə də biologiya olimpiadalarına qatıldım. Biologiya fənni digər elm sahələrindən bir çox məqamda fərqlənir. Bunlardan ən əsası isə biologiya fənninin geniş ədəbiyyata malik olması və hər gün bu sahədə yeni kəşflərin baş verməsidir. Ona görə də biologiya fənni əslində hər gün yenilənir, bir çox köhnə nəzəriyyə yeniləri ilə əvəz olunur. Bu fənni mənimsəmək istəyən hər bir şəxs yeni kəşfləri və nəzəriyyələri təqib etməlidir.

2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin keçirdiyi Respublika fənn olimpiadalarında biologiya fənni üzrə qızıl, 2016-cı ildə qızıl və 2017-ci ildə gümüş medallara layiq görülmüşəm. 2016-cı ildə Respublika fənn olimpiadasında isə həmçinin “Birincilərin birincisi” titulunu qazandım. Beynəlxalq arenada aşağı siniflərdə kompüter layihə olimpiadalarında da iştirak etmişəm. 2012-ci ildə Türkmənistanın Aşqabad şəhərində keçirilən Beynəlxalq Kompüter Layihə Olimpiadasında (ICPO-2012), 2013-cü ildə Rumıniyanın Buxarest şəhərində keçirilən Beynəlxalq Kompüter Layihə Olimpiadasında (İnfomatrix-2013) gümüş medallar qazandım.

Fənn olimpiadalarına hazırlıq siniflərinə seçildikdən sonra isə vətənimi biologiya fənni üzrə təmsil etməyə başladım. 2014-cü ildə Argentinanın Mendoza şəhərində keçirilən Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadasına (IJSO-2014), 2015-ci ildə isə Cənubi Koreyanın Daegu şəhərində keçirilən Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadasına (IJSO-2015) qatıldım və bürünc medala layiq görüldüm. Bundan əlavə, 2016-cı ildə Hanoy (Vyetnam) və 2017-ci ildə Varvik (Böyük Britaniya) beynəlxalq biologiya olimpiadalarında ölkəmizi təmsil etdim. Əldə etdiyim nəticələr öncə orta təhsilimi qızıl medalla bitirməyimə səbəb oldu. Həmçinin bu nailiyyətlər universitetlərə müraciət etdiyim zaman CV-də (Curriculum Vitae) qeyd olunub, mənim bacarıqlarımı göstərirdi.

### Eynşteynin çalışdığı universitetin tələbəsi

*Emini uğura aparan yolda, əlbəttə ki, onun beynəlxalq və respublika fənn olimpiadalarında qazandığı nailiyyətlərin xüsusi rolu vardır. Bu uğurlar Emini Avropanın nüfuzlu ali tibb təhsili verən universitetlərindən birinə gətirib.*

- Hazırda təhsil aldığım Çarlz Universiteti Mərkəzi Avropanın ilk tibb universiteti olaraq 1348-ci il aprelin 7-dən fəaliyyətə başlayıb. Çarlz Universiteti mənim də təhsil aldığım tibb ixtisası üzrə Avropada ilk 5 universitetdən biridir. Ali məktəb həm praktiki, həm də nəzəri olaraq qitənin digər universitetlərilə müqayisədə bir çox üstünlüklərə malikdir. Hər il tibb sahəsində əldə olunan yeni kəşflər də Çarlz Universitetinin tibb fakültəsinin payına düşür. Dahi fizik Albert Eynşteynin də uzun illər bu universitetdə professor olaraq çalışdığını və elə Mərkəzi Avropada ilk ürək transplantasiyasının universitetin xəstəxanasında həyata keçirildiyini nəzərə alsaq, Çarlz Universitetinin dünyanın görkəmli universitetlərindən biri olduğuna şübhə etmərik. Universitetin tibb fakültəsi yerli tələbələr üçün çex, xarici tələbələr üçün isə ingilis dilində təhsil verir.

Universitetdə xarici tələbələr üçün hər cür şərait yüksək səviyyədədir, belə ki, tibb fakültəsini bitirmiş əcnəbi vətəndaşlar tibb təhsilinin növbəti pilləsi olan ixtisaslaşmanı Almaniya, Böyük Britaniya, ABŞ və Kanadanın yüksək reytinqli universitetlərində asanlıqla əldə edirlər. Tibb fakültəsi proqramı 6 il ərzində həyata keçirilir. Bunun ilk 3 ili daha çox nəzəri, növbəti 3 ili isə daha çox praktiki təhsili əhatə edir. Təhsil ilinin sonunda əldə edilən diplom dünyanın hər bir tibb ocağında tanınır, bu isə o deməkdir ki, ali məktəbin məzunları üçün geniş iş imkanları mövcuddur.

### Tələbələr üçün geniş təqaüd imkanları və maaş da mövcuddur

Çarlz Universitetində təhsil alan tələbələr ali məktəbin təqdim etdiyi bir sıra üstünlüklərdən yararlana bilərlər. Məzunlarımızın çoxu son kursda ABŞ və Kanadanın keçirdiyi USMLE (Üç mərhələli Tibdə Lisenziya imtahanı (USMLE) - xaricdə alınan tibb təhsilin Amerikada qəbul edilməsi tələb olunur) imtahanında iştirak edir. Bu imtahanda yüksək nəticə əldə etmiş tələbələr həmin ölkələrin bir çox nüfuzlu tibb universitetlərində təhsillərini davam etdirmək hüququ əldə edirlər. Həmçinin geniş təqaüd imkanları və maaş da mövcud olur. Mən də bütün məzunlarımız kimi bu imtahana qatılıb yüksək bal toplayaraq tibb təhsilimi rezidentura üzrə ABŞ-ın Texas ştatında yerləşən Texas Cancer Center-də davam etdirmək istəyirəm.

### Uğur ilk növbədə şagirdin özündən asılıdır

Məlumdur ki, olimpiadalar hər bir iştirakçıdan yüksək əzmkarlıq, hazırlıq, tədqiqatçılıq tələb edir. Əlbəttə ki, hər bir şagirdin uğurlarında müəllim əməyi əvəzsizdir. Əldə etdiyim uğurlarıma görə, əlbəttə ki, hər bir şagird kimi mən də müəllimlərimin hər birinə borcluyam, xüsusən də biologiya olimpiadası heyəti üzvlərinə, Elməddin Mehrəliyev, Anar Məcidov, Elxan Tahirov və Rəşad Səlimova təşəkkürlərimi bildirirəm. Olimpiadada uğur qazanmaq, ilk növbədə, şagirdin özündən asılıdır. Əgər şagirdin iradə və əzmi varsa, şübhəsiz ki, çalışdıqdan sonra nailiyyət əldə edəcəkdir. Olimpiada geniş bir ailədir ki, bu ailənin hər bir üzvü çalışqan və zəhmətkeş, bir-birlərinə daim dəstək olur. Onlar yalnız dərs çalışmağı və öyrənməyi mənimsəmirlər, yardımsevərlik, qayğıkeşlik duyğuları kimi yüksək insani keyfiyyətləri də birgə əldə edirlər.

Mənim gələcək həyatımda ən böyük hədəfim yüksək bacarığa və biliyə malik bir mütəxəssis cərrah olduqdan sonra Azərbaycana qayıdaraq ölkəmin tibb sahəsi üzrə bir çox problemlərini həll edəcək, hər bir Azərbaycan vətəndaşı kimi ölkəm üçün çalışmaqdır.

**Olimpiadada uğur qazanmaq, ilk növbədə şagirdin özündən asılıdır. Əgər şagirdin iradə və əzmi varsa, şübhəsiz ki, çalışdıqdan sonra nailiyyət əldə edəcəkdir. Olimpiada geniş bir ailədir ki, bu ailənin hər bir üzvü çalışqan və zəhmətkeş, bir-birilərinə daim dəstək olur. Onlar yalnız dərs çalışmağı və öyrənməyi mənimsəmirlər, yardımsevərlik, qayğıkeşlik duyğuları kimi yüksək insani keyfiyyətləri də birgə əldə edirlər.**

### “Emin təkcə bilik və çalışqanlıq keyfiyyətləri ilə seçilmirdi”

*Elxan Tahirov, “İstək” liseyinin müəllimi:* İlk dəfə Emin Qayıbovla 2014- cü ildə Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadasına (İJSO 2014) hazırlıq zamanı tanış olduq. Emin çox ciddi və məsuliyyətli bir şagird təsəvvürü yaradırdı. 9-cu sinif şagirdi olmasına baxmayaraq bir şəxsiyyətlə ünsiyyətdə olduğumu hiss edirdim. Nə istədiyini bilən, hədəfləri olan və bu hədəflərə doğru əzmlə addımlayan bir şagirdə dərs dediyimi başa düşmüşdüm. Komanda olaraq yaxşı hazırlaşsaq da, o olimpiadadan bir medalla qayıtdıq. Emin həmin il yaxşı bal toplamasına baxmayaraq, medal almamışdı. Amma medal almamağı onu sındırmamışdı. Əksinə, daha da əzmlə çalışmağa başlamışdı. Biz onunla birlikdə Beynəlxalq Biologiya Olimpiadasına hazırlıq dərslərində də məşğul olurduq. Artıq 10-cu sinif idi, biliklərini artırmışdı. Bəzi məqamlarda qarşısındakı müəllimdən çox bilsə də, heç vaxt bunu büruzə vermirdi, bu da onun təvazökarlığından irəli gəlirdi. Bu cür məqsədyönlü və əzmkar çalışma öz nəticəsini bir il sonra, Cənubi Koreyada keçirilən Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadasında (İJSO 2015) verdi. Emin bu olimpiadada bürünc medal qazandı. Emin təkcə bilik və çalışqanlıq keyfiyyətləri ilə seçilmirdi. 2016-cı ilin iyulunda biz Eminin də tərkibində olduğu komanda ilə Vyetnamda keçiriləcək Beynəlxalq Biologiya Olimpiadasına gedərkən İstanbul üzərindən getməli olduq. Bizim təyyarəmiz Türkiyəyə enəndə Türkiyədə hərbi çevrilişə cəhd olmuşdu. Hələ 15-16 yaşında olan bu yeniyetmələrin bu cür hadisə qarşısında soyuqqanlılıqlarını qorumaları, 2 gün gecikməyimizə, hava limanında qalmağımıza baxmayaraq, yenə də olimpiadada iştirak etmək istədiklərini bildirdikdə, mən başa düşdüm ki, bu şagirdlər nəinki elmi, həm də yüksək şəxsi keyfiyyətlərə malik yeniyetmələrdir. Emin çoxsaylı müsbət keyfiyyətlərə malik bir şagird idi, amma onun nizam-intizamı ən yadda qalan keyfiyyətlərindən biridir.

*Sonda biz də Eminə təhsil həyatında və elmi fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayır və ümid edirik ki, o, tibb sahəsinin görkəmli mütəxəssisi kimi yetişərək öz uğurları ilə ölkəmizi dünya elm səhnəsində bundan sonra da layiqincə təmsil edəcək.*

## Süni intellekt sahəsində müəllim hazırlığı

Çində 500 universitet müəllimi və 5 min tələbəyə hökumət proqramı əsasında süni intellektin tədrisi və yaradılması üzrə təlim keçiləcək. Çin Xalq Respublikasının Təhsil Nazirliyi, Pekin Universiteti və “Innovation Works” şəhər inkubatoru tərəfindən hazırlanmış proqram 5 il müddətinə hesablanıb.

Ötən il hökumət süni intellektin inkişaf planını elan edib. Bu planda xüsusi diqqət süni intellekt sahəsində istedadların hazırlanmasına və dünyanın bu sahədə aparıcı mütəxəssislərinin Çinə cəlb edilməsinə yönəldilib. Yeni proqram həm müəllimlər, həm də tələbələri əhatə edir. Onlar təlimlərdə iştirak edəcək və düşərgələrdə süni intellektin əsaslarını öyrənəcəklər. Bildirilir ki, müəllimlərin tərkibinə informatika sahəsində nüfuzlu Amerika alimi, Tyurinq mükafatı laureatı Con Xopkroft və “Innovation Works”in tədqiqat bölməsinin başçısı, investor Li Kayfu daxildir. Bu il yeni proqram üzrə 100 müəllim və 300 tələbə təlim keçəcək.

Pekin Universiteti rektorunun müavini Tyan Qanın sözlərinə görə, universitet ümid edir ki, bu proqram nümunəvi olacaq və nəticə etibarı ilə Çinin digər ali məktəblərinin tədris planlarında tətbiq ediləcək.

## ABŞ-da məktəblilər üçün xüsusi platforma hazırlanıb

ABŞ məktəblərində bullinq halları (aqressiv təqib, təzyiq və təhdid) ilə rastlaşmış uşaqları, valideynləri və müəllimləri dəstəkləmək üçün xüsusi “StopBullying.gov” dövlət platforması istifadəyə verilib.

Saytda təqiblərə məruz qalan və ya belə hallarla rastlaşan uşaqlara özlərini necə aparmalı olduqları barədə təlimatlar verilir. Saytda ayrıca bir bölmə kiberbullinq məsələsinə həsr edilib. Bölmədə internetdə təqiblərin qarşısının necə alınması, uşaqların və yeniyetmələrin istifadə etdikləri sosial şəbəkələrin siyahısı haqda informasiyalar, eləcə də valideynlər və müəllimlər üçün məsləhətlər toplanıb.

StopBullying.gov-da həmçinin dini və irqi əlamət üzrə təqib olunma, məhdud qabiliyyətli və ya fiziki qüsurlu uşaqların üzləşdikləri bullinq halları araşdırılır. Saytın “İndi kömək al” bolməsindəki xüsusi səhifədə uşaqların üzləşə biləcəkləri müxtəlif vəziyyətlər və onların həlli yolları təklif edilir. Əgər cinayət baş veribsə, saytın müəllifləri polisə zəng vurmağı məsləhət görürlər. İntihara meyilli olan yeniyetməyə kömək etmək üçün Böhran Mərkəzinin “Qaynar xətt”inə müraciət etmək tövsiyə olunur.

## Rusiyada özəl universitetlərin sayı azalıb

Rusiyada qeyri-dövlət universitetlərinin sayı 2 dəfə azalıb. Bu barədə Rusiya Federasiyası Təhsilə Nəzarət Dövlət Agentliyinin rəhbəri Sergey Kravtsov bildirib. Ali məktəblərdə yoxlamaların nəticələri barədə məlumat verən agentliyin rəhbəri qeyd edib ki, “hazırda 178 özəl ali məktəb qalıb. 2014-cü ildə onların sayı 371 idi”. Onun sözlərinə görə, ali məktəblərin kütləvi monitorinqinin pik dövrü arxada qalıb. “Prinsip etibarilə, biz vəziyyəti sabitləşdirdik. Bizdə artıq Təhsil və Elm Nazirliyinin monitorinqi əsasında plandankənar yoxlama yoxdur”. 2014-cü ildən Agentlik demək olar ki, ali məktəblərin və onların filiallarının 2400 yoxlamasını keçirib. Bu vaxt ərzində 534 ali məktəbdə və onların filiallarında tələbə qəbulu qadağan edilib, ali məktəblərə verilmiş 106 lisenziya qüvvədən düşüb, 61 ali məktəbin lisenziyaları ləğv olunub. Bundan başqa, son iki il ərzində Agentlik 510 təşkilatın dövlət akkreditasiyası haqqında şəhadətnaməsinin təsirini dayandırıb, 265 ali məktəb və filialın dövlət akkreditasiyasını tam və ya qismən ləğv edib.

**Səhifəni hazırladı:** *Oruc MUSTAFAYEV*

# Birlikdə təhsil almaq əlçatandır

## İnklüziv təhsil uşaqların cəmiyyətə daha uğurla inteqrasiyasına gətirib çıxaracaq

⇦ Əvvəli səh.1

Samirə KƏRİMOVA

İnkişaf proqramı çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihənin icrasına başlanılıb. Layihələrin icrası gedişində 15 ümumi təhsil, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunub.

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsillə bağlı görülən işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edilib. Nəticə etibarilə əlilliyi olan şəxslərin təhsilinin təşkili yeni mərhələyə keçib.

2016-cı ildə xüsusi təhsil sistemində interaktiv proseslər həyata keçirilib və xüsusi qayğıya ehtiyacı olan uşaqların yaradıcılıq potensialının inkişafı sahəsində inklüziv təlimin keyfiyyətinin yüksəldilməsi istiqamətində səmərəli işlər görülüb. 2015-2016-cı tədris ilindən əlilliyi olan uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında “İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi” layihəsinin icrasına başlanılıb. Bu məqsədlə müəyyənləşdirilən pilot inklüziv məktəblərin (Bakıdakı 138, 220, 202 və 252 nömrəli məktəblər) hər birində iki sinif olmaqla, sağlamlıq imkanları məhdud olan 4 uşaq birinci sinfə qəbul edilib. Hazırda 40 uşaq (I, II, III siniflər üzrə) inklüziv siniflərdə təhsil alır.

Ölkə başçısı İlham Əliyevin 14 dekabr 2017-ci il tarixli sərəncamı ilə təsdiq olunan “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” da məhz sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməsində və onların təhsili üçün maneəsiz mühit yaradılmasında geniş imkanlar yaradır.

Bəs, görəsən, inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi ilə bağlı pilot olaraq müəyyənləşdirilən məktəblərdə bu iş necə təşkil olunub? Hansı tədbirlər həyata keçirilir, layihəyə cəlb olunan uşaqlarla iş necə aparılır? Bununla bağlı müəssisə rəhbərləri, müəllim və valideynlər nə düşünürlər?

### Cəmiyyətə daha tez adaptasiya üçün

138 nömrəli tam orta məktəbin direktoru Mirfaiq Mirheydərli rəhbərlik etdiyi təhsil müəssisəsində 12 şagirdin inklüziv təhsilə cəlb olunduğunu bildirdi. Onlardan 4-ü I, 4-ü II, digər 4-ü isə III sinif şagirdidir. Bunlar yüngül kəmağıllılıq, nitq pozuntusu ilə daun, yüngül koqnitiv pozuntu, autizm və s. xəstəlikləri olan uşaqlardır. Həmin uşaqlar sağlam uşaqlarla birlikdə eyni sinifdə təhsil alırlar.

Direktor bu uşaqların tipik şagirdlərlə birlikdə təhsil almaları üçün məktəbdə hər cür şəraitin yaradıldığını deyir. Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, məktəbdə fəaliyyət göstərən loqopedik otaq isə həmin şagirdlərlə korreksion-pedaqoqun (loqoped-defektoloq) rahat məşğul olması üçün ən zəruri avadanlıqlarla təchiz olunub.

İnklüziv təhsilin əsas prinsipinin təkcə uşaqların sosiallaşması deyil, eyni zamanda, inkişaf səviyyəsinə uyğun keyfiyyətli təhsil almaq olduğunu diqqətə çatdıran direktor xüsusilə ibtidai sinif müəllimlərinin və korreksion-pedaqoqun bu məsələyə daha həssaslıqla və diqqətlə yanaşmasının vacibliyini qeyd edir: “Siniflərdə belə uşaqlarla fərdi tədris proqramına əsasən işlər qurulur. Uşaqlar müəyyən vaxtı sinif otaqlarında digər şagirdlərlə dərs keçir, sonra loqopedik otaqda fərdi dərslərə, məşğələlərə cəlb olunurlar. Onların da iştirakı ilə müxtəlif tədbirlər həyata keçirilir. Məsələn, TOPs proqramı çərçivəsində fiziki tərbiyə fənnindən respublika əhəmiyyətli “açıq dərs”i göstərmək olar” .

İnklüziv təhsillə bağlı beynəlxalq təcrübənin öyrənilməsinin zəruriliyini də vurğulayan Mirfaiq müəllim özünün və məktəbin bir neçə müəlliminin alman mütəxəssislərinin əvvəlcə Bakıda, sonra isə Almaniyanın Düsseldorf şəhərində Beynəlxalq Menecment və Texnologiyalar Akademiyasının təşkil etdiyi treninqlərdə iştirak etdiklərini, həmçinin oradakı inklüziv məktəblərdə təcrübə keçdiklərini bildirdi. Bu səfər onların öyrənmələri və təcrübələrinin artırılmasında, eləcə də Təhsil Nazirliyinin mütəxəssisləri tərəfindən təlimlərin keçirilməsi pilot məktəblərin pedaqoji heyətinin xüsusi təhsil sahəsində bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayır. Təlim müddətində, həmçinin, UNİSEF-in nümayəndələri dəfələrlə məktəbə səfər edib, burada inklüziv təhsillə bağlı aparılan işlərlə tanış olub və razı qaldıqlarını bildiriblər.

Bu sahədə artıq məktəb özü də müəyyən təcrübəyə malikdir. Belə ki, təhsil müəssisəsində qonaq olan danimarkalı təhsil mütəxəssisləri inklüziv təhsillə bağlı yaradılan şəraitlə tanışlıqdan sonra Kopenhagen Universitet Kollecinin sosial elmlər fakültəsinin tələbələrinin burada təcrübə keçməsini arzulayıblar.

2521 şagirdin təhsil aldığı Tahir Haciyev adına 252 nömrəli məktəb-liseydə də inklüziv təhsilə cəlb olunan 8 uşağın rahat və sərbəst olmaları əsas götürülüb. Təhsil müəssisəsinin direktoru Xədicə Eminovanın bizimlə görüşündə ilk sözü bu oldu.

2016-2017-ci tədris ilindən liseydə inklüziv təhsil layihəsinin həyata keçirildiyini deyən direktor bunun sağlamlıq imkanları məhdud uşaqlar, eləcə də onların valideynləri üçün bir sıra imkanlar yaratdığını söylədi.

İnklüziv təhsilin ənənəvi təhsildən fərqli olaraq xüsusi yanaşma tələb etdiyini deyən X.Eminova məhz müəllimlərin və loqoped-defektoloqun sağlamlıq imkanları məhdud olan uşaqların fərdi xüsusiyyətlərini, onların imkanlarını və məhdudiyyətlərini öyrənərək öz işlərini qurduqlarını söylədi: “Bilirsiniz, belə uşaqlar özlərinin cəmiyyətdə yaşıdları ilə bərabərhüquqlu olduqlarını bilməli və görməlidirlər. Birlikdə təhsil almaq onların müəyyən sosial vərdişlər qazanmasına, bilik və bacarıqlar əldə etməsinə şərait yaradır. Layihə özünü doğruldur. Bu uşaqların valideynləri övladlarında baş verən müsbət dəyişikliyi hiss ediləcək dərəcədə görürlər”.

A.Mustafayev adına 202 nömrəli tam orta məktəbin direktoru Qasım Qasımov təhsil müəssisəsində 2016-2017-ci tədris ilindən reallaşdırılan inklüziv təhsilə 4 sinif olmaqla sağlamlıq imkanları məhdud 8 uşağın cəlb edildiyini söylədi. Uşaqların normal təhsil almaları üçün sinif otaqlarından başqa, 1 əlavə məşğələ otağı ayrılıb və o, xüsusi avadanlıqlarla təchiz edilib. Sağlamlıq durumları nəzərə alınaraq məktəbin girişində onların istifadəsinə uyğun pilləkən düzəldilib: “Sağlamlıq imkanları məhdud uşaqlarla sağlam uşaqlar bir yerdə təhsil alsalar da, onlar üçün fərdi tədris proqramlarından istifadə olunur, eyni zamanda, inklüziv təhsilə cəlb olunan şagirdlərlə məktəbin psixoloqu və əlavə təyin edilmiş korreksion-pedaqoq məşğul olur. Sözün düzü, bu layihəyə başlananda birinci il müəyyən çətinliklər oldu. İlk vaxtlar sağlam uşaqların valideynləri bunu tərəddüdlə qarşıladılar. Lakin bizim tərəfimizdən aparılan maarifləndirici söhbətlər nəticəsində bu problem çox qısa bir zamanda aradan qalxdı. Hazırda normal tədris gedir, nəticələr ürəkaçandır. Belə ki, normal şagirdlərlə təhsil alan sağlamlıq imkanları məhdud olan uşaqlar arasında mehriban ünsiyyət qurulub, siniflərdə xoşməramlı təlim, eyni zamanda sağlam psixoloji mühit yaradılıb. Uşaqlar belə bir mühitdə təhsil almağa artıq adaptasiya olunublar. Hər iki tərəf inklüzivliyi dəstəkləyir”. Direktorun fikrincə, təhsilin bu formada təşkili xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə daha uğurla inteqrasiya olunmasına gətirib çıxaracaq.

Qasım müəllim gələcəkdə ibtidai sinif müəllimlərinə dəstək vermək üçün hər inklüziv sinfə korreksion-pedaqoqun və ayrıca psixoloq ştatının ayrılmasını, həmçinin valideynlərin çoxsaylı müraciəti nəzərə alınaraq onun əhatə dairəsinin genişləndirilməsini, daha çox məktəbdə tətbiq olunmasını arzulayır.

220 nömrəli məktəb-liseydə də 12 uşaq inklüziv təhsilə cəlb olunub. Təhsil müəssisəsinin direktoru Tural Mirzəliyev sağlamlıq imkanları məhdud uşaqlar üçün əlavə məşğələ otağının olduğunu, onlara dərs deyən müəllimlərin xüsusi təlimlərdən keçdiyini dedi: “Əvvəlki illərlə müqayisədə burada təhsil alan sağlamlıq imkanları məhdud uşaqlarda müəyyən müsbət dəyişikliklər var. Bəzi uşaqlarda artıq davranış sərbəstliyi, ünsiyyət bacarığı formalaşdığı hiss olunur”.

### Müsbətə doğru dəyişikliklər

26 illik pedaqoji staja malik Gülər Abdullayeva 138 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimidir. 2015-2016-cı tədris ilindən inklüziv təhsilə cəlb olunan uşaqlara dərs deyir. Tədris apardığı III sinifdə 2 belə şagird var. İlk vaxtlar bu sinfə gələrkən sağlam uşaqlarla kontakta girməyən, onlarla ünsiyyət qurmayan, oturmağa çətinlik çəkən, yazıb-oxumağı bacarmayan uşaqlarda artıq müsbətə doğru irəliləyişlər var. Bu uşaqlar sinifdə öz sağlam həmyaşıdları ilə dostluq edirlər.

Məsələn, sağlamlıq imkanları məhdud olan Kamilənin rəqsə, şəkil çəkməyə həvəsi var. Artıq üzündən oxumağı, imla yazmağı bacarır və 10 dairəsində sərbəst hesablayır.

Digər şagird Zaur da artıq bütün hərfləri tanıyır, yazır və kitabı üzündən oxumağı bacarır. Çətinliyi riyaziyyat fənnindəndir. Hesablamada çətinlik çəksə də, həndəsi fiqurları tanıyır və adlandırır. Yüksək musiqi duyumu var, eşitdiyi melodiyanı, musiqini düzgün ifa edir.

**Bu layihənin ən başlıca tərəfləri həmin uşaqların digərləri ilə ünsiyyət qurmağı öyrənmələridir. Bundan başqa, tipik uşaqlarda da xeyirxahlıq, qayğıkeşlik, humanizm kimi gözəl keyfiyyətlərin formalaşmasında inklüziv təhsilin böyük rolu var. İnklüziv təhsildə məqsəd sağlamlığı məhdud uşaqları cəmiyyətə adaptasiya etmək, onların cəmiyyətdə özlərinə düzgün yer və mövqe tutmalarıdır. Biz də bu istiqamətdə iş aparırıq.**

Gülər müəllim belə uşaqlarla aparılan iş metodundan da söz açdı: “Hər bir uşaq üçün korreksion-pedaqoq və mənim tərəfimdən fərdi iş planı hazırlanır, buna uyğun fəaliyyətimizi qururuq. Bu şagirdlər 2-3 saatdan artıq dərsdə otura bilmirlər, çünki tez yorulurlar. Onlara uyğun çalışmalar hazırlayır, kiçik həcmli üzdən köçürmələr, imlalar yazdırırıq. Yaddaş üzrə (kartlarla) müxtəlif çalışmalar veririk, şəkil üzrə danışdırır, mətn oxutdururuq və s.”.

Bir müəllim kimi ilk gündən məqsədinin bu uşaqların tipik uşaqlarla münasibət qurmasını təmin etmək olduğunu söyləyən Gülər müəllim artıq sinifdə buna nail olduqlarını deyir. Sinifdə sağlam şagirdlər belə uşaqlara çox qayğı göstərir, onlara kömək edirlər. Bununla bağlı uşaqlar arasında sorğu keçirilib və verdikləri cavablarda onların bu uşaqlara yardım, dostluq etməkdə maraqlı olmaları açıq-aydın hiss edilir.

Gülər müəllim inklüziv təhsillə bağlı 2015-ci ildə Təhsil Nazirliyinin təşkil etdiyi təlimlərdə iştirak edib. Bu təlimlərdə Almaniyadan gəlmiş professorların verdikləri biliklərdən bəhrələndyini, elə həmin il Almaniyanın Düsseldorf şəhərində Beynəlxalq Menecment və Texnologiyalar Akademiyasının təşkil etdiyi treninqlərdə iştirak edərək sertifikat aldığını bildirir. Həmin təlimlərin, inklüziv məktəblərlə tanışlığının onun pedaqoji fəaliyyətində əhəmiyyətli rol oynadığını, Almaniya təcrübəsindən çox şey örəndiyini söyləyir: “Bu layihənin ən başlıca tərəfləri həmin uşaqların digərləri ilə ünsiyyət qurmağı öyrənmələridir. Bundan başqa, tipik uşaqlarda da xeyirxahlıq, qayğıkeşlik, humanizm kimi gözəl keyfiyyətlərin formalaşmasında inklüziv təhsilin böyük rolu var. İnklüziv təhsildə məqsəd sağlamlığı məhdud uşaqları cəmiyyətə adaptasiya etmək, onların cəmiyyətdə özlərinə düzgün yer və mövqe tutmalarıdır. Biz də bu istiqamətdə iş aparırıq. Sinfimizdəki sağlamlıq imkanları məhdud uşaqlar ətrafındakılarla ünsiyyət qurmağı öyrəniblər. Əvvəllər çəkinən, qorxan uşaqlar indi məktəbimizə, sinfimizə gələn yeni bir insanla belə ünsiyyət qurmağı bacarırlar. Onlar məktəbi, yoldaşlarını çox sevirlər...”.

Həmsöhbətimiz olan digər təhsil işçiləri - bu məktəbin ibtidai sinif müəllimi Elmira Heybətova, 202 nömrəli tam orta məktəbin müəllimləri Zeynəb Həsənova, Təzəgül Məmmədova, dərslərində iştirak etdiyimiz 252 nömrəli məktəb-liseyin müəllimləri Rəmziyyə Əhmədova, Şəlalə Əzizova, Elazə Teymurova da belə bir layihənin xüsusi qayğıya ehtiyacı olan uşaqların normal yaşıdları ilə birlikdə təhsil almasına gözəl bir şans yaratdığını vurğulayırlar. Təlim metodikasına müvafiq olaraq inklüziv təhsilin uşaqlara qarşı ayrı-seçkilik edilməsinin qarşısının alınmasında, müxtəlif xəstəlikləri, sağlamlıq imkanları məhdud olan uşaqların belə, mükəmməl şəkildə təhsil almasına, gələcəkdə peşə hazırlığına gedən yolun sadələşdirilməsində əhəmiyyətli rol oynadığını bildirirlər.







Fotolar Rəşad ZİYADOVUNDUR

### Daha həssas və səbrli olma

Tipik uşaqlardan fərqli olaraq bilirik ki, sağlamlıq imkanları məhdud olan uşaqlarla işləmək daha həssaslıq və səbr tələb edir. 252 nömrəli məktəb-liseydə apardığımız müşahidələr, fikirlərini öyrəndiyimiz korreksion-pedaqoqlar (loqoped-defektoloqlar) Səmra Axundova (220 nömrəli məktəb-lisey), Şəfəq Yusifli, (202 nömrəli tam orta məktəb), Ayşən Nəcəfova (138 nömrəli tam orta məktəb) bunu bir daha təsdiqləyir.

252 nömrəli məktəb-liseydə məşğələsində iştirak etdiyimiz Aytac Məmmədzadə 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini “Korreksiyaedici təlim” ixtisası üzrə bitirib. Liseydə inklüziv təhsil üzrə korreksion-pedaqoq işləyir. Cavandır, peşəsini, uşaqlarla işləməyi çox sevir. Fəaliyyətə başladığı elə ilk vaxtlardan təhsil müəssisəsinin rəhbərliyi tərəfindən diqqət və qayğı gördüyünü, buradakı müəllimlərin ona böyük dəstək göstərdiklərini deyir.

Öz üzərində işləməyi, təkmilləşməyi, bilik-bacarıqlarını artırmağı qarşısına məqsəd qoyub. Ötən il Təhsil Nazirliyinin təşkil etdiyi inklüziv təhsillə bağlı treninqdə, bundan başqa müxtəlif təşkilatların keçirdiyi bir çox seminarda istirak edib. Bu il işlədiyi liseydə özü müəllimlərə treninq keçirib.

Korreksion-pedaqoq kimi inklüziv təhsilə cəlb olunan uşaqlarla hər gün qrup və ya fərdi şəkildə dərs vaxtı 20-25 dəqiqə məşğul olur. Özünün dediyinə görə, vaxtın müəyyənləşdirilməsi hər uşağın qavrama səviyyəsinə görə olur.

Biz həmin təhsil müəssisəsində olarkən Aytac müəllim inklüziv təhsilə cəlb olunanlar üçün ayrılmış otaqda məşğələ aparırdı. Həmin məşğələ prosesini kənardan izləmək bizim üçün də maraqlı idi.

A.Məmmədzadə sağlamlıq imkanları məhdud uşaqların hər birinin ilk vaxtları və hazırda müsbətə doğru dəyişən nəticələri barədə bizə məlumat verdikdən sonra fəaliyyəti haqqında da danışdı: “Dərs zamanı sinif müəllimi öz fənnini ümumi şəkildə keçir, həmin uşaqlara isə xüsusi fərdi tədris proqramı əsasında tapşırıqlar verir. Əsasən sağlamlıq imkanları məhdud uşaqlar dərsdə oturmaqdan yorulur və deyilənləri qavramaqda çətinlik çəkirlər. Şagirdləri məşğələ otağına gətirir, burada onlara tam sərbəstlik verirəm. Rahat olmalarına şərait yaradır və sonradan həmin uşaqlarla verilən tapşırıqlar üzərində səbrlə birlikdə çalışırıq. Düzdür, bu, müəyyən vaxt alsa da, sonda onların öyrənməsinə nail oluram”.

### Hər bir uşağın öyrənmə imkanları nəzərə alınır

İnklüziv təhsili valideynlər də çox müsbət dəyərləndirirlər. Fərqanə Almuradova, Aybəniz Əliyeva, Şövkət İsayeva və adını çəkmədiyimiz neçə-neçə valideyn belə təhsildən məmnundur. Belə ki, övladlarının problemli olmasına baxmayaraq, normal uşaqlardan geri qalmadıqlarından, onlara müəllimləri tərəfindən özlərini tanıtmalarına şərait və imkan yaradılmasından, digər tipik uşaqlar kimi münasibət göstərilməsindən, daha həssas və qayğı ilə yanaşmalarından razılıq edirlər.

İnklüziv təhsilin müsbət tərəfləri barədə fikirlər söyləyən təhsil işçilərini, valideynləri dinlədikcə belə qənatə gəldik ki, inklüziv təhsil xüsusi təhsil müəssisəsinə yüngül xəstəliyi olduğuna görə uşağını verməyən, ümumtəhsil müəssisəsində isə təlimatın tələbinə əsasən oxuda bilməyən valideynlər üçün əslində ən gözəl şansdır. Özü də nəzərə alsaq ki, belə bir təhsildə hər bir uşağın öyrənmə imkanları diqqətdə saxlanılır və onun ehtiyaclarına uyğunlaşdırılır.

## "Nə? Harada? Nə zaman?" intellektual bilik yarışı

İmişli Rayon Təhsil Şöbəsinin, Azərbaycan İntellektual Oyunlar Klubu və Ziyalı Gənclər Maarifçi Klubunun birgə təşkilatçılığı ilə Göbəktala kənd tam orta məktəbinin VII-XI sinif şagirdləri arasında "Nə? Harada? Nə zaman?" intellektual bilik yarışı keçirilib.

Dövlət himninin səsləndirilməsindən sonra məktəbin direktoru Nərgiz Dadaşova iştirakçıları salamlayıb. Sonra o, belə bilik yarışlarında şagirdlərin əldə edə biləcəkləri nailiyyətin onlarda elmi motivasiya hissini gücləndirəcəyini və gələcək uğurlara istiqamətləndirəcəyini qeyd edib.

Bilik yarışında iştirak edən 6 komanda arasında 10-cu sinfin komandası qalib olub.

Qalib gəlmiş komandanın bütün üzvləri rayon təhsil şöbəsinin, Azərbaycan İntellektual Oyunlar Klubu və Ziyalı Gənclər Maarifçi Klubunun, məktəb rəhbərliyinin müxtəlif hədiyyə və diplomları ilə təltif olunublar.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




## "Gənclərin karyera quruculuğunda keyfiyyətli təhsilin rolu"

Qax şəhər 2 nömrəli məktəb-liseydə Məktəb Kiçik Akademiyasının xətti ilə "Gənclərin karyera quruculuğunda keyfiyyətli təhsilin rolu" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbirdə məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini, məktəb psixoloqu, fənn müəllimləri və akademiyanın üzvləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə MKA-nın prezidenti X sinif şagirdi Murad Şərifzadə açıb. Akademiyanın üzvləri olan şagirdlər tərəfindən mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb. "Dəyirmi masa"da iştirak edən müəllimlər də bu sahədə şagirdlərin fikirlərinə münasibət bildirib və onlara karyera quruculuğu ilə bağlı öz tövsiyələrini veriblər.

Sonda tədbir iştirakçıları FLEX (Gələcək Liderlərin mübadiləsi) proqramı üzrə ABŞ-da 10 aylıq təhsil almaq hüququ qazanmış MKA-nın fəal üzvlərindən olan XI sinif şagirdləri Xanım Qocayeva və Məhəbbət Əhmədliyə uğurlar arzulayıblar.

## "Şahin" Respublika Hərbi İdman Oyunları başa çatıb

"Şahin" Respublika Hərbi İdman Oyunlarının final mərhələsi keçirilib.

Zaqatala Rayon Təhsil Şöbəsindən redaksiyamıza daxil olan məlumata görə, yeniyetmələrin hərbi vətənpərvərlik işinin daha da gücləndirilməsi məqsədi ilə keçirilən yarışda Çobankol kənd tam orta məktəbinin şagirdləri qələbə qazanıblar.

Qalib komandanın üzvləri müxtəlif hədiyyələrlə mükafatlandırılıb.

## Məktəblərarası "Bilik yarışı" keçirilib

Daşkəsən rayonunun 70 illik yubileyinə həsr olunmuş məktəblərarası "Bilik yarışı" keçirilib.

"Bilik yarışı"nda VIII-XI siniflər üzrə suallar tarix, coğrafiya və ədəbiyyat fənləri üzrə tərtib olunub. Yarışda 9 məktəb və hər məktəbi təmsil edən bir komanda iştirak edib.

İlkin olaraq üç mərhələdən ibarət olan seçim turu keçirilib, seçim turunun qalibi olan bir komanda finala vəsiqə qazanıb.

Final mərhələsində Quşçu kənd tam orta məktəbinin komandası I, İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin komandası II, A.Mürsəlov adına 2 nömrəli tam orta məktəbin komandası III yerlərə layiq görülüblər.

Yarışlar arası məktəblilər tərəfindən maraqlı səhnəcik, rəqs və çıxışlar nümayiş olunub.

Sonda qalib olan komandalar fəxri fərmanla təltif olunublar.

**Mikayıl MİKAYILLI,**
*Daşkəsən Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Bu peşəni mənə elə təsviri incəsənət müəllimim sevdirib"

## *Nazlı Əhmədli:* "Müəllim həm də psixoloq olmalıdır"

**Nazlı Əhmədli 1994-cü ildə Qax rayonunda doğulub. 2011-2015-ci illərdə ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində təsviri incəsənət ixtisası üzrə təhsil alıb. 2017-ci ildə Müəllimlərin işə qəbulu imtahanında iştirak edərək 45 bal toplayıb. Zərnə kənd tam orta məktəbində pedaqoji fəaliyyətə başlayıb. Gənc müəllim az müddətdə həm pedaqoji kollektivin, həm də şagirdlərin rəğbətini qazana bilib.**



*- Nazlı xanım, müəllimlik peşəsi haqqında çox sözlər söylənilib, fikirlər də müxtəlifdir. Siz nə düşünürsünüz bu barədə?*

- Bu peşəni seçməyi məktəb illərindən qərar vermişəm. Rəsm çəkməyə böyük həvəsim var idi, müəllimliyi mənə elə təsviri incəsənət müəllimim sevdirib.

Ondan nümunə götürmüşəm və gələcəkdə mütləq mən də təsviri incəsənət müəllimi olacağımı düşünmüşəm. Müəllim şagirdlər üçün, eləcə də hər bir insan üçün örnəkdir. İnsan gələcəyi barədə ilk xəyallarını məhz müəlliminə baxaraq qurur, onun kimi olmağı, onun kimi davranmağı, hətta geyinməyi və sevməyi də düşünür. Bu gün müəllimlikdən daha böyük bir peşə tanımıram.

*- Nəzərə alsaq ki, tədris etdiyiniz fənni qavramaq üçün bütün şagirdlərin qabiliyyəti olmur. Təsviri incəsənət sırf istedadlı şagirdlər üçün maraqlıdır. Hazırda şagirdlərlə işləmək çətinlik törətmir ki?*

- Uşaqlarla işləmək çox gözəldir, onların bu fənnə olan marağı məni daha da həvəsləndirir. Əksinə, deyərdim ki, bu sahədə istedadı olduolmadı bu fənn bütün şagirdlərin sevdiyi bir fəndir. Şərt deyil ki, hamının bu sahədə istedadı olsun, əsas odur ki, ağ kağız və rəngli qələmlər hər bir şagirdin sevimlisidir. Ürəyindən keçən fikirləri peşəkar və ya qeyri-peşəkar səviyyədə ağ kağıza köçürməyi hamı sevir.

Onların ən kiçik uğuruna belə onlar qədər sevinirəm. Şagirdlərim arasında bu sahədə istedadı ilə fərqlənən şagirdlər də var.

*- VI sinifdə "açıq dərs"iniz təşkil olunub. İlk dəfə "açıq dərs" keçmək sizdə hansı təəssüratları oyatdı?*

- Düzdür, çox həyəcanlı idim. İlk dəfə "açıq dərs"im olacaqdı. Amma həm də sevincliydim. Şagirdlərimin bacarığını digər fənn müəllimləri də görəcəkdi. VI sinifdə dərsin mövzusu "Təsviri sənət əsərlərində məzmun" idi. Dərsin məqsədi şagirdləri təsviri sənətin janrları haqqında daha geniş məlumatlandırmaq və rəssamların hansı janrda əsərlər çəkdiklərini göstərmək idi. Mən dərsə kifayət qədər əsərlərdən nümunələr gətirmişdim və şagirdləri müxtəlif janrlarda çəkilmiş əsərlərlə tanış etməyə çalışdım. Şagirdlərə portret, natürmort, mənzərə, məişət, animalistik janrlarda müxtəlif rəssamların əsərləri ni və öz əl işlərimi göstərdim.

Onlarla janrlar arasında fərqin nədən ibarət olduğu, janrların nəyi əks etdirdiyini müzakirə etdik. Dərsin sonunda şagirdlər təsviri sənətdə "janr" anlayışı, janrda "nə təsvir olunmalıdır" sualını cavablandırdığını anladılar. Eyni zamanda rəssamın tamaşaçıya təqdim etdiyi ideya "əsərin məzmunu" adlandığını öyrəndilər. Qarşıma qoyduğum məqsədə nail oldum. Dərsdə iştirak edən müəllimlər, məktəb rəhbərliyi ilə birlikdə dərsin müzakirəsi təşkil olundu. İlk "açıq dərs"im olduğu üçün dərsin müsbət xüsusiyyətləri daha çox vurğulandı. Gələcək dərslərimi daha məzmunlu və keyfiyyətli quracağımı düşünürəm.

*- Şagirdlərdə dərsə maraq oyatmaq üçün, sizcə, müəllim nə etməlidir?*

- Şagirdlərdə dərsə maraq hissi oyatmaq üçün öncə müəllim öz ixtisasını sevməlidir. Onu tədris etməkdən, şagirdlərinə bu sahədə nələrisə öyrətməkdən zövq almalıdır. Eyni zamanda müəllim, həm də psixoloq olmalıdır. Şagirdlərinin üzünə baxdığı an onların hansı psixoloji durumda olduğunu anlamalı, onlarla davranışın düzgün üsulunu tapmağı bacarmalıdır. Öncə şagirdlərin hər birinə həssaslıqla yanaşmalıdır. Hər gün pedaqoji prosesi uğurla başlamaq və başa çatdırmaq müəllimin şagirdə yanaşma tərzindən çox asılıdır. Müəllimini sevən şagird onun fənnini də sevməyə başlayacaq.

*- Siz necə düşünürsünüz, şagirdlərdə öz fənninizə qarşı maraq oyada bilmisinizmi?*

- Bunu söyləmək, məncə, hələ tezdir. Amma mən çox çalışıram bunun üçün...

Hər dərsimi maraqlı qurmaq, dərsdə şagirdlərin hər birinin iştirak etməsi, həvəslənərək yeni məlumatlar əldə etməsi üçün əlimdən gələni edirəm. Hər dərsdə həm azərbaycanlı, həm də xarici rəssamların əsərləri haqqında, həyatlarından maraqlı epizodlar danışmaqla şagirdlərimin diqqətini toplamağa çalışıram. Onlarla daha çox dost kimi münasibət qurmaqla qəlblərini ələ ala bilmişəm. Təsviri incəsənət dərsinin olacağı günü həvəslə gözlədiklərini bilirəm. İnsan göstərdiyi sevginin yüz faiz olmasa da, əlli faizinin həmişə ona qayıdacağını düşünməlidir. O zaman böyük uğurlar əldə edə bilər. Mən də buna inanıram.

*- Nazlı xanım, pedaqoji fəaliyyətində sizə uğurlar arzulayırıq. Həmişə peşənə belə həvəslə və sevgi ilə davam et. Uğurlarınız bol olsun!*

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Dövlətçilik dərsləri" mövzusunda "dəyirmi masa"

Saatlı rayon Heydər Əliyev Mərkəzində "Dövlətçilik dərsləri" mövzusunda "dəyirmi masa" keçirilib. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə Məzrəli kənd tam orta məktəbinin müəllim və şagirdləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Heydər Əliyev Mərkəzinin direktor səlahiyyətlərini müvəqqəti icra edən Telman Ağayev dövlətçilik haqqında danışıb. Daha sonra mərkəzin kiçik elmi işçisi Hüseyn Eynullayev tarix boyunca xalqımız tərəfindən qurulan dövlətlərdən, onların siyasi quruluşundan, qonşu xalqlarla və dövlətlərlə münasibətindən bəhs edib, mövzu ətrafında fikirlərini bölüşüb. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Xalid NƏCİYEV,**
*Saatlı Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Şagirdlər arasında futbolun kütləviliyi artırılır

Göygöl rayon Bəhrəmbağ kənd ümumi orta məktəbində futbol çempionatının zona mərhələsi keçirilib. Yarışda Balçılı 1 və 2 nömrəli, Üçtəpə, Qırıxlı, Yeni Qızılca, Qızılca kənd tam orta və Bəhrəmbağ kənd ümumi orta məktəblərinin komandaları iştirak edib.

Yarışın keçirilməsində məqsəd şagirdlər arasında idmana olan marağın artırılması, futbolun inkişafı və kütləviliyinin təmin edilməsidir.

Üç mərhələdə keçirilən yarışın qalibi Bəhrəmbağ kənd ümumi orta məktəbinin komandası olub.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Təbiət və sağlamlıq"

Şabran şəhər 1 nömrəli ümumi orta məktəbdə təbiəti mühafizəyə həsr olunmuş tədbir keçirilib.

"Təbiət və sağlamlıq" adı altında keçirilən tədbirdə məktəbin müəllim kollektivi və şagirdlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan məktəbin biologiya müəllimi Simuzər Fərmanova "Təbiət və sağlamlıq" mövzusunda hazırladığı məruzəni tədbir iştirakçılarına təqdim edib.

Daha sonra şagirdlər "Orqanların söhbəti", "Meyvələrin bəhsi", "Nadir ağac növləri", "Xarı bülbül" haqqında rəvayətlər söyləyiblər. Bəxtiyar Vahabzadənin səsində "Xarı bülbül" şeiri dinlənilib.

Tədbir 1-ci sinif şagirdlərinin rəqsləri ilə yekunlaşıb.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Cəmiyyətin əsası və insanlığın akademiyası



## Ailə intizamlı məktəb kimi cəmiyyətə görk olmalıdır

**Şəmsəddin ƏLİYEV,**
*hüquqşünas*

Ailə cəmiyyətin ən mühüm institutlarından biridir. Ailən yoxdursa, deməli heç nəyin də yoxdur. Ailə kiçik dövlət, mən deyərdim ki, elə dövlətin özüdür. Əbəs yerə "Hakimiyyətin yeganə mənbəyi xalqdır" ifadəsi işlədilmir. Ailə cəmiyyətin əsas özəyi kimi xalqı yaratdığından, nəticədə hakimiyyətin mənbəyinin ayrılmaz tərkib hissəsinə çevrilir. Bu mənada ailə hər şeyi əvəz edir və onu qurmaq üçün sevgi, bir az da ciddilik kifayətdir. Amma onu qorumağa səbr, çox şeyi bağışlamağı, bəzən də çox şeyi unutmağı bacarmaq lazımdır.

Mübaliğəsiz belə bir fikir səsləndirmək olar ki, ailəni əvəzi olmayan nadir və az tapılan qiymətli sərvət kimi dağıtmaq yox, qorumaq hər bir vətəndaşın borcudur. Zənnimcə, ailəni quran hər iki tərəf birgə həyata başlarkən hüquqlarını yarıbayarı azaltmalı, vəzifələrini isə iki dəfə artırmalıdır. Ər də, arvad da yaşadıqları birgə həyat zamanı ağılla hərəkət etməli, hissə qapılma halları zamanı onu içində boğmağa cəsarət və iradə tapmalıdır. Qarşılıqlı güzəştə getmək ailənin özülünü bərkidir. Təcrübə göstərir ki, əksər hallarda tərəflər arasında əvvəlki sevgi uzun çəkmir. Ona görə də ailənin qorunması üçün başlıca məsələ səbr nümayiş etdirməkdir. Nikahın təntənəli qeyd olunmasına qədər hər iki tərəf bir-birlərinin xarakterini, vərdişlərini, cəmiyyət üçün önəm daşıyan mənəvi dəyərləri nə dərəcədə qoruya biləcəklərinə əmin olduqdan sonra razılığa imza atmalıdırlar.

### İki qəlb, bir iradə

Ailə uşaqlardan başlayır. Uşaqların gələcəyi və ailənin müqəddəsliyini qorumaq xətrinə ailədə orta xətt olmamalıdır. Ailə yeganə yerdir ki, qarşılıqlı hörmət və ehtiramı yalnız orada ərsəyə gətirib, gələcək nəslin sağlam inkişafına da orada zəmin yaratmaq olar. Ailənin xoşbəxtliyini hiss etmək və yaxud görmək üçün səbr və yenə də səbr etmək lazımdır. Bütün hallarda səbirsizlik ailəni uğursuzluğa aparır. Böyük mütəfəkkir R.Taqor deyir: "Ailə istənilən sivilizasiyanın və cəmiyyətin əsas özəyidir". Mən deyərdim ki, tərəflərin iki qəlbi olsa da iradələri bir olmalıdır ki, daha da möhkəmlənsin. Bu mənada ailə intizamlı məktəb kimi cəmiyyətə görk olmalıdır. Bir az da obrazlı ifadə etsək, ailə (uşaqların olduğu ailəni nəzərdə tuturuq) insanlığı da öyrədən bir akademiyadır.

Son zamanlar ailə-nikah münasibətlərindəki mübahisələr ictimai müzakirələrin predmetinə çevrilib. Cütlüklər sevgi və məhəbbətə, qarşılıqlı hörmət və ehtirama söykənən bəşəri dəyərlər əsasında ailə həyatı qursalar da çox çəkmədən yollar ayrılır. "Xasiyyətimiz uyğun gəlmədi", "Məni tez-tez aşağılayır", "Kobudluq edir, uşaqlara baxmır!" və s., və i.a. Səbəbləri aradan qaldırmaq üçün müxtəlif təkliflər irəli sürülür. Nikah qeydə alınan zaman tərəflər arasında ailə müqaviləsinin imzalanması təklif edilir. Guya bu təklifin qəbulu boşanma zamanı əmlakın bölünməsi məsələsinin həllində məhkəmələrə çətinlik yaratmayacaq.

Nikahın pozulmasına təsir edən digər səbəblər sırasında tərəflərin bilik səviyyəsi, intellekt qabiliyyəti vurğulanır. Cütlüyün mədəni və əxlaqi keyfiyyətləri də bu məsələdə rol oynayır... Daha sonra sosial səbəblərin-işsizliyin, yoxsulluğun, narkomanlığa və spirtli içkilərə aludəçilik hallarının olmasını da qeyd edənlər var.

Lakin boşanmaya gətirəcək real səbəblərin tapılması, həmin səbəblərin təhlili, doğuran şəraitin - sosial faktorların öyrənilməsi və aradan qaldırılması üçün sosial institutların rolu hiss olunmur. Bir az keçmişə nəzər yetirsək bu gün üçün ibrət götürüləsi faktorların olduğunu görə bilərik. Keçmişdə ata-babalarımız ailə həyatı qurarkən heç birinin nə təhsili varıydı, nə oxuya, nə də yaza bilirdilər. Amma ailə həyatı davamlı olurdu. 10-11 uşaq böyüdən valideynlərin həyatı bugünkü gənclərə görk olmalıdır. Yoxsulluq və işsizlik şəraitində yaşayan keçmiş kişi və qadınlarda gərginliyə gətirib çıxaracaq fikir ayrılıqları olmuşsa da ailə həyatı məcrasından çıxmazdı. Çünki ailənin müqəddəsliyi və Allah tərəfindən "himayə" olunması faktoru təkzib olunmurdu. Həmin dövrün deyiminə görə, "Ailə yalnız xəyanət olarsa dağıla bilər"di! Kişi bir az ucadan danışardısa, qadın həddini aşmazdı. Nə yoxsulluq, nə işsizlik, nə də təhsilin səviyyəsi həmin dövrdə boşanmağa təsir edə bilməzdi və boşanma halları ümumiyyətlə olmurdu-desək yanılmarıq.

Bu gün üçün, daha doğrusu, şəhər həyatı üçün kişilərin spirtli içkilərə aludəliyi və narkomanlığa meyil halları diaqnostika edilə və cəmiyyətin müalicə oluna bilən xəstəliklərindəndir. Bu səbəbdən qadınlar tərəfindən boşanmalara üstünlük verənlərin sayı da az deyil.

2017-ci il ərzində (dekabrın 1-nə olan məlumat) Azərbaycanda boşanmaların sayı 11 min nəfər olmuş, həmin dövrün yanvar-noyabr ayları ərzində 78,5 min nikah qeydə alınmışdır. Əhalinin hər 1000 nəfərinə olan nisbətdə nikahların sayı 9,1; boşanmaların sayı isə 1,3 olmuşdur.

### Ailəyə sədaqət andı

Qənaətimizə görə, müasir dünyada boşanmalara gedən yol açıq və hamardır. Gənclərin əksəriyyəti ailəni cəmiyyətin əsas özəyi olduğunu dərk etmir və yaxud onun konstitusion mahiyyətini anlamır. "Ailə cəmiyyətin əsas özəyidir" ifadəsi əsas qanunumuzda da əksini tapıb. Amma bunun açması gənclərə aşılanmır. Nikahın təntənəli qeydə alınması zamanı "Ailə məcəlləsinin (9,10 və 11-ci maddələri) maddələrini rəhbər tutmaqla "Siz ər-arvad elan olunursunuz!" ifadəsinin əvəzinə, hər iki tərəfin bir-birilərinə sədaqət göstərəcəkləri, köməksiz vəziyyətdə (ərin və yaxud arvadın) olduqları, ağır xəstəliklərdən əziyyət çəkdikləri zaman yanında olacaqlarına, ona hörmət və ehtiramla qulluq edəcəklərinə, həyatlarının son gününədək sevgiyə sadiq qalacaqlarına dair hamıya görk olacaq və ətrafı riqqətə gətirəcək məzmunda müraciət edilməli, bir növ "Ailəyə sədaqət andı" içilməli və hər iki tərəf ona imza etməlidir. And təntənəli toy mərasimlərinin və ailənin bir növ himninə - rəmzinə çevrilməlidir. Konstitusiyamızın 74-cü maddəsində "Vətənə sədaqət" vəzifəsi hər bir vətəndaşın (dövlət qulluqçusunun, hərbiçinin, dövlət qulluğunun xüsusi növündə çalışan məmurların içdiyi and da "Vətənə sədaqətin" nümunəsidir) müqəddəs, konstitusion vəzifəsidir. Bu vəzifəni icra etməmək sədaqətsizliyin bariz nümunəsi kimi xəyanətə bərabər tutulur və cinayət məsuliyyəti yaratdığı üçün dəyər kəsb edir.

Zənnimizcə, "Ailəyə sədaqət" ruhunda andın (mətni dərin məna kəsb edən məzmunda tərtib etmək lazımdır) içilməsi, toy şənliyində iştirak edənlərin hüzurunda ucadan səsləndirilməsi və həmin andın hər iki tərəfin imzalamasından sonra Ailə Məcəlləsinin müvafiq maddəsinə uyğun nikahın bağlanması ailənin nüfuzunu artıra, onu gənclər üçün müqəddəsləşdirə bilərdi. Qeydiyyat şöbələri tərəfindən toy mərasimlərində təqdim edilən nikah şəhadətnamələri toydan sonra dəyərini itirir. Həm qız, həm də oğlan tərəfindən şahidlik edib, zamin duranların imzaları ilə nikahı təsdiqləmələri isə formal tərəfdir.

### Nikahdan öncə psixoloji test

Azərbaycanda boşanmaların səbəbləri diqqətlə araşdırılmadığından öncədən proqnozlar vermək çətindir. Yuxarıda qeyd etdiyimiz kimi, tərəflər (ər/arvad) həyatı və gələcək taleyi ilə bağlı atdığı addımları diqqətlə, ötəri eşqə, ehtirasa uymadan saf-çürük etməli, təkcə zahiri görünüş, bəlağətli və yaxud pafoslu sözlər diqqət çəkməməlidir. Nikah zamanı gənclərin şüurunda gələcəkdə həyata gələcək uşaqların vətən və cəmiyyət üçün yüksək tərbiyəsi hər iki valideynin borcu kimi dərk edilməli, ailənin rifah halının yaxşılaşdırılması və həyat səviyyəsinin yüksəldilməsi üçün cütlük bütün imkanları daxilində çalışacaqlarının mahiyyətinə varmalıdırlar. Bu mənəvi dəyərlər nikahdan öncə tərəflərə Qeydiyyat şöbələrinin peşəkar və yaxud, Komitənin məsul işçiləri tərəfindən aşılanmalıdır. Hər iki tərəfin nikahdan öncə psixoloji (peşəkar psixoloqların, sosioloqların, hüquqşünasların, müvafiq icra hakimiyyəti orqanının nümayəndələrinin iştirak etdiyi) testdən keçmələri də gələcək ailənin qorunub saxlanılmasında mühüm şərtdir.

Yeni ailə quranlara ixtisaslarına uyğun işlə təmin edilərkən üstünlük və mənzilə ehtiyacları olarsa az faizlə, uzunmüddətli kredit verilməlidir.

Hər bir yeni ailənin gələcək həyatı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzarətində olmalı, mövcud çətinliklərin aradan qaldırılmasına diqqət yetirilməlidir. Belə yanaşma ailənin daxili işinə müdaxilə kimi qəbul edilə bilməz. Əksinə, cəmiyyətin sağlam inkişafı, daha doğrusu, ailənin cəmiyyətin əsas özəyinə çevrilməsi üçün geniş imkanlar açılır.

AM-də nikahın pozulması ilə bağlı hallara yenidən baxmağa ehtiyac var. Hər bir boşanma halı mürəkkəbləşməlidir. Bütün hallarda boşanmalar, bir qayda olaraq, yalnız və yalnız məhkəmənin aktı ilə baş tutmalıdır. Boşanmaya əsas verən səbəblərin ciddi və mühüm səbəb kimi qəbulu məsələsi də məhkəmələrin səlahiyyətinə aid edilməlidir.

Ailənin bütövlüyünü qoruya bilməyən, uşaqların tərbiyəsinə və onların sosial ehtiyaclarının ödənilməsinə biganə qalan ər-arvad dövlətin etibar etdiyi vəzifənin də öhdəsindən gələ və yaxud, tutduqları vəzifələrinin icrasına başlamazdan öncə içdikləri anda sədaqət göstərə bilməzlər. Yaxşı olardı ki, dövlətin himayəsində olan ailənin qorunub saxlanılması üçün əhali arasında interaktiv sorğular keçirilsin, verilən təkliflər sırasında diqqətçəkən faktorlar nəzərə alınsın.

Səbrsizlik və dözümsüzlük nümayiş etdirmək də boşanmaları doğuran obyektiv faktorlardır.

Digər mürəkkəb məsələ boşanmadan sonra ərdən (arvaddan) alimentin tutulmasıdır. Burada aliment ödəyənin işləməməsi problem olaraq qalır. Heç cürə təfəkkürə sığmır ki, aliment ödəyə bilməyən şəxsi əvvəl inzibati, sonra ödənilməyən borc yığılıb artarsa iddiaçının şikayəti əsasında ərin (arvadın) cinayət məsuliyyətinə cəlb olunması məsələsi qətiləşir. Anlamaq olmur, alimenti ödəyə bilməyəni həbs etməklə uşaqların sosial rifahı yaxşılaşırmı? Qənaətimizə görə, əgər aliment ödəyənin heç bir əmlakı da yoxdursa, onun işə düzəlməsi üçün imkanlar axtarılıb tapılmalıdır. Atanın həbs edilməsi arzu olunan hal deyil. Ata və yaxud ana cəmiyyət üçün heç bir təhlükə törədəcək subyekt olmadığından onların cəmiyyətdən, ən başlıcası isə ayrı yaşayan övladlarının tərbiyə edilməsi borcundan müəyyən müddətə məhkum edilməsi Cinayət Məcəlləsinin humanizm, ədalət və qanunçuluq prinsipləri ilə bir araya sığmır. Hesab edirik ki, məsələnin həlli və belə ailələrin ehtiyaclarını ödəmək üçün "Aliment fondu"nun yaradılması çox vacibdir. Bu həm də ölkə konstitutsiyasının 12-ci maddəsində ehtiva edilən "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir" müddəası ilə üst-üstə düşər. Belə bir fondun yaradılmasından sonra açılan bank hesablarına imkanlı hüquqi şəxslərin pul köçürəcəklərini də ehtimal etmək olar, dövlətə o qədər də yük düşməz. Bununla da gələcək nəslin əlindən tutmuş olarıq.

### Bəs Avropa ölkələrində vəziyyət necədir?

İngiltərədə nikah üç hakimin və dövlət orqanı nümayəndəsinin, hər iki tərəfin valideynlərinin də iştirak etdiyi, dövlətin və ədliyyənin atributları olan zalda baş tutur. Əvvəlcə tərəflər üçün nəzərdə tutulan andın mətni oxunur və tərəflərin razılaşdığı təqdirdə imzalanır. Dövlət orqanının nümayəndəsi və hakimlər müəyyən sualların mahiyyətinə uyğun cavab aldıqdan sonra nikahın prosesi bitir və dövlət sənədi təqdim olunur...

Böyük Britaniyada bir ilə qədər rəsmi nikahda olanlar boşana və yaxud, bir ildən az ailə həyatı yaşayanlar boşanmağa ərizə verə bilməzlər. Boşanmaq istəyənlər ilk növbədə yaşamaq üçün şəraitin dəyişilməsinin mümkünsüzlüyünü sübut etməlidirlər. Bura aiddir:

- Tərəflərdən birinin xəyanəti;
- Tərəflərdən birinin arzuolunmaz davranışı (məişət zorakılığı);
- Tərəflərdən biri digərini 2 ildən çox müddətə atıb getmişsə;
- Əgər tərəflər 2 ildən çox müddət ərzində bir yerdə yaşamırlarsa və hər ikisi boşanmağa razıdırlarsa;
- Əgər cütlük 5 ildən artıq ayrı yaşayırsa, ər və yaxud arvad (biri) boşanmağa razı olmazsa.

Bütün göstərilən hallarda məhkəmə sübutlar tələb edir. Böyük Britaniyada tərəflər hüquqi yardım üçün hüquqşünaslara və yaxud "Əhali üçün məsləhət bürosuna" müraciət edə bilərlər. Boşanma iddiası məhkəməyə daxil olduqdan sonra cavabdeh tərəfə (ər və yaxud arvada) xəbərnamə forması göndərilir. Cavabdeh həmin formada boşanmaq istəmədiyinin səbəblərini xırda detalına qədər göstərir, qeyd edilən suallara aydın cavab verir və ağlabatan səbəbləri sadalayıb geri göndərir. Bunları qiymətləndirmək məhkəməyə həvalə olunsa da, bəzən bu səbəblərin aydınlaşdırılmasına III tərəf - mediatorlar, ailə üzrə məsləhətçilər, arbitrlər qatılırlar. Belə hallarda boşanmanın tezləşdirilməsi mümkün olmur. Ailə-məişət zorakılığına məruz qalan tərəfə pulsuz hüquqi yardım etmək Britaniyada geniş yayılıb. Qurbanlar yaşayış yeri ilə təmin edilir və onlara digər pulsuz yardımlar göstərilir. İngiltərədə bir uşağa görə əməkhaqqının 15%, 2 uşağa 20%, üçdən artıq uşaqlara görə isə 25% həddində aliment tutulur. Boşanma zamanı hakim uşaqların kimin himayəsində qalmasını qət edərsə (mənzilin kimin adında olmasına baxmayaraq) ev də ona qalır. Əksər hallarda ev anada qalır, eyni zamanda 18 yaşına və tələbəlik illəri ərzində də cavabdeh alimenti ödəməli olur. Xəyanət faktoru məhkəmədə sübut olunsa da "uşaqlara pis anadır" ifadəsini işlətmək qəbul olunmur.

Əvvəlki illərdən fərqli olaraq İngiltərədə boşanma halları azalmağa meyil edir. Sırada 25-29 yaşlı gənclər liderlik edir. Qadınlar daha çox səbirsizlik nümayiş etdirdiyindən boşanmaların da 68%-i qadınların iddiası ilə baş tutur. Əgər 1901-ci ildə İngiltərədə 512 boşanma faktı qeyd olunmuşdusa, 2001-ci ildə bu rəqəm 141135 fakt olmuşdur. 1970-ci ildə ailə qanunvericiliyində edilən dəyişikliklərlə əlaqədar boşanmaların sayı çoxalmışdır. Analitiklərin nəzərinə görə, boşanmalara təsir edən böhranlı səbəblər ilk ailə həyatının 3-cü ayı ərzində, sonra 1 il ərzində və 5-ci ildə kəskinləşməyə başlayır. 5 ildən artıq yaşayan cütlüklərin ailə həyatı şanslı və davamlı olur. İngiltərə məhkəmələrində əmlakın bölünməsi zamanı "nikah kontraktının" olmasına əhəmiyyət verilmir, əmlak tərəflər arasında bərabər bölünür, lakin azyaşlı uşaqların maraqları nəzərə alınır.

Böyük Britaniyada da səbirsizlik və dözümsüzlük nümayiş etdirmək boşanmaların artımına təsir edir.

Amerikada boşanma proseduru mürəkkəbdir. Bir yerdə yaşamağın qeyri-mümkünlüyü səbəbindən nikahın pozulması halları yalnız məhkəmə yolu ilə baş tutur. Boşanmalara vəsatət verildikdən 6 ay sonra baxılır. "Şerif" tərəfindən cavabdehə çağırış vərəqəsi təqdim edildikdən 21 gün sonra isə proses başlanılır. Adətən qız uşaqları boşanmadan sonra ana ilə qalır. İl ərzində qeyd olunan nikahların 45,5%-i pozulur.

Fransa dövlətində nikahın pozulması müəyyən səbəblər tələb edir:

- birgə razılıq əsasında qərarın qəbulu;
- ər və arvadın birinin təqsiri;
- tərəflərin ayrı yaşaması (6 il olmalıdır).

Burda da boşanma yalnız məhkəmə qaydasında həyata keçirilir. Hətta əgər ər-arvad birgə qərar qəbul ediblərsə belə. Birgə qərar zamanı tərəflər məhkəmədə səbəb göstərməsələr də nikah pozula bilər. Əgər boşanmağa tərəflərdən biri müraciət etmişsə, digəri də buna etiraz etmirsə, məhkəmə üç ay vaxt verir. Lakin həddi-buluğa çatmış uşaqlar olduğu təqdirdə hakim boşanmaya etiraz edə bilər.

Almaniyada isə boşanma zamanı səbəblərin qeyd olunmasına ehtiyac duyulmur. Hər iki tərəfin razılığı kifayət edir. Ərizə məhkəməyə verildikdən sonra "ayrılıq dövrü" -8 aydan 3 ilədək uzanan dövr başlanır. Bu müddət ərzində cütlük boşanma üçün verdikləri ərizənin mahiyyətini anlamalıdır. Almaniyanın ailə hüququ ana və uşaqların marağına xidmət edir. Uşaqların maraqlarının tanınmasına 4 yaşdan başlanır. Bir qayda olaraq uşaqların ana ilə qalmasına üstünlük verilir. Alkoqola və narkomaniyaya aludə olan valideynlərin işinə tez baxılır. Orada hər üç nikahdan biri pozulur.

Almaniyada hər il 180-200 min boşanma baş verir. Əhalinin 1000 nəfərinə nisbətdə 2,2 və ya 2,5% edir.

Sonda demək istərdik ki, xoşbəxt ailə qarşılıqlı dostluğun istedadı üzərində qərar tutur. O kökü dərinlikdə olan, kövrək budaqları ilə cəmiyyət üçün şirin bar verən bir ağaca bənzər. Ağac dövlətin himayəsində olsa da ona qulluq etmək valideynlərin konstitusion borcudur. Bunun mənasını anlasaq və səbirli olsaq ağrı-acıları unudar, tikilən doğma, əziz və isti yuvanı da qoruya bilərik.



# Bakı məktəbliləri beynəlxalq rəqs çempionatında

Paytaxt məktəbliləri milli rəqslər üzrə Avropa çempionatında iştirak edib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinin şagirdləri Rusiyanın Moskva şəhərində 53 ölkədən 5 mindən artıq rəqqasın iştirak etdiyi yarışın nəticələrinə görə ilk beşlikdə qərarlaşıb.

Çempionatda 145 nömrəli tam orta məktəbin şagirdi Emilya Məmmədova və 236 nömrəli tam orta məktəbin şagirdi Zəhra Quliyeva qrup tərkibində etdikləri rəqsə görə II yerə layiq görülüblər. Həmçinin, Zəhra Quliyeva fərdi proqramda da uğurla çıxış edib.

Yarışda duet rəqslər üzrə 283 nömrəli tam orta məktəbin şagirdi Ayla Güləlizadə II, 160 nömrəli Klassik Gimnaziyanın şagirdi Nərgiz Məmmədova III yerə sahib olub. Klassik Gimnaziyanın digər şagirdi Nuray Hüseynli isə fərdi çıxışına görə II yerə layiq görülüb.

Çempionatda, həmçinin, Klassik Gimnaziyanın şagirdləri Nərgiz Məmmədova ilə Nuray Hüseynli, eləcə də 1 nömrəli tam orta məktəbin şagirdi Fidan Əzizova, 157 nömrəli tam orta məktəbin şagirdi Aysu Nəsirli, 164 nömrəli tam orta məktəbin şagirdi Aylin Əliyeva, 189-190 nömrəli tam orta məktəbin şagirdi Xədicə İsrafilova, 20 nömrəli məktəb-liseyin şagirdləri Selin Hüseynli ilə Aylin Hüseynli qrup rəqsləri üzrə V yeri tutublar.

Qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıb.

# Müəllimlər arasında idman yarışları

Paytaxt məktəblərinin müəllimləri arasında idmanın voleybol, şahmat, dama, mini-futbol və stolüstü tennis növləri üzrə yarışlar keçirilir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışların əsas məqsədi müəllimlərin asudə vaxtlarının səmərəli təşkili və sağlam həyat tərzinin təbliğindən ibarətdir. Eyni zamanda, 2018-ci ilin iyul ayında Bolqarıstanda müəllimlərin VII beynəlxalq idman yarışlarında iştirak edəcək komandaların müəyyən edilməsi də bu yarışların hədəfləri sırasındadır.

Yarışlar iki mərhələdən ibarətdir. Bakı şəhərinin rayonlarında ümumi təhsil müəssisələrinin komandaları arasında keçirilən I mərhələ aprelin 10-da başa çatıb. I mərhələdə hər rayon üzrə qalib gələn komandalar 15-25 aprel tarixlərində keçiriləcək II mərhələdə iştirak etmək hüququ qazanıblar. Yarışların II mərhələsində Bakı Şəhəri üzrə Təhsil İdarəsi əməkdaşlarından ibarət komandaların da təmsil olunması nəzərdə tutulur.

Qaliblər diplom və hədiyyələrlə təltif olunacaqlar.

# Hər kəs idmançı, şahmatçı olmaq arzusundadır

## 11 nömrəli Uşaq-Gənclər İdman Məktəbi fəaliyyətini bu istiqamətdə qurur



**Əlövsət ƏLİYEV,**
*11 nömrəli UGİM-in direktor müavini*

"Təhsil" Respublika İdman Mərkəzi 11 nömrəli Uşaq-Gənclər İdman Məktəbi Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən 02.08.2017-ci il tarixində təşkil olunub və fəaliyyətə başlayıb.

Məktəb Bakı şəhəri Qaradağ rayonu Sahil qəsəbəsində yerləşir. Məktəbdə 681 idmançı-şagird, 34 məşqçi-müəllim, 21 texniki işçi fəaliyyət göstərir. Şahmat, stolüstü tennis və boks idman növlərinin əsas yer tutduğu məktəbdə mütəmadi olaraq yarış və turnirlər təşkil olunur. Nəticə əldə edən idmançılar diplom, medal və hədiyyələrlə təltif edilirlər.

Şahmat bölməsində 44 qrupda 18 məşqçi-müəllim, 573 nəfər idmançı-şagird, boks bölməsində 5 qrupda 3 məşqçi-müəllim, 58 idmançı-şagird, stolüstü tennis bölməsində isə 5 qrupda 4 məşqçi-müəllim, 60 idmançı-şagird təmsil olunur.

Eyni zamanda məktəbdə lazımi şəraitin olduğunu nəzərə alaraq yeni idman növlərinin açılması üçün müvafiq işlər görülür. Qəsəbə sakinlərinin, eləcə də uşaqların hansı idman növünə üstünlük vermələri, maraq dairələri öyrənilir. Qəsəbədə mövcud olan orta ümumtəhsil məktəblərinin şagirdlərini idmana cəlb etmək üçün lazımi təbliğat işləri aparılır. Məktəbdə tədris prosesi Uşaq-Gənclər İdman Məktəblərinin əsasnaməsinə uyğun qurulur. Uşaqların dərsə davamiyyəti təşkil olunmuş qrupların, eyni zamanda məşqçi-müəllimlərin, o cümlədən digər işçilərin fəaliyyəti gündəlik olaraq nəzarətdə saxlanılır. Şagirdlərin məşqə mütəmadi gəlməsi üçün müxtəlif həvəsləndirici üsullar tətbiq olunur, nizam-intizam qaydalarına ciddi əməl olunaraq dərsə davamiyyətdə yüksək nəticə əldə edilir.

Qrupların komplektləşdirilməsi tez bir zamanda uğurla həyata keçirilir. Məktəbdə ilboyu təqvim planına əsasən kütləvi tədbirlər nəzərdə tutulub.

Məktəbin təqvim planına uyğun 15 sentyabr "Bilik Günü"nə həsr olunmuş IV dərəcə uğrunda məktəbdaxili dairəvi sistem üzrə şahmat təsnifat turniri keçirilib, turnirin qalibləri mükafatlandırılıb.

20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr edilmiş müəllimlər arasında şahmat turniri, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və "Yeni il" münasibəti ilə əlaqədar şahmat üzrə III və IV dərəcə uğrunda İsveçrə sistemi üzrə təsnifat turniri keçirilib. Turnirdə 163 şagird iştirak etmiş və 27 idmançı-şagird mükafata layiq görülərək diplom, medal və digər qiymətli hədiyyələrlə təltif olunub.

Məktəbə mütəmadi olaraq yüksək ixtisaslı şahmatçı mütəxəssislər dəvət edilir, müəllimlərlə seminar məşğələlər təşkil olunur. Məktəb rəhbərliyinin qısa zaman kəsiyində səmərəli fəaliyyəti sayəsində görülmüş işlərin nəticəsi olaraq artıq Qaradağ rayon Sahil qəsəbəsində hər kəs idmançı, şahmatçı olmaq arzusundadır.

Məktəbdə mütəmadi olaraq şagirdlər arasında tərbiyə və təbliğat işləri sistemli şəkildə aparılır. Şagirdlərin nəzəri bilikləri və praktik bacarıqlarının üzə çıxarılması ətrafında lazımi tədbirlər görülür. Eləcə də şagirdlərə ümummilli liderimiz Heydər Əliyev və onun siyasi kursu ilə bağlı ətraflı məlumatlar verilir. Hal-hazırda ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin, eləcə də Birinci vitse-prezident xanım Mehriban Əliyevanın idmana göstərdiyi diqqət və qayğısı nəticəsində əldə olunmuş nailiyyətlərlə şagirdlər məlumatlandırılırlar. Dövlət siyasətinə uyğun olaraq müəssisəmizdə uşaqların asudə vaxtının səmərəli təşkil olunması və onların gələcəkdə yüksək dərəcəli idmançı, eyni zamanda cəmiyyətimiz üçün faydalı övlad olmaları istiqamətində lazımi işlər aparılır.

# Pedaqoji mətbuatın cəfakeşi

**Yusif ƏLİYEV,**
*Əməkdar jurnalist*

"Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalının baş redaktoru Məhəmməd Baharlı uzun müddət ayrı-ayrı mətbuat orqanlarında müxbirlikdən baş redaktorluğadək ən müxtəlif vəzifələrdə işləmiş, qələmini jurnalistikanın bütün janrlarında, publisistikada, elmi-pedaqoji və bədii yaradıcılıqda eyni məharətlə işlətmiş, istedadı, həyat duyumu, fəaliyyəti, zəngin dünyagörüşü, dərin erudisiyası, gözütoxluğu, sənətinə sevgisi və sadiqliyi ilə örnək olası jurnalistlərdəndir. Onunla vaxtaşırı görüşürük. Bizi uzun illərin, mənim "Azərbaycan məktəbi" jurnalına gəldiyim 1976-cı ilin bir payız günündən başlanmış dostluq, həmkarlıq münasibətləri birləşdirir. Onda M. Baharlı həmin jurnalın məsul katibi idi. Biz birlikdə bir-iki illik fasilə ilə, təxminən, 10 il işlədik. Baxmayaraq ki, ondan cəmi 3 yaş kiçik idim, elə ilk gündən ona "müəllim" deyə müraciət etməyə başladım. Sonralar bir çoxlarının mətbuata gəlişində və imzasının tanınmasında böyük rolu olan Məhəmməd Baharlını jurnalistikada mən də özümün müəllimim hesab edirdim. O hələ cavanlığından bu sahənin peşəkarı kimi tanınırdı və bu, müəllif və mövzu seçimindən tutmuş materialın təqdiminə qədər bütün məsələlərdə özünü göstərirdi. Sonralar birlikdə, təxminən, 14 il də "Azərbaycan müəllimi"ndə işlədik. O, baş redaktor, baş redaktor müavini, mən şöbə redaktoru qismində. 2007-ci ildən yollarımız ayrıldı: o, indi işlədiyi jurnala getdi. İllərin keçməsinə baxmayaraq bizim münasibətlərimiz dəyişməyib. Məhəmməd müəllimi mən indi də özümün müəllimim hesab edirəm.

Məhəmməd Baharlı ilə son görüşümüzdə onun yaşlaşdığının fərqinə vardım. Öz yaşımla müqayisədən kəsdirdim ki, ustad artıq 70-i haqlayıb. Hərçənd ki, başı cavanlığından ağdır, amma anadan olduğu tarixi bilməyən adam ona bu yaşı verə bilməz. Gənc yaşlarından yüksək geyim zövqü, davranış mədəniyyəti ilə fərqlənən, həmişə şux görünməyi bacaran müəllimim indi də, necə deyərlər, öz ampulasındadır. Ona görə də yaşından cavan görünür. Əslində heç daxilən də M.Baharlı yaşı 70-ə çatanlara oxşamır. Ruhu çox cavandır. 60-70 yaş arasında yazdığı şeirləri mütaliə edəndə, hər hansı bir məclisdə onunla bir-iki saat birgə olanda bu qənaətin doğruluğuna şübhə qalmır.

Biz yaşa nisbətən cavan görünməyin, ümumiyyətlə, uzun illər yaşayıb gümrah qalmağın səbəblərini çox vaxt yeməklə, hava ilə, insanın özünə yaxşı baxması ilə əlaqələndiririk. Amma bunlardan heç də az əhəmiyyət kəsb etməyən bir mühüm amil də var. Bu, ustad şairimiz Şəhriyarın dediyi kimi, sevdiyin işlə məşğul olmaqdır. Ustad deyirdi ki:

*Könül verdiyin iş ucaldar səni,*
*Könül vermədiyin qocaldar səni.*

Məhəmməd Baharlı da könül verdiyi jurnalist sənətini çox sevir, bu sahədə çalışmasından həmişə fəxarət hissi duyurdu. Elə indi də bu sevgi və duyğu onu tərk etməyib.

Məhəmməd Baharlı jurnalistikamızda özünəməxsus yeri olan, pedaqoji mətbuatımıza bacardığı qədər töhfə verən pedaqoq jurnalistlərimizdəndir. Onun bioqrafiyasına elə ötəri bir baxış bunu təsdiqləyir.

Məhəmməd Baharlı 1948-ci il martın 12-də Zəngilan rayonunun Baharlı kəndində anadan olub. Burada orta məktəbi bitirdikdən sonra 1965-1969-cu illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb.

Əmək fəaliyyətinə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi kimi başlayıb. 1970-1971-ci illərdə ordu sıralarında xidmət edib. "Azərbaycan məktəbi" jurnalı redaksiyasında şöbə müdiri, məsul katib (1971-1985), "Kənd həyatı" jurnalı redaksiyasında məsul katib (1986-1988), "Azərbaycan məktəbi" jurnalı redaksiyasında məsul katib (1988-1989), "Gənclik" və "Molodost" jurnalları redaksiyasında məsul katib (1989-1992), "Təhsil" qəzetinin baş redaktoru (1992-1993) işləyib. 1993-cü ildən "Azərbaycan müəllimi" qəzetinin fəaliyyətini bərpa edərək 2002-ci ilədək onun baş redaktoru olub. 2002-2007-ci illərdə həmin qəzetdə baş redaktorun müavini kimi çalışıb. 2007-ci ildən Təhsil Nazirliyinin elmi-metodik jurnalı olan "Azərbaycan dili və ədəbiyyatı tədrisi"nin baş redaktorudur.

Əlbəttə. Məhəmməd müəllimin ömür və fəaliyyət yolu haqqında təqdim olunan daha çox rəqəmlərdən ibarət bu statistik məlumat özlüyündə onun mətbuatdakı xidmətlərini, pedaqoji jurnalistikaya verdiyi töhfələri tam əks etdirmir və yəqin ki, heç etdirə də bilməz. Olsa-olsa müəyyən təsəvvür yarada bilər. Buradan ancaq o görünür ki, Məhəmməd müəllim haralarda və nə qədər müddətdə işləyib. Amma necə işləyib, nələr edib, rəqəmlər bunu göstərməkdə acizdir. 70 illik ömrün hesabatı kimi isə əslində məhz bunları göstərmək gərəkdir. Və biz bu missiyanı qismən üzərimizə götürüb həmkarımızın yubileyinə diqqət çəkmək məqsədi ilə qələmə aldığımız bu yazıda onun fəaliyyətinin əsas istiqamətləri, yaradıcılıq xüsusiyyətləri, rəhbərlik üslubu haqqında bəzi qənaətlərimizi məhəmmədsevərlərlə paylaşmaq istədik.

Tərcümeyi-halından da göründüyü kimi, Məhəmməd Baharlı əmək fəaliyyətinə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında başlayıb. İlk kollektivin adamın sonrakı fəaliyyətinə güclü təsiri olur. O, adamın arzularına qol-qanad verə də bilir, onu ruhdan sala, bu sənəti, işi seçdiyi üçün peşiman edə də. 21 yaşlı Məhəmmədin bəxti gətirir. Qəzetdəki, qısa müddət də olsa, fəaliyyəti onun üçün uğurlu karyera başlanğıcı olur. Burada ilk təcrübə məktəbi keçir. O vaxt - ötən əsrin 70-ci illərində "Azərbaycan gəncləri" ölkənin nüfuzlu qəzetlərindən sayılırdı. Redaksiyada tanınmış, peşəkar jurnalistlər işləyirdilər və ora düşmək elə də asan deyildi. Ən əsası isə, 60-cı illərin oyanış, milli intibah nəsiminin qarşısını yenicə başlayan durğunluq dövrü hələ tam ala bilməmişdi. Mətbuatda, o cümlədən "Azərbaycan gəncləri"ndə cəsarətli, obyektiv yazılar dərc olunurdu. Problem məsələlər qaldırılıb həllinə, nöqsanlar işıqlandırılıb aradan qaldırılmasına nail olunurdu. Qəzetin çıxışlarına güclü reaksiya var idi. Və Məhəmməd müəllim bütün bunlardan, eləcə də redaksiyadakı yaradıcı mühitdən öz payını götürürdü.

İki il əsgərlikdən sonra gəldiyi "Azərbaycan məktəbi" jurnalında da fəaliyyət üçün geniş meydan var idi. Jurnala fənlər üzrə 7 əlavə-metodik məcmuələr nəşr olunurdu. Və enerjili, istedadlı gənc bu imkandan işlədiyi 14 il ərzində gen-bol istifadə etdi. M.Baharlının gəlişi ilə əməkdaşlarının əksəriyyəti yaşlılardan ibarət olan redaksiyaya bir gənclik abhavası gəldi, canlanma yarandı. Jurnalın aparıcı şöbələrindən birinə rəhbərlik edən gənc jurnalist qısa müddət ərzində pedaqoji sahə ilə yaxından tanış olub təhsilin müxtəlif aktual problemləri ilə bağlı təhlili yazılar yazmağa başladı.

Fikrimcə, Məhəmməd müəllimin yaradıcılığının ən məhsuldar dövrü məhz "Azərbaycan məktəbi"ndə işlədiyi illərdir. İndiyədək onun qələmindən çıxmış 4 mindən çox yazının əksəriyyəti məhz o illərdə yazılıb. Həmin illər üzrə jurnalın elə bir nömrəsini tapmaq olmaz ki, Məhəmməd müəllimin orada məqaləsi olmasın. M.Baharlı jurnalla yanaşı onun əlavələri olan metodik məcmuələrə də yazırdı. O, həm də "İbtidai məktəb və məktəbəqədər tərbiyə" elmi-metodik məcmuəsinin ədəbi redaktoru idi və məcmuələr arasında ən populyar və çoxtirajlı olan bu nəşrin oxucular tərəfindən sevilməsində onun da zəhmət payı az deyildi.

Məhəmməd Baharlının gəlişi ilə jurnalın tematikasında, məzmununda da xeyli dəyişikliklər baş vermişdi. O daim yeni-yeni maraqlı mövzular tapır, araşdırmalar aparır, bunların nəticələrini bir peşəkar jurnalist səriştəsi ilə oxuculara çatdırırdı. Yadımdadır, o dövrdə məktəbə rəhbərliklə bağlı elmi-pedaqoji ədəbiyyatdakı boşluğu görüb "Məktəbdə pedaqoji işə rəhbərlik" mövzusunda silsilə məqalələr yazaraq jurnalda dərc etdirmişdi. Sonralar həmin yazılar kitab şəklində 2 dəfə (1988 və 1999-cu illərdə) çap olundu. Həmin kitabın təkmilləşdirilmiş variantı bütövlükdə Məhəmməd müəllimin 4 cilddən ibarət "Seçilmiş əsərləri"nə də daxil edilib. Ümumiyyətlə, Məhəmməd müəllimin həmin dövrün məhsulu olan bir çox yazıları, xüsusən də "Azərbaycan tarixi - Baharlılar" tədqiqat əsəri, "155 yaşlı ilk əlifba dərsliyimiz - "Əlifbeyi-cəhdid", "Mirzə Fətəli Axundovun kötücəsi ilə söhbət", "Xalq şairi Süleyman Rüstəmlə qeyri-adi söhbət", "Bəxtiyar Vahabzadə məni niyə axtarırdı", "Sərhəd rayonunun uşaqları" və b. yazılar müasir publisistikamızın ən dəyərli nümunələri hesab oluna bilər. Onu da deyək ki, həmkarımızın "155 yaşlı ilk əlifba dərsliyimiz - "Əlifbeyi-cəhdid" adlı məqaləsi jurnalda dərc olunduğu vaxt əsl sensasiya yaratmış, onunla bağlı redaksiyada məktəb və pedaqogika tarixi mütəxəssislərinin iştirakı ilə müzakirə keçirilmişdi

"Gənclik" və "Molodost" jurnallarında işlədiyi, təxminən, 3 illik müddət də Məhəmməd müəllimin yaradıcılığında özünəməxsus izini qoyub. Bu illər milli oyanış dövrü idi və mətbuat bu hərəkatın önündə gedirdi. O dövrün məhsulu kimi meydana atılan "Gənclik"-"Molodost" isə özünün gənclik ruhu, azadlıq istəyi, cəsarətli mövqeyi ilə ilk cərgədə idi. M.Baharlı dövrün çağırışlarına cavab verən publisistik yazılarla "Gənclik"də müntəzəm çıxışlar edirdi.

"Gənclik", "Molodost" jurnallarından sonra Məhəmməd Baharlı qısa müddət ərzində "Təhsil" Cəmiyyətinin eyniadlı qəzetinin baş redaktoru oldu. Məhz onun jurnalistlik-publisistlik qabiliyyəti, dövrün hadisələrinə, ölkənin təhsil ictimaiyyətini narahat edən məsələlərə milli maraqlar prizmasından yanaşması, cəsarətli mövqe sərgiləməsi sayəsində adi bir qurum qəzeti respublika səviyyəli bir nəşrə çevrildi. Məhəmməd müəllim qəzetə yeni forma, məzmun gətirdi, onu təhsil işçilərinin odlu-alovlu tribunasına çevirdi.

"Azərbaycan müəllimi" qəzeti isə Məhəmməd Baharlının həyat və yaradıcılığında xüsusi bir mərhələ təşkil edir. 1993-cü ilin əvvəllərində Məhəmməd müəllim ona redaktor təyin olunanda böyük bir tarixi olan qəzet 8 ay idi ki, çıxmırdı. Nəşriyyata çoxlu borcu olduğundan nəşri dayandırılmışdı. O dövrdəki çətinlikləri təfərrüatı ilə yada salmağa ehtiyac duymuruq. Bu, demək olar ki, hamıya məlumdur. Təkcə onu qeyd edək ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlamışdı, ölkə vətəndaş müharibəsi qarşısında idi, büdcədən maliyyələşdirilən müəssisə və təşkilatların işçilərinin əməkhaqlarını verməyə belə vəsait yox idi. Belə bir dövrdə Məhəmməd müəllim qohumlarının ona etdikləri yardım hesabına qəzetin borclarını ödəyərək nəşrini bərpa etdi və beləliklə, qəzetə ikinci həyat bəxş etdi. Məhəmməd müəllim həm də qəzetə yeni nəfəs gətirdi. Yeni, cavan əməkdaşlar işə götürdü, təzə müəlliflər cəlb etdi, yeni-yeni rubrikalar açdı, dövrün çağırışlarına adekvat mövzular müəyyənləşdirilərək qəzetin səhifələrinə çıxarıldı, ölkədə başlanmaqda olan təhsil islahatlarına mətbu söz vasitəsilə dəstək verildi. Nəticədə qəzetin siması dəyişməyə, təhsilimizin həqiqi salnaməsinə çevrilməyə, tirajı qalxmağa başladı. Tirajın artması isə redaksiyaya daxil olan vəsaitin artması demək idi. Yadımdadır, Məhəmməd müəllim, təxminən, hər altı aydan bir maaşlarımızı artırır, bunu bizə elan etməkdən xüsusi zövq duyurdu.

Məhəmməd Baharlının rəhbərlik və idarəçilik təcrübəsində də müsbət mənada özünəməxsusluqlar çox idi və onlar indi işlədiyi redaksiyada da davam edir. Qapısı həmişə hamının üzünə açıq idi. Ümumiyyətlə, kabinetinin qapısını bağlamağı xoşlamırdı. Xüsusi qəbul günləri də yox idi. İstər əməkdaşlar, istərsə də müəlliflər, kim nə vaxt istəsə yanına gedib-gələ bilirdi. İşə hamıdan tez gəlir, hamıdan gec gedirdi. Səliqə-sahmanına da xüsusi fikir verirdi. Kabineti daim səliqəli idi. Qəzetin ümumi materialları, hazırlanan nömrənin yazıları üçün ayrıca qovluqları var idi stolunun üstündə. Oturmağı da sevmirdi. Nə vaxt baxsan ayaq üstə görərdin. İclas adına ancaq "letuçka", planlaşdırma olurdu. 1994-cü ildə qəzetin 60 illik yubileyi yüksək səviyyədə qeyd olundu.

Məhəmməd Baharlının həyat və yaradıcılığının son on ili hazırda işlədiyi "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı ilə bağlıdır. Məhəmməd müəllim bu illər ərzində jurnalı Azərbaycan dili və ədəbiyyat müəllimləri üçün tələb olunan, axtarılan faydalı bir vəsaitə çevirib. Jurnal indiki informasiya bolluğu şəraitində elmi-metodik bilik və bacarıqlarını artırmaq üçün müəllimlərə dəyərli materiallar təqdim edir.

Məhəmməd müəllim bədii yaradıcılıqla da peşəkar səviyyədə məşğul olur. Özünə şair deməsə də indiyədək incə rübablı qələmindən çıxan 1000-dən artıq şeiri dövri mətbuatda dərc olunub və bunlar ona şair demək üçün tam əsas verir. Şeirlərinin böyük əksəriyyəti məhəbbət mövzusundadır.

Güclü müşahidə qabiliyyətinə, dərin ümumiləşdirmə bacarığına, yumor hissinə malik Məhəmməd Baharlının yaradıcılığında yumorlar da böyük yer tutur. Əsasən ötən əsrin 70-90-cı illərində qələmə alınmış bu bədii söz nümunələri, eləcə də Məhəmməd müəllimin müxtəlif vaxtlarda yazdığı povest və hekayələr, siyasi felyetonlar hələ ötən yüzilliyin sonlarında müəllifini kamil bir yazar kimi tanıtmışdır. Yumorların tənqid hədəfləri cəmiyyətdəki çatışmazlıqlardır. Yumorlar və hekayələrinin cəlbediciliyi, gözəlliyi ondadır ki, onlarda hadisələr dialoqlar vasitəsilə təsvirlənir.

Məhəmməd müəllim uzaqgörən və kitabın dəyərini bilən insandır. Ona görə də elmi-pedaqoji, publisist və bədii yaradıcılığının xeyli nümunəsini kitablaşdırıb. Həmkarımızın jurnalistikamıza töhfələri haqqında təsəvvürü genişləndirdiyi üçün onların adlarını təqdim etməyi məqsədəuyğun sayırıq:

"Dərs müasirlik tələb edir" (Bakı, "Maarif", 1981), "Gəlin gülək" (Bakı, "Yazıçı", 1985), "Həyat işığı" (Bakı, "Gənclik", 1988), "Məktəbdə pedaqoji işə rəhbərlik" (Bakı, "Təhsil", 1999), "Dünya təhsil sistemi: dünən, bu gün, sabah" (Bakı, "Azərbaycan", 2002), "Qoca türkün şərqiləri (150 şeir)" (Bakı, "Mars", 2003), "Azərbaycan tarixi: Baharlılar" (Bakı, "Adiloğlu", 2010). Bunlarla yanaşı M.Baharlı özünün "Seçilmiş əsərləri"ni də 2012-ci ildə çapdan buraxıb. 4 cilddən ibarət "Seçilmiş əsərləri"nin hər cildində yaradıcılığının bir istiqamətinə aid ("Publisistika","Poeziya", "Proza" və "Pedaqogika") seçilən əsərləri toplanıb.

Həyat və yaradıcılığı haqqında müxtəsər şəkildə açdığımız sözdən də görünür ki, M.Baharlı 70 illik yubileyinə əliboş gəlməyib. Bu yaşın hər bir ili isə sənətinə, işinə, pedaqoji mətbuatımıza sevgi ilə yaşanıb.

Məhəmməd müəllimi yubileyi münasibəti ilə təbrik edir, bundan sonra da cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

## Məhəmməd Baharlı - 70



Əbədi tələbələr

# 25 illik sirr

## Azərbaycan Dövlət İqtisad Universitetinin əbədi tələbəsi Baxış Hüseynov

**Vüsalə MƏMMƏDOVA**












Lent.az "Əbədi tələbələr" layihəsini davam etdirir. Bu dəfə Azərbaycan Dövlət İqtisad Universitetinin əbədi tələbəsi Baxış Hüseynovun doğmalarının, dostlarının yaddaşındakı xatirələri bir araya toplamışıq...

Amma öncə öz yaddaşıma həkk olunan bir məqamı qeyd edəcəyəm. Təxminən bir il öncə idi. Baxışın anası **Diləfruz xanım** oğlunun universitetin arxivində qorunan şəxsi işini vərəqləyib, onun öz xətti ilə yazdığı cümlələrə, həll etdiyi tənliklərə sükutla sığal çəkəndə mən rəssam olmağı həyatda hər şeydən çox istəmişdim... Onun hərflərə, rəqəmlərə çəkdiyi sığalın rəsmini çizmək üçün... Bilmirəm, gözüm önündə canlanan bu rəsm dünyadakı savaşları durdurardı, yoxsa qadınlar ana olmaqdan imtina edərdi... Amma bu, mənim həyatda gördüyüm və heç unutmadığım ən kədərli mənzərələrdən biri idi...

Onun bu sözləri də yaddaşıma güllə kimi sancıldı:

- Qızım, mən onu iki gün gözlədim... Bax, onda inandım ki, dünyada cənnət də, cəhənnəm də var... *(Ağlayır...)* Məndən gizlətdilər... Balam harasından yaralanıb, necə həlak olub, demədilər...

Onu torpağa tapşırdığımız gecə evdə hamının yatmasını gözlədim... Gecə yarısı... hamının yatdığından əmin olandan sonra gizlicə həyətə çıxıb, balamın qanlı paltarları basdırılan yeri tapıb, qazdım... Övladımın bir neçə gün öncə əlimlə geydirdiyim maykasını çıxartdım... Sonuncu döyüşündən bir neçə gün əvvəl evə gəlmişdi, paltarlarını yuyub təmizləyib, təzə mayka geydirmişdim... Həmin mayka idi... bircə... bircə sinəsi yox idi... Bildim ki, balamı ürəyindən vurublar... Baxışımın qoxusu hopan, qanı qarışan maykanı o vaxtdan qoruyub saxlayıram... Son günümə qədər də saxlayacağam...

O vaxtdan 25 il keçib... İndi mən onlu xatirələri bir araya toplamaq üçün Baxış Hüseynovdan qalan əşyalarla tanış olanda ilk diqqətimi çəkən 20 Yanvar şəhidləri haqqında hazırlanan buklet oldu... Hadisə vaxtı Baxış məktəbin sonuncu sinfində oxuyurmuş... Elə bu bukletin izi ilə də yola çıxıb onu **ən yaxın dostu, sinif yoldaşı Nurəddin Neciyevin** dilindən dinləyirəm:

- Sinifdə 29 uşaq idik... Sinif nümayəndəmiz Baxış həm də ən yaxşı oxuyanımız idi. Onun qarşısında çox işıqlı gələcək var idi. Çünki savadı və bacarığı ilə bütün sinifdən seçilirdi... Hamımıza nümunə idi... Kimin ağlına gələrdi ki, bu qədər həyat dolu bir insan cəmi iyirmi il ömür yaşayacaq? Məktəbi bitirən ili Baxış ali məktəbə qəbul olundu... Belə də gözləyirdik, çünki tək sinfin yox, məktəbin əlaçısı idi... Amma təhsilini yarımçıq qoyub, döyüşə yollandı... Nə deyim... Mən onunla bağlı ancaq gözəl günlərimi xatırlayıram, çünki Baxışla birlikdə uşaqlığımızın xoş, qayğısız, unudulmaz günlərini yaşamışıq... Sonra isə yaddaşımda çox qısa-qısa xatirələrim var... Çünki arada bir neçə günlük evlərinə gələndə görüşürdük... Çox vətənpərvər, igid oğlan idi. İştirak etdiyi döyüşlərdən elə şövqlə, ümidlə danışırdı ki... Sonuncu görüşümüz yadımdadır... Söhbət etdik, dedim qardaş, bir-iki gün də qal, dedi, yox, Nurəddin, ürəyim ordadır, getməliyəm...

Nurəddin "Baxışın məktəbdən sonrakı həyatı haqda sinif yoldaşımız Nazim daha ətraflı danışa bilər, cəbhəyə birlikdə getmişdilər", - deyir. **Nazim Ərəbov** isə xatirələrini bir döyüşçü dəqiqliyi ilə gününə, ayına, ilinə qədər danışır:

- 1980-ci ildə 1-ci sinfə getdik... 1990-cı ildə məktəbi bitirdik... Baxış bütün fənləri yaxşı oxuyurdu, rus, alman dillərində sərbəst danışırdı, amma riyaziyyat sahəsində fitri istedadı var idi. Atası, böyük qardaşı Azərbaycan Dövlət İqtisad Universitetini bitirmişdilər, anası mühasib idi, Baxış da mühasib olmaq istəyirdi... Ancaq müharibə o illərin çox gənci kimi Baxışın da arzusunu yarımçıq qoydu... 1992-ci il mayın 4-də biz Milli Ordunun ilk əsgərləri kimi birlikdə döyüşə yollandıq... Sinif yoldaşından döyüş yoldaşına çevrildik... Baxış necə ki, sinfin ən yaxşı şagirdi idi, şəhid olduğu günə kimi də batalyonun ən nümunəvi əsgəri oldu...

**Beyləqanın Şərq kənd tam orta məktəbinin müəllimi Ülkər Mirzəliyeva** isə tək onu yox, bütün şəhid şagirdlərini xatırlayır:

- Uzun illər kənd məktəbində ədəbiyyat dərsi demişəm. Yüzlərlə məzunumuz olub, ancaq o oğulların... ömrü yarıda qırılmış o balaların üzünü bu gün də unutmuram... Neçə-neçə məzunumuz şəhid oldu... İndi o illəri yenidən xatırlayıram... Kəndimizin müəllimləri üçün bu əsl dəhşət idi... Təsəvvür edin, körpəliyindən əlindən tutub yazmağı öyrətdiyimiz uşaqlar cəmi bir neçə ildən sonra bizi qorumaq üçün döyüşə yollandılar... Onlar müharibəyə gedəndə də hələ bizim üçün uşaq idilər... Amma... amma kəndimizə tabutlarına sığmayan balalar kimi qayıtdılar...

**Onu torpağa tapşırdığımız gecə evdə hamının yatmasını gözlədim... Gecə yarısı... hamının yatdığından əmin olandan sonra gizlicə həyətə çıxıb, balamın qanlı paltarları basdırılan yeri tapıb, qazdım... Övladımın bir neçə gün öncə əlimlə geydirdiyim maykasını çıxartdım... Sonuncu döyüşündən bir neçə gün əvvəl evə gəlmişdi, paltarlarını yuyub təmizləyib, təzə mayka geydirmişdim... Həmin mayka idi... bircə... bircə sinəsi yox idi... Bildim ki, balamı ürəyindən vurublar...**

...Baxış da onlardan biri idi. İftixar hiss ilə deyirəm ki, bütün məktəbin əzizi olan Baxış çox şərəfli ömür yaşadı. Şagird kimi bütün müəllimlərin sevimlisi idi. Özünəməxsus xarakteri ilə bütün yoldaşlarından seçilirdi. Onu həmişə səliqəli məktəb formasında görməyə alışmışdıq, sonra Bakıya oxumağa getdi, bir də gördük əsgər formasında kəndə qayıdıb... Yaraşırdı... Şux qaməti, gözəl siması, elmə açıq zəkası və ağıllı baxışları var idi... Bu gün kəndimizin girişində şəhidlərin xatirəsinə ucaldılan lövhədə o yenə də ağıllı baxışları ilə gələnləri salamlayır... Və bu, həmişə də belə olacaq... Bir gün biz dünyada olmayanda da Baxış ağıllı baxışları ilə kəndin girişində hər kəsi salamlayacaq... Bizi son mənzilə yola salacaq...

Baxış altı uşaqlı ailənin beşinci övladı olub. Kiçik bacısı dünyaya gələnə qədər, on il ərzində hamı ona sonbeşik kimi yanaşıb, əzizləyib. Baxış sevgi içində böyüyüb. Atası müharibədən qayıtmayan atasının adını verib ona - Baxış... Adı ilə bir yerdə taleyini də verdiyinin fərqində olmadan...

Baxışın **bacısı Afət xanım** onu belə xatırlayır:

- Çox cılız, cansız bir uşaq idi... Məktəb şəkillərinə fikir verin, uşaqların çoxundan balacadır... Sonra qəfil boy atdı... Düz qamətli, yaraşıqlı, alagözlü oğlan idi və görkəmi ilə diqqəti cəlb edirdi... Daxili aləmi də çox zəngin idi, kəndimizin kitabxanasında oxumadığı kitab qalmamışdı... Dostluq etməyi bacarırdı, sinif yoldaşları ilə çox mehriban idi... Hətta Nurəddinlə o qədər yaxın idi ki, indi hərdən düşünürəm yəqin Baxış bizə demədiyi sözləri onunla bölüşüb... Yəqin Nurəddin Baxış haqqında bizdən çox bilir...

Qəribə idi, məndən yeddi yaş kiçik olsa da onun yanında özümü çox rahat, arxayın hiss edirdim. Bilirdim ki, nə baş versə, Baxış həll yolunu tapacaq... Sonralar o, dünyadan köçəndən sonra bildim ki, Baxış bu güvən hissini tək mənə yox, bütün ətrafına verirmiş. Rəhmətə gedəndə onu tanıyanlar, dostları, kənd camaatı deyirdi ki, sanki iyirmi yaşlı oğulu deyil, qırx yaşlı bir kişini itirdik... O, hər kəsin xatirəsində belə qalmışdı...

Baxışın həyat eşqi çox güclü idi... Çox zəhmli baxışları var idi... Ciddi, amma yaxınlaşıb danışanda çox zarafatcıl idi... Sinif yoldaşları ilə daima zarafat edir, onlara gülməli şeirlər həsr edirdi... Yumor hissi çox güclü idi və istedadlı zarafatları olurdu... Bəlkə elə buna görədir ki, onu üzümdə təbəssümlə xatırlayıram...

Universiteti bitirib kəndimizə yeni qayıtmışdım. Məktəbdə alman dilindən dərs deyir, Baxışgilin müəllimləri xəstələnəndə onu mən əvəz edirdim. Bir dəfə soruşdu ki, bacı, elə bilirsən uşaqlar dərsdə sənə görə sakit otururlar? Dedim, bəs necə? Cavab verdi ki, yox, mənə görə sənə hörmət edirlər...! *(Gülür...)* Bax, Baxışı düşünəndə xatirələri onun yoxluğunu unutdurur və üzüm gülür... Özüm güləndə onun gülüşünü də xatırlayıram... Soğan oğlan Çippolinoya necə gülürdü, o yadıma düşür... Sevinirəm, elə bilirəm yanımdadır, indi əlindən tutacam. Sonra anlayıram ki, Baxış artıq 25 ildir yoxdur...

**Könül bacısı** da Baxışı təbəssümü ilə xatırlayır:

- Qardaşım çox zarafatcıl, həyat dolu insan idi. Onu ancaq üzündə təbəssümü ilə xatırlayıram... Tələbə olmaq ən böyük arzularından biri idi, ancaq bu sevinci sonuna qədər yaşaya bilmədi. "Müharibə qurtarandan sonra oxuyaram. İndi əsas məsələ odur ki, torpaqlarımızı düşməndən qoruyaq. Əgər torpaqlarımızı qoruya bilməyəcəyiksə, onda bizim oxumağımızın, ali təhsil almağımızın nə mənası var" deyirdi... İl yarım ən ağır döyüşlərdə iştirak etdi... Odun, alovun içindən bir neçə saatlığa vaxt tapıb evimizə gələndə də öz zarafatlarından qalmır, mütləq nəsə bir söz deyib üzümüzü güldürürdü... Onunla birlikdə bizim həyatımızdan o sevinc, o gülüş də getdi...

**Ailənin sonbeşiyi Aynur:**

- Baxışla 11 yaş fərqimiz var idi. Mənə qədər evin kiçiyi o olmuşdu, ailənin bütün sevgisini, xüsusi diqqətini görmüşdü. Həmin sevgi və qayğını da daima mənə göstərirdi... Bu gün kimi xatırlayıram, valideynlərim işdə, bacı-qardaşım məktəbdə olanda saçlarımı Baxış darayıb, hörərdi ki, səliqəsiz, baxımsız uşaq kimi görünməyim... 25 il keçib, amma onun sığalını bu gün də saçlarımda hiss edirəm...

*- Əsgər Baxışı necə xatırlayırsınız?*

**Könül:** Çox qorxmaz, cəsur insan idi. Arada imkan edib evə gələndə də döyüşdən danışmaz, daha çox şən əhvalda görünməyə cəhd edər, ürəyimizi sevindirməyə çalışardı. Onun döyüşdə etdiyi qəhrəmanlıqları ancaq cəbhə dostlarından eşidib öyrənərdik... Biz döyüşlər haqda soruşanda narahatlığını büruzə verir, "axı niyə biz torpaqlarımızı itirməliyik", deyirdi... Bir neçə günlük məzuniyyətində kənddə camaatın sakit həyatına davam etməsinə əsəbiləşirdi. Deyirdi, "bu saat bütün ölkə bu barədə düşünməlidir ki, biz torpağımızı itiririk...".

Söhbətimizə **böyük bacısı Məhruzə** xanım qoşulur:

- Baxış Xocavənd rayonu ərazisində Ağburun yüksəkliyində xidmət edirdi. Bir dəfə möhkəm atışma oldu. Səs bizim kəndə qədər gəlirdi... Bilirdik ki, atəş o olan istiqamətdədir... O döyüşdən sonra Baxışı bir günlük evə buraxmışdılar, onu sağ-salamat görməyimizə elə sevindik ki... O isə çox qayğılı idi. Heç unutmuram, dedi ki, "bacı, bilirsən, Ağburun alınsa, Beyləqan da gedəcək...".

Baxış məndən 9 yaş kiçik idi... Biz böyüdük, yaşa dolduq... O isə elə 20 yaşında qaldı... Düz 25 ildir ki, onunla bağlı qəlbimdə ancaq Ramiz Rövşənin bu misraları səslənir:

*Mən elə bilirdim sənsiz ölərəm,*
*Mən sənsiz ölmədim,*
*məni bağışla...*

Ölmədik... Böyük qardaşımız Azər də avtomobil qəzasında həlak oldu... Bu gün ailəmizdən kənddə qalan yalnız mənəm... İndi onun gəzdiyi yollarda, cığırlarda dolaşıram... Bilirsiniz, mən bu torpaq üzərində hələ də Baxışın mətin addımlarını hiss edirəm. Bəzən mənə elə gəlir ki, mən Baxışın ayaq izləri ilə yeriyirəm... Tək təsəllim odur ki, qardaşımın ölümü ən şərəfli ölümdür... O, canını vətən üçün, torpaq üçün fəda edib. Anam da, biz də Baxışla qürur duyuruq!

Və... Baxışın son döyüşü haqqında **sinif və silah yoldaşı Nazim** danışır:

- 23 sentyabr 1993-cü il... Biz öz mövqeyimizdə 8 nəfər idik... Tank səsini qəfil eşitdik... Komandir İsim Tapdıqov, mən və başqa bir əsgər səs gələn tərəfə getdik... Komandir digər uşaqları Baxışa tapşırdı... Biz təpəyə qalxanda mühasirəyə düşdük... Onda Baxış döyüşə atılıb, atəş açdı... Böyük məharətlə bizi mühasirədən çıxartdı... Özü isə... özü isə son damla qanına qədər döyüşdü... Gözümüzün qarşısında qəhrəmanlıqla həlak oldu...

Və sonda yenə **Diləfruz xanımla** söhbət edirik...

- Əvvəlcə dəqiq bir söz demədilər... İki gün axtardılar... Sən demə, ermənilər şəhidlərin nəşlərinin döyüş meydanından çıxarılmasına imkan vermirmiş... Balam iki gün, iki gecə çöldə qaldı... İki gündən sonra, sentyabrın 25-də tapıb gətirdilər, sevindim... Bir gecə qaldı, səhər apardılar... Mən elə bilirdim artıq balam evinə gəlib... Sağ-salamatdır... Amma dəfn etməyə aparırdılar... Rayonun "Şəhidlər Xiyabanı"nda dəfn etdilər, özüm də getdim... Qızım, inan ki, istəyirdim yorğan-döşək aparıb gecələri balamın yanında yatam... İyirmi yaşlı oğulu soyuq torpağın altında qoyub, gəlib isti yorğan-döşəkdə necə yatmaq olar axı...?

Bax, həmin gecə... balamı torpağa tapşırdığımız gecə axtarıb tapdım onun paltarlarını... Onda bildim ki, balam sinəsindən yaralanıbmış... Tək Baxış yox, mən də... Biz ikimiz də yaranı ürəyimizdən almışıq... Qızım, mənim ürəyimdə düz 25 illik Baxış adlı yara var... 20 yaşlı oğul bilirsən nə deməkdir...? Nə arzularla böyüt, tələbə adını qazanan kimi döyüşə yollansın... Sinəmdə 25 ildir məni yandıran bu yara ancaq torpaqlarımız işğaldan azad olunandan sonra sağalacaq...

Əgər mən o günü görməsəm, siz, qızlarım getsin o torpaqlara və mən onda dünyada olmasam da bunu hiss edəcəm. Bax, o zaman ürəyimdəki nakam oğul yarası sağalacaq... Biləcəyəm ki, Baxışımın uğrunda həlak olduğu torpaq artıq erməni tapdağı altında deyil...

***

*...Bu, 20 yaşlı bir gənc haqqında yaddaşlarda qalan xatirələr idi... Əgər sizin də ailənizdə, yaxınlarınızda təhsilini yarımçıq qoyub könüllü döyüşə yollanan və şəhid olan varsa, redaksiyamızla əlaqə saxlayın. Gəlin onların hekayəsini birlikdə yazaq...*

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

Aşağıdakı boş olan vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Dekan vəzifəsini tutmaq üçün**

*1. İqtisad*

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

*1. Botanika*
*2. Ümumi tarix*
*3. İngilis dili və tərcümə*

**Kafedralarda boş olan vəzifələri tutmaq üçün**

| | | |
|---|---|---|
| *1. Arxiv işi, muzeyşünaslıq və abidələrin qorunması* | - dosent | - 1 yer (0,5 şt); |
| | - dosent | - 2 yer; |
| *2. Dünya iqtisadiyyatı və menecment* | - müəllim | - 1 yer; |
| | - dosent | - 1 yer; |
| *3. Əczaçılıq və stomotologiya* | - müəllim | - 3 yer; |
| | - baş müəllim | - 2 yer (0,5 şt); |
| *4. Azərbaycan ədəbiyyatı* | - professor | - 1 yer (0,5 şt); |
| | - dosent | - 2 yer; |
| *5. Jurnalistika və dünya ədəbiyyatı* | - dosent | - 1 yer; |
| *6. Pedaqogika və psixologiya* | - dosent | - 1 yer (0,5 şt); |
| | - dosent | - 3 yer; |
| | - baş müəllim | - 1 yer (0,5 şt); |
| *7. Bədən tərbiyəsi və idman* | - baş müəllim | - 1 yer; |
| *8. Fiziki tərbiyə və idman oyunları* | - professor | - 1 yer; |
| | - baş müəllim | - 2 yer; |
| *9. Musiqişünaslıq və metodika* | - baş müəllim | - 1 yer; |
| | - müəllim | - 1 yer; |
| | - professor | - 1 yer; |
| *10. Memarlıq* | - dosent | - 1 yer (0,5 şt); |
| | - dosent | - 1 yer; |
| | - baş müəllim | - 1 yer; |
| | - müəllim | - 1 yer (0,5 şt); |
| | - müəllim | - 1 yer; |
| *11. Musiqi təlimi* | - baş müəllim | - 3 yer; |
| | - müəllim | - 2 yer; |
| | - müəllim | - 1 yer (0,5 şt); |
| *12. Botanika* | - dosent | - 1 yer (0,5 şt); |
| | - dosent | - 2 yer; |
| | - müəllim | - 1 yer; |
| *13. Şərq dilləri və ədəbiyyatı* | - baş müəllim | - 1 yer; |
| *14. İqtisadiyyat* | - professor | - 1 yer (0,5 şt); |
| | - müəllim | - 1 yer; |
| *15. Riyazi analiz* | - dosent | - 1 yer; |
| | - baş müəllim | - 1 yer; |
| *16. Təsviri incəsənət* | - professor | - 1 yer (0,5 şt); |
| | - dosent | - 2 yer; |
| | - müəllim | - 1 yer; |
| *17. Baytarlıq təbabəti* | - professor | - 1 yer (0,5 şt); |
| | - dosent | - 1 yer; |
| | - dosent | - 1 yer (0,5 şt); |
| | - baş müəllim | - 1 yer; |
| *18. İngilis dili və tərcümə* | - dosent | - 1 yer (0,5 şt); |
| | - dosent | - 1 yer; |
| | - müəllim | - 3 yer; |
| *19. Orkestr alətləri və dirijorluq* | - baş müəllim | - 4 yer; |
| *20. Fortepiano* | - baş müəllim | - 4 yer; |
| | - müəllim | - 1 yer (0,5 şt); |
| | - professor | - 2 yer; |
| *21. Kimya* | - dosent | - 3 yer; |
| *22. Mühasibat uçotu və maliyyə* | - professor | - 2 yer; |
| | - dosent | - 1 yer; |
| *23. Azərbaycan dilçiliyi* | - dosent | - 1 yer; |
| *24. Ümumi və nəzəri fizika* | - dosent | - 2 yer; |
| *25. Ümumi tarix* | - dosent | - 1 yer; |
| | - müəllim | - 1 yer (0,5 şt); |
| *26. Azərbaycan tarixi* | - dosent | - 1 yer (0,5şt); |
| *27. Xalq çalğı alətləri* | - dosent | - 2 yer; |
| | - müəllim | - 1 yer (0,5 şt); |
| | - müəllim | - 1 yer; |
| *28. Hüquq fənləri* | - müəllim | - 2 yer; |
| | - baş müəllim | - 1 yer; |
| *29. Bələdiyyə və turizm* | - müəllim | - 1 yer; |
| *30. Zoologiya* | - dosent | - 1 yer; |
| | - baş müəllim | - 1 yer (0,5 şt); |
| *31. Tibbi klinik fənlər* | - müəllim | - 2 yer (0,5 şt); |
| *32. Ümumi təbabət və gigiyena* | - müəllim | - 1 yer (0,5 şt); |
| *33. Beynəlxalq münasibətlər* | - müəllim | - 1 yer (0,5 şt); |
| *34. İngilis dili və metodika* | - müəllim | - 1 yer; |
| | - baş müəllim | - 1 yer; |
| *35. Meliorasiya və STTM* | - müəllim | - 1 yer; |
| *36. İnformatika* | - baş müəllim | - 2 yer; |
| *37. Fəlsəfə və sosial iş* | - dosent | - 1yer; |
| *38. Teatr və mədəniyyətşünaslıq* | - müəllim | - 1 yer; |
| *39. Bəstəkarlıq* | - dosent | - 1 yer; |
| *40. Çağırışaqədərki hazırlıq və mülki müdafiə* | - baş müəllim | - 1 yer; |
| *41. Rabitə və informasiya texnologiyaları* | - baş müəllim | - 1 yer; |
| *42. Kitabxanaçılıq və informasiya* | - baş müəllim | - 1 yer (0,5 şt); |
| *43. Rus dili və ədəbiyyatı* | - dosent | - 1 yer (0,5 şt); |
| | - dosent | - 1 yer; |
| | - baş müəllim | - 1 yer; |
| *44. Təməl tibb fənləri* | - baş müəllim | - 1 yer; |
| *45. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi* | - dosent | - 1 yer. |

**Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.**

**Ünvan:** Naxçıvan şəhəri, Universitet şəhərciyi
**Telefon:** (036) 545-23-66/10-01

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Bakı Slavyan Universiteti

Kafedra müdiri, professor, dosent və baş müəllim vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün:**

1. Tibbi biliklərin əsasları və mülki müdafiə kafedrası

**Kafedralar üzrə professor vəzifəsini tutmaq üçün:**

| | |
|---|---|
| 1. Azərbaycan tarixi və ictimai elmlər kafedrası üzrə | - 1 yer; |
| 2. Rus ədəbiyyatı tarixi kafedrası üzrə | - 1 yer; |
| 3. Türkologiya kafedrası üzrə | - 1 yer; |
| 4. Azərbaycan ədəbiyyatı kafedrası üzrə | - 2 yer; |

**Kafedralar üzrə dosent vəzifəsini tutmaq üçün:**

| | |
|---|---|
| 1. Alman filologiyası kafedrası üzrə | - 1 yer; |
| 2. Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə | - 2 yer; |
| 3. Türkologiya kafedrası üzrə | - 1 yer; |
| 4. Xarici dillər kafedrası üzrə | - 1 yer; |

**Kafedralar üzrə baş müəllim vəzifəsini tutmaq üçün:**

| | |
|---|---|
| 1. Azərbaycan tarixi və ictimai elmlər kafedrası üzrə | - 1 yer; |
| 2. Azərbaycan multikulturalizmi kafedrası üzrə | - 1 yer; |
| 3. Ümumi dilçilik kafedrası üzrə | -1 yer; |
| 4. Tibbi biliklərin əsasları və mülki müdafiə kafedrası üzrə | - 1 yer; |
| 5. Praktik rus dili və onun tədrisi metodikası kafedrası üzrə | - 1 yer; |
| 6. İbtidai təhsil kafedrası üzrə | - 1 yer; |
| 7. Pedaqogika və psixologiya kafedrası üzrə | - 1 yer; |
| 8. Rus ədəbiyyatı tarixi kafedrası üzrə | - 1 yer; |
| 9. Alman filologiyası kafedrası üzrə | - 4 yer; |
| 10. İngilis filologiyası kafedrası üzrə | - 8 yer; |
| 11. Roman filologiyası kafedrası üzrə | - 4 yer; |
| 12. Rus dili və onun tədrisi metodikası kafedrası üzrə | - 1 yer; |
| 13. Müasir Azərbaycan dili kafedrası üzrə | - 1 yer; |
| 14. Jurnalistika kafedrası üzrə | - 2 yer; |
| 15. Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə | - 1 yer; |
| 16. Türkologiya kafedrası üzrə | - 1 yer; |
| 17. Azərbaycan ədəbiyyatı kafedrası üzrə | - 1 yer; |
| 18. Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrası üzrə | - 1 yer; |
| 19. Tərcümə nəzəriyyəsi və praktikası kafedrası üzrə | - 1 yer; |
| 20. Avropa dilləri kafedrası üzrə | - 1 yer; |
| 21. Slavyan filologiyası kafedrası üzrə | - 1 yer; |
| 22. Xarici dillər kafedrası üzrə | - 1 yer; |
| 23. Beynəlxalq münasibətlər kafedrası üzrə | - 1 yer; |
| 24. Diplomatiya və xarici siyasət kafedrası üzrə | - 2 yer; |
| 25. Rus dili və mədəniyyətlərarası kommunikasiya kafedrası üzrə | - 1yer. |

**Qeyd:** Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində təqdim edilməlidir. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız elmi və elmi-metodiki işlərinin siyahısını təqdim edirlər):

1. Rektorun adına ərizə;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi;
3. Tərcümeyi-hal;
4. Ali təhsil haqqında diplomun surəti;
5. Elmi dərəcə haqqında diplomun surəti;
6. Elmi ad haqqında diplomun surəti;
7. Elmi və elmi metodiki işlərin siyahısı.

**Ünvan:** Bakı AZ 1014, S.Rüstəm küçəsi, 33.
**Telefon:** 599-08-70, daxili nömrə 206

**REKTORLUQ**

# Görkəmli ədibin pedaqoji ideyalarının araşdırılmasına həsr olunmuş monoqrafiya

**Piralı ƏLİYEV,**
*pedaqogika üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi*

Poetik təfəkkürə, yüksək əxlaqi keyfiyyətə və həssas mənəvi aləmə malik olan Azərbaycan xalqının çoxəsrlik tarixi boyunca gənc nəslin tərbiyəsi ilə bağlı zəngin pedaqoji fikirlər toplanmışdır. Bu mənəvi-əxlaqi-pedaqoji sərvətləri öyrənmək, onları pedaqoji təfəkkür süzgəcindən keçirib müasir gəncliyin tərbiyəsində istifadə etmək və məktəb təcrübəsinə gətirmək tədqiqatçıları düşündürən ciddi problemlərdən biri olmuşdur. Çünki yeni pedaqoji fikir keçmişin mütərəqqi irsi ilə orijinal fikirlərin sintezindən yarana bilər. Elə buna görə də Azərbaycanda təlim və tərbiyənin yeni konsepsiyasını, inkişaf tendensiyalarını müəyyənləşdirməyə çalışan tədqiqatçılar Azərbaycan pedaqoji irsindəki qabaqcıl ideya, fikir və təcrübələrin, ayrı-ayrı söz xiridarlarının (Nizami Gəncəvinin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundzadənin, Seyid Əzim Şirvaninin, Həsənbəy Məlikovun, Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin, Firidun bəy Köçərlinin, Məhəmməd Tağı Sidqinin və b.) təlim-tərbiyə ilə bağlı fikirlərinə girişdilər. Bu istiqamətli tədqiqatların indi də davam etdirilməsinə çox böyük ehtiyac vardır. Çünki hələ də xalqımızın bəşəri övladlarının heç də hamısının pedaqoji irsi layiqincə araşdırılmamışdır. Bu baxımdan, Azərbaycan məktəb və pedaqoji fikrinin inkişafı tarixində Hüseyn Cavidin pedaqoji fəaliyyətinə dair araşdırma gərəklidir, əhəmiyyətlidir və aktualdır. Xalqın gələcək taleyinin böyüyən nəslin məqsədəmüvafiq təlim-tərbiyəsindən çox asılı olduğunu aydın dərk edən Hüseyn Cavid həm də alovlu maarifçi-pedaqoq olmuşdur. Fikrimizcə, ulu öndər Heydər Əliyevin böyük mütəfəkkir Hüseyn Cavid haqqında yürütdüyü mükəmməl fikir Cavid əfəndini Azərbaycan pedaqoji fikir nümayəndələri sırasına daxil etməyə tam əsas verir: "Hüseyn Cavidin əsərlərini alimlər təhlil edə bilərlər. Şübhəsiz ki, nə qədər təhlil etsələr, o qədər dərinliyə gedəcəklər. Bəlkə də, böyük dərya kimi heç onun hamısını əhatə edə bilməyəcəklər. Ancaq bununla yanaşı, bizim hamımızın borcu, xüsusən müəllimlərin, məktəblərin, gənc nəsli tərbiyə edənlərin borcu ondan ibarətdir ki, Hüseyn Cavidin əsərlərini hamıya çatdırsınlar, xüsusən bizim gənclərə".

Təbii ki, görkəmli Azərbaycan maarifpərvəri Hüseyn Cavidin ədəbi, bədii, fəlsəfi irsi ilə bağlı dəyərli araşdırmalar aparılmış, haqqında monoqrafiyalar, dissertasiyalar və məqalələr yazılmışdır. Çünki ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Hüseyn Cavidin zəngin pedaqoji irsinə: maarif, məktəb, təlim-tərbiyə, qadın təhsili, uşaq ədəbiyyatı ilə bağlı fikirlərinin təhlilinə bu gün də belə ehtiyac duyulmaqdadır. Hüseyn Cavidin zəngin irsi bu gün də böyüyən nəslin təlim-tərbiyəsində mühüm rol oynayır. XX əsrin əvvəllərində Azərbaycan pedaqoji fikrini və təhsil tarixini onsuz təsəvvür etmək qeyri-mümkündür. Dövrün elə bir mühüm pedaqoji problemi yoxdur ki, Cavid əfəndi ona müdaxilə etməsin və onun yüksək səviyyədə həllinə nail olmasın. Bu baxımdan, Əməkdar müəllim Kamal Camalovun "Hüseyn Cavid və məktəb" adlı monoqrafiyası xüsusi maraq doğurur. Bu əsər Hüseyn Cavid kimi görkəmli bir şəxsiyyətin pedaqoji ideyalarının araşdırılmasına həsr olunmaqla yanaşı, həm də pedaqoji fikir tariximizin indiyə qədər boş qalan bir hissəsini doldurmağa xidmət edir.

Belə hesab edirəm ki, oxucularının görüşünə "Hüseyn Cavid və məktəb" adlı monoqrafiya ilə gəlmiş Kamal Camalovun bu əsəri həmişə aktual olacaq bir mövzuya həsr olunduğundan gərəklidir, Cavidlər ailəsinin ruhuna ehtiramın ifadəsidir və cavidşünaslığa bir töhfədir.

144 səhifədən ibarət olan bu əsər giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir. "Hüseyn Cavid və məktəb" adlı monoqrafiyanın girişində mövzunun aktuallığı əsaslandırılır. Hüseyn Cavidin pedaqoji fəaliyyətinin, yeri və əhəmiyyətinin tədqiqi zərurətinin müstəqil dövlətimizin milli-mədəni irsə qayğıkeş münasibətindən, gənc nəsli məktəb və pedaqoji fikir tarixi ilə yaxından tanış etməyin əhəmiyyətindən irəli gəldiyi göstərilir. Qeyd olunur ki, Cavid əfəndi ötüb keçənlərə deyil, dünəndən bu günə baxmış, sanki dünəni bugünləşdirmiş, dünənə bu günün çalarlarını əlavə edərək sabaha aparmış, əbədiləşdirmişdir. Azərbaycan xalqının milli-ictimai oyanışına, özünütəşkili, özünüifadə və özünütəsdiqinə demək olar ki, bir zəmin yaratmışdır. Artıq H.Cavid inqilabi-siyasi mübarizənin hazırlanma yolunu ideoloji maarifçi problemlərinin həllində axtarmağa başlamışdır.

Monoqrafiyanın birinci fəsli "Hüseyn Cavidin həyatı, yaradıcılığı və müəllimlik fəaliyyəti" adlanır və üç yarımfəsildən ibarətdir. Burada, XX əsrin əvvəllərində Azərbaycanda məktəb və maarifin, təlim və tərbiyənin ümumi məsələlərinə toxunulur, pedaqoji fikrin inkişafında mühüm xidmətləri olan Hüseyn Cavidin həyatının və yaradıcılığının ən mühüm dövrləri təhlilə cəlb olunur. Maarifçilik fəaliyyəti, ictimai-siyasi görüşləri ilə bağlı daha ətraflı və səhih məlumat vermək məqsədilə tədqiqatçı xeyli arxiv materiallarını və ilk mənbəni tədqiqata cəlb etmiş, Hüseyn Cavidlə bağlı yazılmış demək olar ki, bütün elmi əsərləri saf-çürük etmişdir. Bütün bunlar tədqiqatçıya imkan vermişdir ki, mükəmməl bir monoqrafiya yazsın. Birinci fəsildə ön söz müəllifi akademik İsa Həbibbəylinin sözləri ilə desək, "Kamal Camalov ilk dəfə olaraq Hüseyn Cavidin həyatı və yaradıcılığını pedaqoji aspektdən əhatəli və sistemli şəkildə tədqiqata cəlb etmiş, geniş təhlillər aparmış, zəruri və əhəmiyyətli nəticələrə gəlmiş" və yaxud, Hüseyn Cavidin ömür və sənət yolu şəxsiyyət və mühit münasibətləri sistemi daxilində öyrənilmiş, dövrün ictimai-siyasi hadisələri və pedaqoji hərəkat şərtləndirilmiş, onun yaradıcılığı, zəmanəsində baş verən ictimai-siyasi proseslərin və mədəni quruculuğun meyilləri, müəllimlik fəaliyyəti, həmçinin müəllim şəxsiyyəti və müəllim hazırlığı haqqında olan fikirləri ümumiləşdirilərək monoqrafiyada əks etdirilmişdir.

Monoqrafiyanın "Hüseyn Cavidin maarifçilik ideyaları" adlı ikinci fəslində Hüseyn Cavidin ümumi təhsil, təlim məsələləri, ana dilinin tədrisi, müəllim-tərbiyəçi şəxsiyyəti ilə bağlı fikirləri təhlil predmetinə çevrilir. Təlimin mahiyyəti, məzmunu, prinsip və metodları, ümumi, icbari, pulsuz olması ilə bağlı H.Cavidin fikirləri üzə çıxarılır və eləcə də romantik şairin nəzəri irsindəki ideyalar elmi-pedaqoji aspektdən təhlil olunur. Maraqlı cəhət odur ki, Hüseyn Cavidin fikirləri sadəcə təsvir olunmur, təhlil olunur və ümumiləşdirilir.

"Hüseyn Cavidin milli-mənəvi tərbiyə ideyaları" adlı üçüncü fəsildə isə böyük mütəfəkkirin əxlaq tərbiyəsi ilə bağlı fikirləri sistemləşdirilir, ümumiləşdirilir və müasir məktəb təcrübəsində istifadə imkanları üzə çıxarılır. Onun tərbiyə ilə bağlı ideyaları həm Şərq, həm də Qərbi Avropa alimlərinin fikirləri ilə səsləşir. Hüseyn Cavidə görə, tərbiyənin məqsədi saf əxlaqa malik əqilli, kamil və vətənpərvər insan tərbiyə etməkdən ibarətdir.

Monoqrafiyada Hüseyn Cavidin vətənpərvərlik, humanizm, dostluq və yoldaşlıq, əmək tərbiyəsi, ailə tərbiyəsi ilə bağlı fikirləri sistemləşdirilir. Bu məqsədlə Hüseyn Cavidin "Ana", "Maral", "Şeyx Sənan", "Knyaz", "Peyğəmbər", "Afət", "Topal Teymur" və s. əsərləri pedaqoji aspektdən təhlilə cəlb olunur. H.Cavid tərbiyənin məqsədi, vəzifələri ilə bağlı aydın fikrə malik olduğu kimi, təlim-tərbiyədə yol verilən qüsurların aradan qaldırılması ilə




bağlı da aydın təsəvvürə malikdir. O, insan tərbiyəsindəki qüsurların səbəbini üzə çıxarır, onların islah yolunu müəyyənləşdirir. Monoqrafiyada işıqlandırılan bir məsələyə nəzər salaq: "Bir ana oğluna "Yavrum! Quzum! Get qardaşını çağır da gəlsin, yeməyini yesin" deyəcəyi yerdə, "Partdamış! Gəbərmiş! Get o qan qusmuş cönənbəri çağır da gəlsin, zəhrimarını zoqqumlasın" - deyir (səh.115). Tərbiyə prosesində gərəkli olan bu vasitələr haqqında monoqrafiyada kifayət qədər material vardır. Hüseyn Cavid böyüyən nəslin təlim-tərbiyəsi, onun mahiyyəti, məzmunu, prinsip və metodları ilə bağlı orijinal fikirlər müəllifidir. Azərbaycanda yeni üsullu məktəblərin açılmasında, milli dərsliklərin yaradılmasında, təlimin ana dilində aparılmasında Cavid əfəndinin böyük xidmətləri vardır. Qeyd etdiyimiz kimi, Hüseyn Cavidin fəaliyyəti çoxşaxəlidir. Onun uşaq ədəbiyyatı ilə bağlı maraqlı fikirləri vardır. Cavid uşaqlar üçün yazdığı şeirlərdə artıq romantik yox, realist uşaq ədəbiyyatının yaradıcısı olmağa çalışmış, yoruculuğa, darıxdırıcılığa, sıxıntıya, səmərəsizliyə qarşı çıxmışdır. Öz uşaq ədəbiyyatı nümunələri ilə ("Qız məktəbində", "Sevinmə, gülmə quzum", "Öksüz Ənvər", "İlk bahar", "Çiçək sevgisi", "Qoca bir türkün vəsiyyəti", "Hərb və fəlakət", "Kiçik sərsəri" və s.) uşaqlarda ideyalılıq, həyatilik, doğruçuluq, yüksək bədiilik, zəngin bədii təxəyyül və s. kimi əxlaqi keyfiyyətlər aşılamağa çalışmışdır.

Monoqrafiyanın nəticə hissəsi əsərin məzmununu əhatə edən ümumi müddəalar, ümumiləşdirmə səviyyəsi və lakonikliyi ilə seçilir. Nəticə on müddəa ilə ümumiləşdirilir. Əsərin dili aydındır, səlistdir və elmi üslubda yazılıbdır.

Mədəni aləmin görkəmli nümayəndəsi olan Hüseyn Cavidin pedaqoji ideyalarını "Hüseyn Cavid və məktəb" adı altında tədqiqata cəlb edən, gənc nəslin tərbiyəsində həmin irsin əhəmiyyətini əsaslandıran, çağdaş dövrümüz üçün əhəmiyyətli elmi müddəalar irəli sürən Kamal Camalovun bu istiqamətdə tədqiqatı davam etdirməsini yüksək qiymətləndirir və ona yeni-yeni uğurlar diləyirəm.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4858, **Sifariş** 1090

**Məsul növbətçi:** Y.Əliyev

# V beynəlxalq xoreoqrafiya festivalında uğur əldə olunub



Təhsil Nazirliyinin tabeliyində olan 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində keçirilən tanınmış rəqqas və baletmeyster Vaxtanq Çabukiani adına V beynəlxalq xoreoqrafiya festivalında iştirak edib. 10 ölkənin iştirak etdiyi festivala 7-11, 12-16 və 17-20 yaş qrupları üzrə rəqqaslar qatılıb.

Festival iştirakçılarının çıxışlarının qiymətləndirilməsi beynəlxalq səviyyəli münsiflər heyəti tərəfindən aparılıb.

2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi festivalda "Təbəssüm" və "Xarı bülbül" rəqs qrupları ilə təmsil olunub. Dərnək üzvləri "Folklor" nominasiyası üzrə "Şənlik" və "Bayram" rəqsləri ilə çıxış edərək "Qızıl kubok" qazanıb və festivalın laureatı adına layiq görülüblər. Festival çərçivəsində Gürcüstanın Xoreoqrafiya Assosiasiyasının vitse-prezidenti, Gürcüstan Dövlət İncəsənət Universitetinin kafedra müdiri, məşhur xoreoqraf Natalya Diqmelaşvili uşaqlara ustad dərsləri keçərək gürcü rəqsləri haqqında məlumat verib.

# Etibarsız sayılır

**Sumqayıt şəhər** 35 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Həsənsoy Akifərol Akif oğluna verilmiş B-698512 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1986-cı ildə Ağalarova Mirkəmalə Seyidəli qızına verilmiş HB-002347 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əmrahova Lalə Əyyam qızına verilmiş B-610886 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 5 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Həsənova Şəbnəm Əvəz qızına verilmiş 288787 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayonu** Abbaslı kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Aslanov Əlixan Ələkbər oğluna verilmiş B-324173 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayonu** Qaracəmirli kənd tam orta məktəbini 1990-cı ildə bitirmiş Məmmədov Əhəd Novruz oğluna verilmiş B-752012 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 3 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Tağızadə (Səmədova) Natəvan Surami qızına verilmiş 550538 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Ordubad Qız Liseyini 2011-ci ildə bitirmiş Cəfərova Könül Vidadi qızına verilmiş A-000638 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** 25 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əlizadə Cavid Elşən oğluna verilmiş B-468246 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 4 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Quliyeva Afaq Hidayət qızına verilmiş A-254737 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 198 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədov Rüfət Balakərim oğluna verilmiş AZE-702432 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən rayonu** Dəstəfur kənd tam orta məktəbini 2012-ci ildə bitirmiş Məmmədov Sənan Səbuhi oğluna verilmiş A-133061 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstititu** (Sumqayıt filialı) tərəfindən 2010-cu ildə Yolçuyeva Gülnarə Mərdan qızına verilmiş B-170356 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 10 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Abbasova Aytən Nəbi qızına verilmiş A-736739 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayonu** Qum kənd tam orta məktəbini 1996-cı ildə bitirmiş Əzizov Mikayıl Seyfəddin oğluna verilmiş AN-093803 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş İsmayılov Əfran Amit oğluna verilmiş B-186942 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayonu** Orta Ləki kənd tam orta məktəbini 2002-ci ildə bitirmiş Aşurova Gülnar Oqtay qızına verilmiş A-613330 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 11 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş İsmayılov Rasim Aydın oğluna verilmiş A-927845 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** Corat qəsəbə 7 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Salahov Rəşad Nazim oğluna verilmiş A-031423 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti** tərəfindən 1986-cı ildə Məmmədov Şahin Xaləddin oğluna verilmiş HB-007377 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Qənizadə Azər Rauf oğluna verilmiş AN-782479 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2013-cü ildə Əliyeva Günel Eldar qızına verilmiş AN-003878 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayonu** Parakənd kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Paşazadə Aşur İbrahim oğluna verilmiş B-720254 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2005-ci ildə Qasımov Emin Hikmət oğluna verilmiş B-039717 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Tibb Texnikumu** tərəfindən 1998-ci ildə Quliyeva İlhamə Yusif qızına verilmiş AB-II-032523 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Sahibcanova Səbinə Əli qızına verilmiş A-136223 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayonu** Balçılı kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Əliyeva Nərgiz Əli qızına verilmiş 105040 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Qarakazımlı kənd tam orta məktəbini 1992-ci ildə bitirmiş Əhmədov Elçin Nəsib oğluna verilmiş 223654 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz Peşə Liseyi** tərəfindən 2008-ci ildə Umerov İbrahim Nazimoviçə verilmiş BB-033449 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 292 nömrəli (indiki 5 nömrəli) tam orta məktəbi 1999-cu ildə bitirmiş İsmayılzadə Xəlil Ağacəfər oğluna verilmiş A-290663 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Kijəbə qəsəbə orta məktəbini 2015-ci ildə bitirmiş Baxşiyev Kənan Ağaxan oğluna verilmiş A-481145 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**31 nömrəli Bakı Peşə Məktəbi** (indiki 5 nömrəli Peşə Liseyi) tərəfindən 1995-ci ildə Əhmədov Samir Oktay oğluna verilmiş 0965707 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 1996-cı ildə Ağayeva Esmira Elman qızına verilmiş AB-II-033987 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayonu** Surra kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş Qarayev Asim Pəhlivan oğluna verilmiş A-062773 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 6 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Qurbanov Burhanaddin Fikrət oğluna verilmiş A-328889 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 60 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Həmidov Əziz Tofiq oğluna verilmiş B-689312 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2017-ci ildə Cavayev Murad Ağakişi oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 3 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Osmanova (Qədimova) Gövhər Sərxan qızına verilmiş B-649682 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 9 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Novruzova Aynur Rauf qızına verilmiş A-134744 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 28 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Məmmədəliyev Rəfi Natiq oğluna verilmiş A-236596 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2016-cı ildə Qurbanova İradə Şakir qızına verilmiş IM-000657 nömrəli magistr diplomu itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 1 nömrəli məktəb-liseyi 2016-cı ildə bitirmiş Orucova Arzu Ədalət qızına verilmiş A-525186 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 7 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş İsgəndərova İlahə Nizami qızına verilmiş A-273521 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayonu** Mirzəhüseynli kənd ümumi orta məktəbinin IX sinfini 2000-ci ildə bitirmiş Qurbanova Xəyalə Tofiq qızına verilmiş B-358879 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Politexnik Texnikumu** tərəfindən 1987-ci ildə Əmrahova Rəfiyə Rafiq qızına verilmiş HT-025539 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

132-134 nömrəli təhsil kompleksinin pedaqoji kollektivi kompleksin ərəb dili müəllimi İradə Ələkbərovaya atası

**SABİR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Firdus Əhmədov ailəsi ilə birlikdə Bakı şəhər 64 nömrəli tam orta məktəbin direktoru Rəfael Mehdiyevə qardaşı

**MAİL MEHDİYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər 240 nömrəli tam orta məktəbin rəhbərliyi və pedaqoji kollektivi məktəbin ibtidai sinif müəllimi Şərqiyyə İsayevaya anası

**BAHAR İSKƏNDƏROVANIN**

və qayınanası

**GÜLDƏSTƏ İSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şamaxı Rayon Təhsil Şöbəsinin müdiri ADPU-nun Şamaxı filialının direktoru Tünzalə Yusifovaya qardaşı

**ŞAİQ VƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universiteti nəzdindəki "Gənc istedadlar" liseyinin kollektivi liseyin fizika müəllimi Kərəm Səfərova həyat yoldaşı

**SƏADƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Strange or interesting English words, phrases and facts

| | |
|---|---|
| The Oxford English Dictionary contains more than 400,000 words, but half are not normally used now. | |
| William Shakespeare used about 30,000 words, but most people only use 10,000. | |
| About 375 million people speak English as their first language (215 million in the USA, and 61 million in the UK). | |
| The ten most common words in English are ‘the’, ‘be’ (including ‘are’, ‘is’, ‘was’ and ‘were’), ‘to’, ‘of’, ‘and’, ‘a’, ‘in’, ‘that’, ‘have’ and ‘I’. | |
| ‘Be’, ‘have’, ‘do’, ‘go’, ‘say’, ‘can’, ‘will’, ‘see’, ‘take’ and ‘get’ | These are the ten most commonly used verbs in English. They are all irregular. |
| ‘Set’ | This word has the most definitions of any word in the English language. There are 464 definitions in the Oxford English Dictionary. |
| ‘Mother’ | In 2004 the British Council asked 40,000 people to choose the most beautiful word in English. ‘Mother’ was the first, then ‘passion’, ‘smile’ and ‘love’. |
| ‘The quick brown fox jumps over the lazy dog.’ | This is an example of a pangram – a sentence that uses every letter of the alphabet. People often use it to learn to type. |
| ‘Eleven plus two’ = ‘Twelve plus one’ | This is an example of a true anagram – a word or phrase made by using the letters of another word or phrase in a different order. It also explains or describes the word it is made from. |
| ‘Was it a car or a cat I saw?’ | This is an example of a palindrome, a phrase that is the same if you read it left to right or right to left. |
| *Source: A Collection of Word Oddities and Trivia http://jeff560.tripod.com/words.html* | |

## Activity 6

Match a beginning and an ending.

1. Only 50 per cent of the words in the Oxford English Dictionary
2. The most common words in English
3. The most common English verbs
4. One English word has more than
5. People think the most beautiful word in English

a. 450 definitions.
b. are irregular.
c. are small words.
d. are used today.
e. is ‘mother’.

## Activity 7

Match the example with the description.

1. Get
2. Madam I’m Adam.
3. My ex pub quiz crowd gave joyful thanks.
4. That
5. The eyes – they see

a. a very common English verb
b. a very common English word
c. anagram
d. palindrome
e. pangram



Some of the 150 million items in The British Library



Foreign students in the UK

**Useful links >**

This content on video: http://learnenglish.britishcouncil.org/en/britain-great

British Council – English: http://www.britishcouncil.org/english

**Answers**

Activity 6
1. d; 2. c; 3. b; 4. a; 5. e

Activity 7
1. a; 2. d; 3. e; 4. b; 5. c

**To find more English language activities visit: http://learnenglish.britishcouncil.org**

© British Council 2013

ENGLISH IS GREAT BRITAIN